Xalqın qəzeti!

# Xalq qəzeti

№ 78 (30772) 20 aprel 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qarabağın dirçəlişi uğurla davam edir

*Bərpa-quruculuq işlərinə I rübdə 830 milyon manat xərclənib*



Səhifə ⇨ 7



## Azərbaycan–İran əməkdaşlığı ölkələrimizin maraqlarına əsaslanır

**Son dövrlərdə Azərbaycan və İranın yüksək səviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərləri intensiv xarakter alıb və bu, ölkələrimiz arasında qonşuluq və dostluq münasibətlərinin möhkəmlənməsinə, eləcə də ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsinə əlverişli imkan yaradıb.**

Azərbaycan–İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyanın vaxtaşırı iclaslar keçirməsi və bu toplantılarda iqtisadi-ticari, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı məqsədilə zəruri layihələrin müzakirəsi də iki qonşu ölkə arasında mövcud sosial-iqtisadi əməkdaşlığı möhkəmləndirir, əlaqələri genişləndirir.

Hər iki ölkənin prezidentinin verdiyi tapşırığa uyğun olaraq ticarət əlaqələrinin daha da möhkəmləndirilməsi istiqamətində mövcud potensialın maksimum dərəcədə reallaşdırılması üçün hökumətlər səviyyəsində birgə səylərə də xüsusi önəm verilib. İnvestisiya sahəsində əməkdaşlığın inkişafı da daim diqqətdə saxlanılıb, Azərbaycanın sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti, ticarət və xidmət sahələrində fəaliyyət göstərən İran investisiyalı kommersiya qurumlarının əhatə dairəsi getdikcə genişlənib.

Ekspertlər tərəfindən nəqliyyat sahəsi ikitərəfli əməkdaşlığın əsas istiqamətlərindən biri kimi yüksək dəyərləndirilib. Bu zaman 2024-cü ildə Azərbaycan ilə İran arasında ikitərəfli yükdaşımaların həcminin 20 faiz, tranzit daşımaların isə 23 faizdən çox artması faktına əsaslanılıb.

Yeri gəlmişkən, nəqliyyat sahəsində prezidentlər səviyyəsində əldə edilən razılaşmalar hər iki hökumət üçün yol xəritəsi kimi yüksək dəyərləndirilib və bu yol xəritəsi kontekstində bir sıra qarşılıqlı faydalı layihələrin icra olunmasına, digər əhəmiyyətli layihələr üzrə isə səmərəli işbirliyinin davam etməsinə başlanılıb.

Xatırladaq ki, bu layihələr hər iki ölkənin nəqliyyat əlaqələrinin genişlənməsi ilə yanaşı, regionun, xüsusilə, nəqliyyat və logistika imkanlarının artmasına hesablanıb. Bunların sırasında Şimal–Cənub Nəqliyyat Dəhlizinin təşviqi, o cümlədən Astara yük terminalının tikintisi və Astaraçay çayı üzərində inşa edilən yeni avtomobil və piyada körpüsü Azərbaycan–İran arasında iqtisadi əməkdaşlığın daha da möhkəmlənməsinə səbəb olub.

*(ardı 3-cü səhifədə)*

## Qarabağ avantürasının 50 min dramlıq dramatizmi

*Yaxud Samvelin "prezidentliyi" və çörək əvəzinə, minnət*



**Dahi Mirzə Fətəli Axundzadənin 1857-ci ildə qələmə aldığı "Aldanmış kəvakib" əsərinin baş qəhrəmanı olan Yusif Sərrac insanları, sanki, qaranlıq dünyadan işıqlı dünyaya çıxardır, ancaq heç kəs onun qədrini bilmir, sonda şahlıqdan uzaqlaşdırılır və edam kürsüsünə çıxarılır.**

İndi deyəsən, "Artsax" deyilən ölü separatizm ocağının Ermənistanda məskunlaşmış başçısı Samvel Şahramanyan da Yusif Sərraclıq eşqinə düşüb. Sən demə, 2023-cü ilin sentyabrında Qarabağın erməni əhalisinin bölgədən sərbəst şəkildə çıxmasını təmin edən o imiş. Guya, o olmasaydı, azərbaycanlılar erməniləri qıracaqmış. İddia həqiqətən gülməlidir. Amma daha gülməli olan Samvelin özünü "prezident" adlandırması və ona bu cür xitab edənlərin mövcudluğudur. Beləlḹri isə var. Nəinki var, onlar hətta Şahramanyan qarşısında tələb də səsləndirirlər: İdarə edə bilirsənsə et, edə bilmirsənsə, get, başqası gəlsin!

Məsələ ondadır ki, "Artsax", obrazlı desək, meyiti ortada qalıb iylənən, torpağa tapşırılmayan cəmdəkdir. Ermənistan baş naziri Nikol Paşinyan və komandası bu xəbəri cəmiyyətə çox ehtiyatla çatdırır ki, ürəyi dayanan olmasın. Ona görə erməni iqtidarı müxtəlif xırda tədbirlər gerçəkləşdirir. Bu günlərdə isə Nikolun rəhbərlik etdiyi hökumət Qarabağ ermənilərinə hər ay ödədiyi 50 min dramı kəsib. Əslində, S.Şahramanyanın sual atəşinə tutulması və onun cavab verərkən, Yusif Sərracsayağı minnət qoyması bundan qaynaqlanır.

Diqqət yetirək, Samvel bir yandan deyir ki, guya, Azərbaycan tərəfi ilə dinc əhalinin bölgədən çıxarılması üçün müzakirə aparıb və bu məqsədlə 10 ay bağlı qalmış Həkəri körpüsünün açılmasına nail olub. Digər tərəfdən isə o, ölkəmizin Qarabağ ermənilərini bölgədən zorla çıxardığını iddia edib. Adamın iki fikri üst-üstə düşmür. Ortaya elementar sual çıxır: Azərbaycan zorakılıq etmək istəsə, Samvel, ya başqa hansısa separatçı ölkəmizin qarşısını kəsə bilərdimi? Əlbəttə ki, yox. İkincisi, bu, necə zorakılıqdır ki, Azərbaycan polisi Qarabağı tərk edən sıravi ermənilərə yardım paylayırdı? Nə isə deyəsən, Samvelin tipik erməni xəstəliyinin daşıyıcılarından biri olduğunu və bu səbəbdən hər cür sərsəmləməsinin mümkünlüyünü unutduq.

*(ardı 3-cü səhifədə)*

## Hay diplomatiyasında "natamamlıq" sindromu



**İrəvan isteblişmentində üzdə olan siyasi fiqurların şəxsiyyətin haçalanması, ikiləmnəsi prosesindən əziyyət çəkdikləri göz qabağındadır.**

Bu komanda bir tərəfdən deyir ki, o, Azərbaycanla sülh sazişi imzalamağa və ATƏT-in Minsk qrupunu ləğv etməyə hazırdır, amma o biri yandan psevdomühəribə xofundan qurtula bilmədiyini imitasiya etməklə məşğuldur.

*(ardı 4-cü səhifədə)*

## Avropanın Ukrayna canfəşanlığı

Səhifə ⇨ 11

Səhifə ⇨ 4







Səhifə ⇨ 7

# "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 noyabr tarixli 2356 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 11, maddə 1510 (Cild I); 2024, № 7, maddə 821, № 9, maddə 1005, № 11, maddə 1205; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 20 fevral tarixli 337 nömrəli Fərmanı) 4-cü hissəsində "146" rəqəmləri "164" rəqəmləri ilə, "51" rəqəmləri "57" rəqəmləri ilə və "95" rəqəmləri "107" rəqəmləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 19 aprel 2025-ci il**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 110** **Bakı şəhəri, 15 aprel 2025-ci il**

**"Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının icrası məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Elektrik enerjisi və su təchizatı sahələrində idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 23 noyabr tarixli 235 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 17 iyul tarixli 262 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 950 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 336, № 9, maddə 1048) ilə təsdiq edilmiş "Sudan istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. Qaydalara 1 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair əhali qrupuna aid olan fiziki şəxslərlə bağlanan Müqavilə"nin preambulasına və 4.1-ci bəndinə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin;

1.2. Qaydalara 2 nömrəli əlavə - "Su təchizatı və tullantı sularının axıdılması xidmətlərinə dair hüquqi şəxslərlə və hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərlə bağlanan Müqavilə"nin preambulasına və 4.1.12-ci yarımbəndinə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin.

2. "Sıx müvəqqəti məskunlaşma yerlərində faktiki yaşayan məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin istifadə etdikləri elektrik enerjisi üzrə limitlərin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 fevral tarixli 55 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 308 (Cild I); 2024, № 2, maddə 229) əlavələr - "Forma 1" və "Forma 2"yə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin.

3. "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyindəki publik hüquqi şəxslərin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 aprel tarixli 232 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 483) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin Nizamnaməsi"nin 1.1-ci bəndinə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxsin Nizamnaməsi"nin 1.1-ci bəndinə "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 avqust tarixli 372 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 8, maddə 988) ilə təsdiq edilmiş "Təbii inhisar subyektlərinin Siyahısı"nın 34-cü və 35-ci hissələrinin "Fəaliyyət göstərdiyi ərazi" sütununa "Mingəçevir" sözündən sonra ", Naxçıvan" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 111** **Bakı şəhəri, 16 aprel 2025-ci il**

**"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının hərbi geyim forması ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanları haqqında Əsasnamə"nin və "Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının hərbi geyim forması və fərqləndirmə nişanlarının təsvirləri"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 22 oktyabr tarixli 215 nömrəli Fərmanının 3.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin hərbi qulluqçularının hərbi geyim forması ilə təmin edilməsi normaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 112** **Bakı şəhəri, 16 aprel 2025-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 13 iyun tarixli 138 nömrəli və "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi haqqında" 2019-cu il 12 mart tarixli 87 nömrəli qərarlarının ləğv edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiya mərkəzlərinin yaradılması haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 13 iyun tarixli 138 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 6, maddə 590 (Cild I); 2024, № 2, maddə 209) Qərarı ləğv edilsin.

2. "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin strukturunun təsdiq edilməsi və işçilərinin say həddinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 mart tarixli 87 nömrəli (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 521 (Cild I) Qərarı ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 113** **Bakı şəhəri, 17 aprel 2025-ci il**

**"Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 15 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 66 (Cild I); 2024, № 1, maddələr 96, 110) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası" yeni redaksiyada verilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının (bundan sonra Məlumat bankı) formalaşdırılmasını doqquz ay müddətinədək təmin etsin;

2.2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birlikdə Məlumat bankının "Dövlət informasiya ehtiyatlarının, sistemlərinin və elektron xidmətlərin vahid reyestri"nə daxil edilməsini, həmçinin fərdi məlumatların informasiya ehtiyatlarının və sistemlərinin dövlət reyestrində qeydiyyata alınmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

3.1. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 iyun tarixli 718 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Hökumət buludu" (G-cloud) Konsepsiyasına uyğun olaraq, Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə Məlumat bankının, o cümlədən Məlumat bankında toplanılan məlumatların (sənədlərin) ehtiyat nüsxələrinin "Hökumət buludu"nda yerləşdirilməsini təmin etsin;

3.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na uyğun olaraq, Məlumat bankının aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

4. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti:

4.1. Məlumat bankını mühafizə olunan telekommunikasiya kanalları ilə təmin etsin;

4.2. Məlumat bankının təhlükəsizlik meyarları üzrə monitorinqini və ildə bir dəfədən az olmayaraq təhlükəsizlik üzrə auditini həyata keçirsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə .nk.gov.az və .xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

# Yardımlıda zəlzələ



**Aprelin 19-da Yardımlı rayonunda zəlzələ olub. Bu barədə Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat verib.**

Bildirilib ki, saat 16:00-da qeydə alınan yeraltı təkanların maqnitudası 3,3-ə bərabər olub. Zəlzələ ciddi hiss olunmayıb.

***XQ***

# Qaxda Qərbi Azərbaycana Qayıdış hərəkatına dəstək

**Qərbi Azərbaycan İcması və Qax Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə dünən Qax şəhərində "Qərbi Azərbaycana qayıdış tarixi zərurətdir" mövzusunda elmi-praktik konfrans keçirilib.**



Məclisdə son 2 əsrdə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirdikləri soyqırımı, etnik təmizləmə və deportasiya siyasəti nəticəsində xalqımız ağır məşəqqətlərlə üzləşməsi, soydaşlarımızın insan hüquqlarının kütləvi şəkildə pozulması, onların Qərbi Azərbaycana qayıdışının hüquqi-təşkilati məsələləri diqqət mərkəzində olub.

Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev konfransın Qərbi Azərbaycan həqiqətlərinin təbliğində mühüm



əhəmiyyət kəsb etdiyini vurğulayıb. Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli isə Qərbi azərbaycanlıların XX əsr boyu davamlı olaraq deportasiya edildiklərini, bu ağrılı proses zamanı onlara qarşı törədilmiş vəhşilik və vandallığın bəşəri cinayət olduğunu söyləyib. Sədr İcmanın geri qayıdışı ilə bağlı ölkədə və beynəlxalq aləmdə aparılan işlər barədə məlumat verib.

Milli Məclisin Gənclər və İdman komitəsinin sədri Şahin İsmayılov, parlamentin üzvləri Əli Məsimli, Hikmət Babaoğlu, Məlahət İbrahimqızı, Tənzilə Rüstəmxanlı, Qaya Məmmədov Qərbi Azərbaycan İcması idarə heyətinin üzvü Mahirə Hüseynova, İcmanın Qadınlar Şurası sədrinin müavini Telli Əliyeva, İcmanın Qax nümayəndəsi Həsən Tarverdiyev Qərbi Azərbaycana qayıdış hərəkatına regionlarda dəstək qazandıqılmasının önəmindən, onların dədə-baba yurdlarına dönməsinin beynəlxalq hüququn və bəşəri normaların tələbi olduğunu bildirilib.

***XQ***

# Azərbaycan Gürcüstana "işıq" göndərib

**Azərbaycan Gürcüstanda elektrik xətti qəzasından sonra qonşu ölkənin təcili müraciətinə cavab olaraq dərhal 380-400 MVt elektrik enerjisi ötürüb.**



Qeyd edək ki, aprelin 19-da "Kavkasioni" elektrik xəttində baş vermiş qəza nəticəsində Gürcüstanda elektrik şəbəkəsində enerjisinin kəsilməsi baş verib. Tbilisidə və bir sıra digər bölgələr tamamilə elektriksiz qalıb. Hadisənin səbəbləri hələlik açıqlanmayıb.

Gürcüstanın enerji operatorunun məlumatına görə, ölkədə elektrik enerjisinin verilməsi tədricən bərpa olunur. Tbilisinin bir çox ərazilərində artıq təchizat bərpa olunub.

***XQ***

# Albaniyada da "Odlar yurdu"nun qazı alovlanacaq

**Dünən Azərbaycan sərmayələrinin dəstəyi ilə Dövlət Neft Şirkətnin həyata keçirdiyi "Nur" layihəsinin – Albaniyanın Korça şəhərinin qazlaşdırılmasının ictimai təqdimatı olub.**




Mərasimdə Albaniyanın Baş naziri Edi Rama bildirib: "Bu təşəbbüsün həyata keçirilməsində Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəstəyi misilsizdir. O, Albaniyanın və alban xalqının ən böyük dostudur. Azərbaycan ilə dostluğumuzun göstəricisi olan bu layihənin 2026-cı ilin sonunadək reallaşmasını və Korça əhalisinin qazla təmin olunmasını gözləyirik".

Energetika naziri Pərviz Şahbazov qeyd edib ki, Korça şəhərində qazlaşdırma layihəsini Azərbaycanın investisiyaları hesabına ARDNŞ həyata keçirəcək. Albaniyanın qaz infrastrukturunun inkişafında ilk addım olan bu layihə strateji və rəmzi əhəmiyyət daşıyır.

Xatırladaq ki, 2024-cü ilin noyabrında Albaniyanın İnfrastruktur və Energetika Nazirliyi, "Albgaz" və ARDNŞ şirkətləri arasında Korça şəhərində qaz infrastrukturunun inkişafına yönəlmiş əməkdaşlıq memorandumu imzalanıb.

***XQ***

# Azərbaycan–İran əməkdaşlığı ölkələrimizin maraqlarına əsaslanır

(əvvəli 1-ci səhifədə)

Şərq – Qərb dəhlizinin inkişaf etdirilməsinin, o cümlədən İran ərazisindən keçməklə Naxçıvanla ən qısa əlaqəni gerçəkləşdirəcək Ağbənd – Kəlalə avtomobil və dəmir yolu bağlantısının yaradılmasını və Siyahrud – Ordubad avtomobil körpülərinin inşasını nəzərdə tutan Şərqi Zəngəzur – Naxçıvan nəqliyyat infrastrukturu, eləcə də müvafiq sərhəd – gömrük infrastrukturunun tikintisi kimi önəmli layihələr də Azərbaycan–İran iqtisadi əməkdaşlığının sürətlə genişlənməsini şərtləndirir.

Bu günlərdə Baş nazirin müavini, Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının ölkəmiz tərəfindən həmsədri Şahin Mustafayevin və respublikamızda səfərdə olan İran İslam Respublikasının yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfindən həmsədri Fərzanə Sadeqin başçılıq etdiyi nümayəndə heyətləri, İran ərazisi vasitəsilə Azərbaycanın Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək, Zəngilan rayonunun yaxınlığında Araz çayı üzərində tikintisi davam edən Ağbənd-Kəlalə avtomobil yolu körpüsünə baxış keçiriblər.





Baxış zamanı həmsədrlərə körpünün və avtomagistraldan körpüyə bağlanacaq köməkçi yolun texniki parametrləri, burada yaradılması planlaşdırılan sərhəd-gömrük infrastrukturu, eyni zamanda, tikilməsi nəzərdən keçirilən yeni dəmir yolu körpüsünün layihələri barədə məlumat verilib. Qeyd olunub ki, Ağbənd avtomobil körpüsünün və ona bitişik köməkçi yolun tikintisinin bu ilin sonunadək tamamlanması planlaşdırılır. Bu layihə regionun strateji nəqliyyat infrastrukturunun mühüm hissəsini təşkil etməklə, bir sıra əhəmiyyətli funksiyaları yerinə yetirəcək.

Tikinti işləri başa çatdıqdan sonra yeni yol marşrutu Şərqi Zəngəzur iqtisadi rayonunu Naxçıvan Muxtar Respublikası ilə birləşdirən ən qısa və səmərəli nəqliyyat bağlantısını təmin edəcək, Çin–Mərkəzi Asiya–Azərbaycan–İran–Türkiyə xəttini əhatə edən Şərq-Qərb nəqliyyat dəhlizinin əsas komponentlərindən biri olacaq. Eyni zamanda, Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsinin funksional imkanlarını genişləndirəcək, Körfəz ilə Qara dənizi birləşdirən, həm relyef, həm də iqlim baxımından ən əlverişli avtomobil yolu kimi çıxış edəcək.

Layihələrin reallaşması ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yükdaşımaların artırılmasına, logistik imkanların genişlənməsinə və ümumilikdə geniş kommunikasiya bağlantılarının yaradılmasına şərait yaradacaqdır.

Nümayəndə heyəti, həmçinin Azərbaycan ərazisində tikintisi sürətlə davam edən, strateji əhəmiyyətə malik Horadiz–Ağbənd dəmir yolu xətti ilə də əyani tanış olublar. Bu dəmir yolu xətti regionun əsas nəqliyyat xətlərindən biri olmaqla yanaşı, həm müxtəlif nəqliyyat kommunikasiyalarının şaxələndirilməsi, həm də beynəlxalq yükdaşımaların səmərəli təşkili üçün yeni imkanlar yaradacaq.

Qeyd edək ki, ekspertlərin fikrincə, Ağbənd–Cəbrayıl–Ağdam–Yevlax–Gürcüstan avtomobil marşrutunun və bununla yanaşı, Ağbənd–Laçın–Kəlbəcər–Gəncə–Gürcüstan marşrutunun da gələcəkdə istifadəyə verilməsi hər iki ölkənin yerləşdiyi coğrafiyada yük və sərnişin daşımaları həcminə müsbət təsir göstərəcək, regionun inkişafına yeni imkanlar açacaq. Eyni zamanda, bu marşrutlar Fars körfəzini Qara dənizlə birləşdirən ən əlverişli marşrutlardan birinə çevriləcək.

Azərbaycan – İran iqtisadi əməkdaşlığında enerji layihələrinin sürətlə gerçəkləşməsi də önəmli rol oynayır. Məsələn, Araz çayı üzərindəki "Xudafərin" və "Qız qalası" hidroqovşaqları, eləcə də su elektrik stansiyaları, eyni zamanda, Ordubad və Marazad su elektrik stansiyaları ilə bağlı Azərbaycan – İran əməkdaşlığı böyük əhəmiyyətə malikdir. Ümumiyyətlə, hər iki ölkə üçün böyük əhəmiyyət daşıyan bu infrastruktur layihələri bölgədə inkişafa və tərəqqiyə xidmət edir.

Elektrik enerjisi sahəsində əməkdaşlıq istiqamətində qarşılıqlı fəaliyyət daim diqqət çəkir. Bu fikrin bariz ifadəsi olaraq qeyd edək ki, hazırda Azərbaycan ilə İran arasında ümumi ötürmə gücü 860 MVt olan 5 nöqtədə elektrik ötürücü xətlərin qarşılıqlı bağlantısı mövcuddur. Bu isə enerji təhlükəsizliyinin və dayanıqlı əməkdaşlığın gerçəkləşdirilməsini şərtləndirir.

İki ölkə arasında elektrik enerjisi əməkdaşlığından bəhs edərkən, bir məqama da toxunmaq istərdik. Belə ki, Şərqi Zəngəzur iqtisadi rayonunu İran ərazisindən keçməklə Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək elektrik verilişi xəttinin tikintisinin enerji təhlükəsizliyinin reallaşdırılmasına xidmət etməklə yanaşı, ölkələrimiz arasında elektroenergetika sahəsində əməkdaşlığın möhkəmlənməsinə də böyük töhfələr verəcəyinə əminliklə yanaşılır.

Azərbaycan və İran arasında iqtisadi əlaqələrin inkişafını şərtləndirən bəzi məqamları və müvafiq göstəriciləri də diqqətə çatdırmaq istərdik:

– hər iki ölkə özünün geosiyasi mövqeyi və iqtisadi maraqları baxımından bir-biri ilə iqtisadi-ticari əməkdaşlıqda maraqlıdır. Bu əlaqələr əsasən neft və qaz, kənd təsərrüfatı, nəqliyyat və ticarət sahələrində inkişaf edir;

– 1992-ci ildən etibarən Azərbaycan ilə İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlətlərarası Müştərək Komissiya fəaliyyət göstərir;

– 2024-cü ildə Azərbaycan ilə İran arasında ticarət dövriyyəsi 647 milyon dollar (2023-cü illə müqayisədə dövriyyə 33 faiz artıb) olub;

– İran respublikamıza qum, kvars, gips, sement klinkeri, kərpic, metal konstruksiyalar, sürtgü yağları və s. ixrac edir. Azərbaycan sabun, yuyucu vasitələr, etilen-propilen, polimer məhsulları və ayaqqabının bir hissəsini İrandan alır. Ölkəmizə isə qara metaldan hazırlanmış soba və cihazların idxalına İran liderlik edir. İrandan az da olsa, kondisioner, paltaryuyan maşın, transformator, mebel də gətirilir;

– Azərbaycan isə İrana əsas ixrac malları – polad yarımfabrikatlar, təbii qaz, yeyinti sənayesinin qalıqları, elektrik enerjisi, texniki məqsədlər üçün bitkilər, qara metallardan digər məmulatlar, ipək, plastik kütlələr və onlardan məmulatlar ixrac edir;

– respublikamızda qeydiyyatdan keçmiş İran şirkətlərinin sayı 1000-i ötüb, İranın Azərbaycana yatırdığı investisiyaların həcmi isə 3,4 milyard dollarından çoxdur;

– ticari-iqtisadi əməkdaşlığın inkişafına böyük diqqət yetirilməsinin nəticəsidir ki, iki qonşu ölkə arasında qarşılıqlı ticarət dövriyyəsi həcmi ötən il 32 faizdən çox artıb. Bu dövrdə İran Azərbaycan iqtisadiyyatına 371 milyon dollardan çox investisiya yatırıb.

Burada onu da qeyd edək ki, indiyədək Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi sahədə 30-a yaxın sənəd imzalanıb. İnvestisiyaların qarşılıqlı təşviqi və qorunması, ticarət, enerji, nəqliyyat, turizm, gömrük məsələlərində əməkdaşlıq, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması, iqtisadiyyat və ticarət üzrə əhatəli əməkdaşlıq üzrə sazişlərin qəbul edilməsi bunun parlaq ifadəsidir.

Sənədlər əsasən, investisiya qoyuluşu və maliyyələşdirmə sahələrində həyata keçiriləcək layihələr üzrə əməkdaşlığı, elmi və texniki sahələrdə əldə edilən uğurlardan istifadə, digər ticarət sahələrində bir-birinə yardım göstərilməsi, iki ölkənin şirkətlərinin və iqtisadi qurumlarının filial və nümayəndəliklərinin açılışı və fəaliyyətinin dəstəklənməsi kimi məsələləri əhatə edir. Bu sıraya, eyni zamanda, ölkələr arasında ticarət və tranzit sahələrinin inkişafı üçün lazımi infrastrukturun yaradılması məqsədilə avtomobil və dəmir yollarının inkişaf etdirilməsi üzrə birgə layihələrin həyata keçirilməsi istiqamətində əməkdaşlığın genişləndirilməsi də daxildir.

***V. BAYRAMOV***
***XQ***

# Qarabağ avantürasının 50 min dramlıq dramatizmi

(əvvəli 1-ci səhifədə)

Ancaq Yusif Sərrac sərsəm Şahramanyandan fərqli olaraq müsbət obrazdır. İkincinin ac "artsaxlılar" önündə dedikləri isə heç də pozitiv qiymətləndirilə bilməz. Samvel bildirib ki, bəs "Artsax konstitusiyasına" görə, hər kəs "Milli yığıncağa" müraciət edərək qeydiyyatdan keçib özünü "prezidentliyə" namizəd irəli sürə bilər. Yəni, təxminən belə: Deyirsiniz ki, bacarmırsız, gedin, öz yerinizə bacaran birini tapın. Ancaq Şahramanyan bu fikri söyləməzdən öncə başqa mətləblərə baş vurub. Məsələn, deyib ki, Ermənistan hakimiyyətinin qərarlarına təsir etmək imkanı yoxdur: "Biz onların diqqətinə xalqın çox ağır durumda yaşadığını və 50 minin (dramın) kəsilməsindən sonra insanların küçədə olacaqlarını çatdırdıq, çoxsaylı görüşlər keçirdik. Fəaliyyətimizi koordinasiya edirik. Ermənistan hakimiyyətinin qərarına təsir göstərə bilmirik. Bunun üçün ictimai təzyiq lazımdır".



Göründüyü kimi, S.Şahramanyan fikirləri ilə, az qala, Paşinyan iqtidarına qarşı çıxmaq üçün çağırış səsləndirir. Yeri gəlmişkən, onun çağırış niyyətinin başqa göstəricisi də var. Məsələn, Samvel bildirib ki, "Artsax hakimiyyəti" ATƏT-in Minsk qrupunun buraxılmasına qarşıdır. Yəni, prosesə etiraz edir. Şahramanyan etiraz əlaməti olaraq hansı tədbirlərin görüləcəyindən söz açmasa da, ümumən nəinki onun dedikləri, habelə özünə "prezident" deyən adamın mövcudluğu rəsmi İrəvan üçün siqnal olmalıdır. Necə bir siqnal? Bu barədə söz açacağıq.

Hələlik isə bildirək ki, Azərbaycan hakimiyyətinin bütün bəndləri razılaşdırılmış sülh müqaviləsinin imzalanması üçün Ermənistan qarşısında irəli sürdüyü iki şərtdən biri ATƏT-in Minsk qrupunun ləğvidir. Ölkəmiz bu şərtlə artıq keçmişdə qalmış Qarabağ münaqişəsinin rəsmi şəkildə gündəlikdən çıxmasını təmin etmək istəyir. Nəzərə alsaq ki, münaqişə özündə Ermənistanın ölkəmizə qarşı ərazi iddiası postulatını rəhbər tuturdu, Minsk qrupu kimi təsisatın mövcudluğu həmin iddianın da davamlılıq göstəricisidir. Yəni, iddia tamamilə sıradan çıxmalıdır.

Qeyd edək ki, Ermənistan uzun müddət Azərbaycanın tələbini görməzdən gəldi. Müəyyən vaxt keçdi, rəsmi İrəvanın təmsilçiləri bildirdilər ki, ATƏT-in Minsk qrupunun ləğvi Qarabağ ermənilərinin geri qayıdışı üçün platforma rolunu oynaya bilər. Guya, təsisatın humanitar məqsədlər üçün vacibliyi məsələsini qaldırdılar, amma heç nə edə bilmədilər. Sonra Paşinyan dedi ki, ATƏT-in Minsk qrupunun ləğvi yalnız sülh müqaviləsi imzalandıqdan sonra mümkündür. Bu günlərdə isə Nikol təsisatın barış sazişinin imzalanması ilə paralel şəkildə ləğvi prosedurunun həyata keçirilməsindən söz açıb, onun qalması üçün heç bir səbəbin olmadığını vurğulayıb.

"Bu (Minsk qrupu – red.) münaqişənin həlli üçün yaradılmış yeganə platformadır. "Artsax" səhifəsini bağlamaq, Minsk qrupunu bağlamaq qərarı Ermənistan hakimiyyəti tərəfindən elan olunur. Mən Ermənistan vətəndaşlarından buna reaksiya gözləyirəm", – deyən S.Şahramanyanın əhalini iqtidara qarşı körükləməyə çalışdığı ortadadır. Hesab edirik ki, Nikol və tərəfdarları bu məqamı nəzərə alacaqlar. Onlar, həmçinin, Ermənistanda, mahiyyətcə, separatizmə yönələn çağırışların qalmasının ziyanlı tərəfləri barədə də ciddi düşünməlidirlər. "Bu gün ölkədə kimsə, yaxud kimlərsə, "Artsax" deyib küçələrə çıxırsa, digərləri özlərini olmayan dövlətin "prezidenti" və ya başqa vəzifəlisi kimi göstərirsə, məsələ həm də faşizm prizmasından qiymətləndirilməlidir. Faşizm isə məhv edilməlidir." Bunu Prezident İlham Əliyev bildirib. Dövlətimizin başçısı onu da deyib ki, əgər rəsmi İrəvan faşizmi məhv etməsə, bunu biz edəcəyik. Ölkəmizin məsələyə prinsipial baxışı belədir: Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini, sərhəd toxunulmazlığını təhdid edən istənilən nöqtə Silahlı Qüvvələrimizin legitim hədəfidir. Yəni, hazırda Şahramanyan kimi səfehlərin, separatçı tör-töküntülərinin dilə gəlməsi, hansısa tələblər səsləndirməsi, bəyanatlar verməsi Ermənistanı hədəfimizə çevirir. Rəsmi İrəvan məhz bunun fərqində olmalıdır.

O ki qaldı, Qarabağ ermənilərinə, bəli, bu zavallıların vəziyyəti həmişə ağır olub. İndiki durum daha da dramatikdir. Ancaq nəzərə alaq ki, onlar Ermənistan vətəndaşlarıdır. Yəni, vətəndaş olaraq hüquqlara malikdirlər. Qarabağda separatçı rejimin mövcud olduğu dönəmdə də Qarabağ ermənilərinin sosial müdafiəsi ilə bağlı tədbirlər erməni iqtidarı tərəfindən həyata keçirilib. İndi bu adamlardan 50 min dram kəsilirsə, ilk baxışdan, qərar ədalətlidir. Axı digər vətəndaşlardan nə ilə fərqlənirlər? Heç nə ilə. Tamam, anladıq ki, ev-eşiklərindən çıxıblar, amma Ermənistan hakimiyyəti onları haradasa yerləşdirib. Daha nə etməlidir?

Əlbəttə, məqsədimiz heç də Paşinyan hakimiyyətini müdafiə etmək deyil və ola da bilməz. Həm də ona görə ki, hər bir toplumun başına gələnlərdə, ilk növbədə, onun özü günahkardır. Qarabağ erməniləri də həmçinin. Onlar uzun müddət erməni separatizminin ruporu rolunda çıxış ediblər. Yəni, xəstə ideologiyanın həyata keçməsində bəlli rol oynayıblar. 2023-cü ildə yoldan dönmək şansları yaranmışdı, dövlətimiz tərəfindən yüksək səviyyəli təminat verilmişdi. Fikrimizin sübutu kimi, Prezident İlham Əliyevin 2023-cü il sentyabrın 20-də, yəni Qarabağda lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan və suverenliyimiz tam bərpa olunduqdan sonra xalqa müraciətindəki bu fikirləri yada salaq: "Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir".

Bəs Azərbaycanın təklifləri nələrdən ibarət idi? Dövlətimizin başçısı xalqa müraciətində buna da aydınlıq gətirmişdi: "Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək - təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu, bizim böyük sərvətimizdir".

Bəli, böyük sərvətdən imtina yolu tutan Qarabağ erməniləri Prezident İlham Əliyevin müraciətində ifadə etdiyi "Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır", "Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər" fikirlərindən nəticə çıxarmadılar, şansı qaçırdılar, evlərini tərk edərək Ermənistana gedib, belə demək mümkünsə, avantürizmin niskil daşıyıcılarına çevrilməyi seçdilər.

Sonda bildirək ki, "Aldanmış kəvakib"də Yusif Sərrac hakimiyyət taxtından uzaqlaşdırıldıqdan sonra əhali yenidən Şah Abbasın bərbad idarəçiliyi ilə üzləşir. Qarabağın erməni əhalisi illər ərzində Azərbaycana tabeçilik dövrünün, yəni obrazlı desək, Yusif Sərrac idarəçiliyinin qədrini bilmədi və yekunda acınacaqlı durumla üzləşdi. Bu gün isə həmin əhali 50 min dramın davasını döyür, saxta Yusif sərracların yaxasından yapışır, çörək əvəzinə onların minnətini yeyir. Əslində, ortada bir toplum üçün son dərəcə acınacaqlı durum var. Bu da "Artsax" hayqırıb şivən qoparmağın axırı. Hə, onu da deyək ki, 50 min erməni dramı bizim pulla 217 manat 42 qəpikdir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hay diplomatiyasında “natamamlıq” sindromu

*(əvvəli 1-ci səhifədə)*

Ermənistan baş naziri Nikol Paşinyan parlamentarilər qarşısındakı çıxışında bu barədə danışıb. “Azərbaycan rəsmi səviyyədə sazişin imzalanmasını iki məsələ ilə əlaqələndirir. Bunlardan birincisi ATƏT-in Minsk qrupunun buraxılmasıdır. Biz Bakının ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı irəli sürdüyü gündəliyi başa düşürük. Doğrudan da, əgər biz münaqişə ilə bağlı səhifəni bağlayırıqsa, onda onun həlli ilə məşğul olan format nəyə lazımdır?” – deyə məntiqi izah verən Paşinyan ardınca dərhal Ermənistanın təhlükəsizliyi, təcavüzdən sığortalanması kimi absurd tezisləri irəli sürür.

Paşinyan deyir ki, ATƏT-in Minsk qrupu, ən azı, de-fakto, daha geniş kontekstə malikdir: “Biz əmin olmaq istəyirik ki, Bakı Minsk qrupunun buraxılmasını Azərbaycan ərazisində Ermənistan–Azərbaycan münaqişəsinin bağlanması və onun Ermənistanın suveren ərazisinə keçməsi istiqamətində atıla biləcək addım kimi görmür”. Ardınca hayların baş naziri bu “narahatlığı” aradan qaldırmaqdan ötrü Azərbaycana eyni vaxtda sülh sazişi imzalamağı və Minsk qrupu strukturlarının ləğvi üçün ATƏT-ə birgə müraciət olunmasını təklif etdiyini açıqlayır. Bu təklifin tam rəsmi olduğuna işarə vuran Paşinyan eyni yerdə və eyni anda həm birinci, həm də ikinci məsələyə imza atacaqlarını məqbul variant kimi irəli sürür.

* *\ *

Amma sonra nə baş verir? Ermənistan parlamentindəki həmin çıxışı zamanı Paşinyan əvvəl dediklərinə tamamilə əks bəyanatlar verir: “Aydındır ki, həm Ermənistanın daxilində, həm də onun hüdudlarından kənarda müəyyən qüvvələr hər gün müharibə təbliğatı aparır və onun həyata keçirilməsinə yönəlmiş konkret fəaliyyətə çağırırlar”. Bu zaman çıxışına ara verən baş nazir sanki çaşdığını anlayır və səhvini düzəltməyə çalışır: “Bu kontekstdə Ermənistanla Azərbaycan arasında yeni eskalasiyanın və hətta yeni müharibənin olacağını proqnozlaşdıran bütün söhbətlərə cavab verməyi zəruri hesab edirəm. Müharibə üçün heç bir əsas yoxdur. Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü, suverenliyini, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını, güc tətbiqinin və ya güc tətbiq etmə hədəsinin yolverilməzliyini tanıyıb”.

Bununla da kifayətlənməyən Paşinyan yenidən “sülh göyərçini”nə dönüb ictimaiyyətin menyusuna “pozitiv” mesajlar ünvanlayır: “Ermənistan və Azərbaycan xalqları sülhə və dinc yanaşı yaşamağa layiqdirlər. Müharibə olmayacaq – sülh olacaq”.

İndi gəl bu diplomatik taftologiyanın izahını ver. Paşinyan bir tərəfdən Azərbaycanın Ermənistanı işğal etmək niyyətində olduğundan şübhələnir və bununla bağlı ATƏT-in Minsk qrupunun “vaxtından əvvəl” buraxılmasından qorxur. Əslində, bu, Ermənistanın daxili və xarici siyasətinin, habelə Paşinyanın siyasi iradə baxımından zəifliyinin büruzə verildiyi, psixoloji cəhətdən maraqlı və kifayət qədər mürəkkəb sualdır. Aydın məsələdir ki, baş nazirin əsas qayğısı sülhdən, ölkənin rifahı və mənafeyindən çox siyasi hakimiyyəti saxlamaqdır. Paşinyan sülh sazişi imzalamaqla daxili müstəvidə özünə siyasi məsuliyyət yaradacağını yaxşı anlayır. Digər tərəfdən isə Ermənistanla Azərbaycan arasında yeni müharibəni qabaqcadan görənlərlə mükaliməyə girir və “müharibə olmayacaq – sülh olacaq” qənaətini gündəmə gətirir. Yəni, özü özü ilə ziddiyyət təşkil edir. Fikrimizcə, səbəb sadədir: bu, Paşinyanın milli lider kimi hakimiyyətdə olduğu zaman müharibədə Ermənistanın məğlubiyyətini etiraf etməkdən yaşadığı kompleksdir. Siyasi nöqteyi-nəzərdən, bu, asanlıqla aşıla biləcəyi məsələ deyil.

Xarici siyasət baxımından Paşinyan hələ də qeyri-müəyyən ümidlərə qapıla bilər ki, ABŞ onun xeyrinə sülh prosesinə hansısa formada müdaxilə edəcək. Onun məqsədi sülh sazişini imzalaması zərurətini və bunun daxili siyasətdə törədəcək nəticələrini gecikdirməkdir. Paşinyanın ABŞ-ın müdaxiləsinə ümidləri Ermənistanın Bayden administrasiyası dönəmində müştəri dövlətə çevrildiyi, buna görə də “qoruna biləcəyi” inamına əsaslana bilər. Amma bunun real, praqmatik hesablamadan daha çox ərköyün istək olduğunu əminliklə söyləyə bilərik. Çünki bu gün Donald Trampın tamamilə fərqli prioritetləri və xarici siyasət gündəmi var.



Sülhü ləngitmək səmərəsiz məşqdir və o, siyasi çarəsizlikdən yaranır. Ham də qaçılmaz sonluğu gecikdirmək zamanın çarxını dayandırmağa girişən Don Kixot cəhdidir. Nikol Paşinyan bəyanatlarında hərdən o qədər ziddiyyətli ola bilir ki, Ermənistanın daxili və xarici siyasi parametrləri pozulur, uyğunluq itir. Bu da öz növbəsində dilemmalar və ziddiyyətlər yaradır. Təəssüf ki, bu ziddiyyətlərin həlli üçün İrəvanın aydın siyasi davranışı yoxdur.

* * *

Paşinyan hələ də eyni vaxtda bir neçə stulda oturmaq cəhdlərindən əl çəkməyib. Əgər Azərbaycan 2020-ci ildə razılaşdırılmış şərtlərin icrasını əldə edərsə, onda heç bir problem olmayacaq. İrəvanın ATƏT-in Minsk qrupunun buraxılmasından sonra Azərbaycanın dərhal hücuma keçəcəyi ilə bağlı qorxuları tamamilə əsassızdır. Bunu Paşinyan özü də bilir. Sadəcə, o, Fransanın Minsk qrupunda olması səbəbindən onun buraxılmasını istəmir. Ona lazımdır ki, Aİ və Fransa erməni siyasi isteblişmentinin qərbyönümlü istiqamətə sadiqliyini nəzərə alaraq, bir neçə il əvvəl təməli qoyulmuş sülh müqaviləsi imzalanana qədər Azərbaycana təzyiqləri davam etsinlər.

Deməli, Paşinyan bütün treklərdə qeyri-səmimidir. Sülh təklifinin müəllifi Azərbaycanın Ermənistanı işğal etmək niyyətindən şübhələnmək ağılsızlıqdır. Əgər İrəvan faktiki olaraq razılaşdırılmış sazişi imzalamaq niyyətindədirsə, yadda saxlamalıdır ki, Azərbaycan sülhə gəlməyə hazır olduğunu deyən, amma dərhal sərhəddə təxribat törədən Ermənistandan fərqli olaraq, heç vaxt öz sözündən dönmür, onun mövqeyində haçalanma baş vermir.

Əgər indi biz İrəvanın xəstə diplomatiyasına diaqnoz qoymalı olsaq, bu zaman Paşinyan komandasının sülhlə manipulyasiya oyunlarına, onun deqradasiyalaşdırılması üçün göstərdikləri xəstə cəhdlərinə istinad etməliyik.

***İmran BƏDİRXANLI***
***XQ***

## Ekspert rəyi

**Tofiq ABBASOV,**
**siyasi icmalçı**



– Sözsüz, Ermənistanın diplomatiyası natamam diplomatiyadır. Əslində, buna diplomatiya da demək olmaz. Çünki hayların adından danışanlar onların kənardakı havadarları, pərdə arxasından idarə edən gözəgörünməz qüvvələrdir. Bir halda bu xalqın milli hədəfləri, bacarıqlarını səfərbər edən imkanlar mövcud deyilsə, heç vaxt özündə sağlam nüvəni daşıya bilməz.

Məsələ bundadır ki, bu qondarma dövləti yaradan güclər həmişə ermənilərdən “maşa” kimi istifadə etməyə çalışıblar. Bu təcrübə hələ də davam etdirilir. Aydın görünür ki, Paşinyanın özü, onun komandasında, ətrafında, doğrudan da, ikilənmə prosesi gedir. Vahid məqsədin, dəqiq prioritetlərin olmaması səbəbindən kənardan verilən buyruqlara həmişə “bəli, baş üstə” deməyə hazırdırlar. Bu hakimiyyət, faktiki olaraq, “Qafqaz evi”ndə birgəyaşayış prinsiplərini heç də düzgün anlamaq iqtidarında deyil. Axı, bundan ötrü məfkurə, təfəkkür, sağlam məntiq olmalıdır.

Azərbaycan diplomatiyası ilə müqayisə aparsaq, görərik ki, bizim qarşımızda daim konkret hədəflər olub. Bəli, 1918-ci ildə çox gərgin geosiyasi şəraitdə yaradılmış ilk müstəqil respublikamız dövrün təzyiqlərinə davam gətirə bilmədi. Bu günə gəldikdə isə Azərbaycan diplomatiyası həmin dövrün həm təcrübəsini, həm də səhvlərini nəinki nəzərə alır, eyni zamanda onlardan lazımi qənaət və nəticələr çıxarıb. Məhz buna görə bu gün Azərbaycan özünü dünya birliyi qarşısında müvəffəq subyekt kimi tanıdıb.

Sülh məsələsi alternativ tanımayan məsələdir. Çünki, sülh və əmin-amanlıq insanların, xalqların, cəmiyyətin inkişafı üçün zəruri amildir. Əgər ermənilər bu məsələdə yenə “dəlləklik edərək” sürüşkən yola düşürlərsə, deməli, onları sülhə deyil, müharibələrə, münaqişələrə proqramlaşdırıblar. Bu təlimatdan çıxa bilməyən hay cəmiyyəti qonşularına problem yaratmağa çalışır.

İrəvan isteblişmentinin təzadlı davranışı, ziqzaqvarı hərəkəti, tez-tez sözlərini dəyişməsi, bir yandan sülhdən pafosla danışıb, o biri yandan onun rüşeymlərini parçalaması Ermənistanın diplomatik dəsti-xəttidir. Əlbəttə ki, buna sağlam yanaşma demək mümkün deyil. Əgər bir xalq daim içində nifrətlə yaşayırsa, onun nə sağlam həyat tərzi, nə də qonşuları ilə normal münasibəti ola bilər. Belə xəstə davranış sərgiləyən dövlətin və xalqın gələcəyi olmur.

---

# Məhbus senator Menendesin arvadı Arslanyan da müttəhim kürsüsündə

**Qatı ermənipərəst senator Robert Menendesin arvadı Nadin Arslanyanın məhkəmə işi davam edir. Məhkəmə ilə bağlı “Courthouse News Service” saytının yazdığı məqalədə bildirilir ki, Nadin Arslanyan əri, ABŞ-ın sabiq senatoru Robert Menendesi 11 il həbsə göndərən rüşvət və korrupsiya sxemində fəal rol oynayıb. O, ərinə rüşvət – nağd pul, qızıl külçə və avtomobil verən, yaxud vermək istəyən bir neçə nəfərə vasitəçilik edib. Bu barədə ABŞ prokurorunun köməkçisi Paul Monteleoni deyib: “Menendes səlahiyyəti satışa çıxarılan senator idi. Təqsirləndirilən şəxs onun vasitəçisi olub, pulun ödənilməsini tələb edib və həmişə ərini bu məsələ ilə bağlı məlumatlandırıb”.**

Monteleoninin sözlərinə, o, Nyu-Cersi ştatından olan iş adamları və hətta, Misir dövlətinin məmuru ilə görüşərək, əslində, satıcı kimi fəaliyyət göstərib. Daha sonra Arslanyan ərini onların federal səviyyədə araşdırmalardan qorumaq da daxil olmaqla bir sıra tələblərini yerinə yetirməyə təşviq edib.

Hazırda Nadin Arslanyan əri kimi eyni rüşvət sxeminə görə mühakimə olunur. Onun məhkəməsi səhhətindəki problemlərə görə 2025-ci ilə qədər təxirə salınmışdı. O vaxt bildirilmişdi ki, N. Arslanyanın “sağlamlıqla bağlı problemləri” olduğunu federal prokurorlar və hakim ciddi qəbul ediblər. Bu səbəbdən onun məhkəmə prosesinin təxirə salınması istəyini qəbul edərək, işi ayrıca icraata veriblər. N. Arslanyana qarşı isə rüşvətxorluq, dələduzluq, qəsb və ədalət mühakiməsinə mane olmaqla 15 cinayət ittihamı irəli sürülüb.

Yada salaq ki, ABŞ-da erməni lobbisinin əlaltısı olan keçmiş senator Menendes Misir və Nyu-Cersi iş adamlarından siyasi güzəştlər, Qətər rəsmilərinin investisiyalarının təhlükəsizliyinə təminat müqabilində, qızıl külçələr də daxil olmaqla, rüşvət aldığı üçün 11 il həbs cəzasına məhkum edilib.

Menendesin Nyu-Cersidəki evində axtarış zamanı Federal Təhqiqatlar Bürosunun agentləri təxminən yarım milyon dollar məbləğində nağd pul, həmçinin təxminən 150 min dollar dəyərində qızıl külçələr və dəbdəbəli “Mercedes-Benz” kabrioletini aşkara çıxarıblar. Qızıl külçələrin 4-ü oğurluq olub. Onların nömrəsi 2013-cü ildə biznesmen Freyd Daybesin evindən oğurlanan qızıl külçələrlə eyniyyət təşkil edib.

Onu da qeyd edək ki, Menendes Nyu-Cersi ştatının senatorundan daha çox ermənilərin vəkili kimi tanınıb. Senatın Xarici Əlaqələr Komitəsinin rəhbəri olduğu dövrdə fəal ermənipərəst mövqeyi və anti-Azərbaycan fəaliyyəti ilə diqqət çəkib. Təsadüfi deyil ki, hər il aprel ayının əvvəllərində Menendes xüsusilə fəallaşıb. O, saxta “erməni soyqırımı”nın ABŞ-da rəsmən tanınması üçün hər il dəridən-qabıqdan çıxıb. Bu məsələdə erməni əsilli arvadı N. Arslanyanın da təsiri az olmayıb.




“Ermənilərin Azərbaycanın təcavüzündən qorunması haqqında” bədnam qanun layihəsinin də müəllifi Menendesdir. O, başına özü kimi ermənipərəst senatorlar Bill Kessidini, Kris Van Holleni, Aleks Padilyanı, Şeldon Uaythausu və Heri Pitersi toplayıb fəaliyyətə keçmişdi. Ümid edirdilər ki, bu işdə nə qədər fəal olsalar Menendes erməni lobbisi və diaspor təşkilatlarından aldığı vəsaitlərdən onlara da yaxşı pay ayıracaq. Amma yanıldılar, onlara qəpik-quruş düşdü.

44 günlük müharibədən sonra isə Menendes xüsusilə fəallaşdı. O, Azərbaycanın Cənubi Qafqazda diktə etdiyi reallıqla qətiyyən barışmadı və fürsət düşdükcə ölkəmizin əleyhinə kampaniyalar apardı.

Yada salaq ki, Menendes ABŞ-ın Azərbaycana helikopter satışına icazə verən qətnaməni, eləcə də Metyu Brayzanın ABŞ-ın Azərbaycandakı səfiri vəzifəsinə təyin olunmasını əngəlləyib. O, həmçinin ABŞ-ın Azərbaycana hərbi yardımı və Türkiyəyə F-16 qırıcıları və komponentlərinin satışının qarşısını alıb.

Menendes “Dağlıq Qarabağda böhranın qiymətləndirilməsi” mövzusunda dinləmələr də keçirib. İddiasında göstərirdi ki, guya, Azərbaycan Laçın yoluna girişi bağlayıb, “acından ölən Qarabağ ermənilə-ri"nə humanitar yardımın çatdırılmasına imkan vermir. Lakin əvvəlki iddiaları kimi, onun yalançı hay-küyü də nəticəsiz qaldı.

Sonuncu dəfə R.Menendes Ermənistan–Azərbaycan sərhədində baş verənlərdən narahatlığını bildirib. ABŞ Senatında çıxışı zamanı Azərbaycana hərbi yardımı azaltmaq üçün çağırış edib. “Azadlığı Müdafiə Aktı”na edilən 907-ci düzəlişin dondurulma prosesinin dayandırılması ilə bağlı dəfələrlə çıxış edib.

Lakin nə 30 illik senatorluq təcrübəsi, nə də ki, ermənilərin güclü maliyyə dəstəyi B.Menendesi layiq olduğu cəzadan xilas edə bildi. Əvvəl istefa verdi, sonra həbs olundu. Haqq-ədalət öz yerini tapdı.

İndisə törətdiyi cinayətlərə görə cavab vermək növbəsi Nadin Arslanyana çatıb. Onun məhkəməsi davam edir. Prokurorlar açılış çıxışlarında bu qadının “çirkli iş gördüyünü”, iş adamları ilə əlaqə saxladığını, senatora mesajlar ötürdüyünü və rüşvətin böyük hissəsini topladığını iddia ediblər. İttihamnamədə bildirilir ki, senatorun arvadı rüşvətxor ərini Misir ordusu və kəşfiyyatının nümayəndələri ilə tanış edib.

Rüşvət qalmaqalında təqsirini boynuna alan Xose Uribe isə məhkəmə prosesində sabiq senatorun həyat yoldaşına (yəni Nadin Arslanyana) lüks avtomobil aldığını etiraf edib. Bildirib ki, Menendes ştat prokurorunu dostuna qarşı cinayət işini dayandırmağa məcbur etməli idi: “Bunun üçün Arslanyana “Mercedes-Benz” “hədiyyə” etdim. O, məni senatorla bağlayan yeganə insan idi”.

Bu çıxışdan sonra prokuror köməkçisi deyib: “Bu, təsadüf deyil, rüşvətdir”.

Məhkəmə isə sona yaxınlaşır. Artıq prokurorlar Nadinin rüşvət sxemindəki rolu ilə bağlı yekun arqumentlərini söyləyiblər. İnanırıq ki, sonda erməni əsilli bu dələduz qadın əri kimi layiq olduğu cəzanı alacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

---

# Gecikmiş şəhadət – qaçılmaz aqibət

*Xocalı soyqırımında iştirak edən Ermənistan vətəndaşı cinayətləri boynuna aldı*

**Üç onillik ərzində beynəlxalq ictimaiyyətin səssiz müşahidəçi mövqeyi sərgilədiyi və bəzi dairələr tərəfindən “mübahisəli məsələ” kimi təqdim edilərək əsl mahiyyəti təhrif olunan Xocalı soyqırımı bu gün birbaşa iştirakçının məhkəmədə verdiyi ifadə fonunda həm hüquqi, həm də tarixi həqiqət kimi aktual müstəvi üzərinə qoyulur. Əvvəllər inkar və informasiya manipulyasiyası ilə gizlədilməyə çalışılan faktlar artıq şahid ifadələri vasitəsilə beynəlxalq hüququn obyektiv süzgəcindən keçərək təsdiqlənməkdədir.**

Xocalı ilə bağlı yeni faktların üzə çıxması və təsdiqlənməsi qlobal hüquqi-siyasi öhdəliklər sistemində cavabdehlik tələbini ortaya qoyur. Məhkəmə zalından səslənən bu həqiqətlər beynəlxalq ictimaiyyət üçün gecikmiş ədalətə çağırış olmaqla yanaşı, onlar qarşısında obyektiv və prinsipial mövqe tutmaq istəyən hər bir beynəlxalq aktor üçün etik və normativ məsuliyyət testidir.

Xocalı soyqırımı təsadüfi qətliam deyil, əvvəlcədən planlaşdırılmış soyqırımı aktı idi. Madat Babayanın Bakı Hərbi Məhkəməsində verdiyi ifadə bir daha sübut edir ki, Xocalıda baş verən hadisələr spontan və ya hərbi zərurət nəticəsində baş verməmişdir. Əksinə, bu hadisə öncədən planlaşdırılmış və məqsədyönlü şəkildə həyata keçirilmiş soyqırımı aktı olmuşdur. Babayanın "Bizi oraya dəstə rəhbərimiz aparmışdı. Məqsəd o idi ki, azərbaycanlılar Xocalıdan çıxarılsın" sözləri bu planlı etnik təmizləmənin birbaşa sübutudur. Bu isə BMT-nin Soyqırımı Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Konvensiyasının (konvensiya 9 dekabr 1948-ci ildə Parisdə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş, 12 yanvar 1951-ci ildə qüvvəyə minmişdir) 2-ci maddəsinə tam uyğun olaraq soyqırımı əməlinin hüquqi təyinatına uyğundur.

## Damarlarda qan donur

Qətliamda Ermənistan vətəndaşlarının birbaşa iştirakı beynəlxalq cinayət məsuliyyətini təsdiqləyir. Babayanın özünü də təqsirləndirilən şəxs kimi göstərməsi, eləcə də digər konkret adlar – Henrik Tamrazyan, Arkadi Şirinyan, Vanik Petrosyan – Ermənistan vətəndaşlarının bu qətliamda birbaşa iştirak etdiyini təsdiqləyir. Bu faktlar Ermənistan Respublikasının sadəcə “separatçı qüvvələrə dəstək verən vasitəçi” olmadığını, əksinə birbaşa icraçı və təşkilatçı olduğunu göstərir və beynəlxalq hüquqda dövlət məsuliyyəti məsələsini gündəmə gətirir. Yəni, Ermənistanı müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərə görə cavabdeh edir.

Etnik təmizləmə və soyqırımının praktik tətbiqi insanlığa qarşı cinayətin sənədli sübutları olmaqla yanaşı, beynəlxalq hüquq normalarının sistemli şəkildə pozulduğunu və bu əməllərin beynəlxalq cinayət məsuliyyəti doğurduğunu təsdiqləyən mühüm hüquqi faktdır. Təqsirləndirilən şəxsin ifadəsində qeyd etdiyi kimi, əmrləri verənlər təkcə mülki insanları qətlə yetirməklə kifayətlənməyib, meyitlərin qulaqlarını kəsmək, barmaqları doğramaq kimi qeyri-insani işgəncə üsullarına da əl atmışlar. Bu əməllər yalnız hərbi təcavüz deyil, həm də etnik nifrət motivi ilə həyata keçirilən qəddarlıq nümunələridir və Beynəlxalq Cinayət Məhkəməsinin Statutunda (Roma Statutu) nəzərdə tutulan insanlıq əleyhinə cinayətlərə tam uyğundur. Mülki, silahsız insanların – qadınların, uşaqların, qocaların qətlə yetirilməsi və onlara işgəncə verilməsi beynəlxalq hüquqda "etnik təmizləmə" və "soyqırımı" anlayışlarının praktik həyata keçirilməsini göstərir.

## Beynəlxalq hüququn sınağı

Faktların hüquqi və tarixi illərlə inkar edilən həqiqətləri təsdiqləməsi Xocalı soyqırımının yalnız bir tarixi faciə deyil, beynəlxalq hüququn pozulması və insanlığa qarşı törədilmiş cinayət kimi tanınmasının vacibliyini ortaya qoyur. Məhkəmədə səsləndirilən etiraflar və təqdim olunan sübutlar beynəlxalq ictimaiyyəti bu cinayətə hüquqi-siyasi qiymət verməyə və ədalət prinsiplərinə əsaslanaraq konkret addımlar atmağa çağırır. Faktlar təkcə Azərbaycanın deyil, bütün beynəlxalq hüquq sisteminin etibarlılığı üçün bir sınaqdır.

İllərlə beynəlxalq aləmdə Xocalı soyqırımı ilə bağlı faktlar şübhə altına alındı, qətliamlar "mübahisəli hadisə" kimi təqdim edildi. Lakin indi hadisənin iştirakçısının öz dili ilə verdiyi ifadələr – həm planlaşdırma, həm icra, həm də işgəncə mexanizmini açıq şəkildə göstərməsi – artıq bu cinayətin təkzibedilməz həqiqət olduğunu təsdiqləyir. Bu etiraflar sənədləşdirilmiş tarixi bir fakt kimi beynəlxalq hüquq mexanizmlərinin işə düşməsi üçün ciddi əsaslar verir. Eyni zamanda, məhkəmə prosesi Azərbaycanın ədalət çağırışının beynəlxalq miqyasda da legitim və hüquqi əsaslara dayandığını sübut edir.

***Şəbnəm ZEYNALOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Ermənistan ordusunda özbaşınalıqdır

## *Paşinyan isə “adımı sənə qoyum, səni də yana-yana” deyir*

**Ermənistanla şərti sərhəddə mövqelərimiz son vaxtlar tez-tez atəşə məruz qalır. Müdafiə Nazirliyi, demək olar ki, hər gün bununla bağlı məlumat yayır. Aprelin 19-u da bu baxımdan istisna olmadı. Nazirliyin yaydığı məlumatda qeyd edildi ki, aprelin 18-i saat 22:35 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən ordumuzun mövqelərini atıcı silahlardan atəşə tutublar.**



Əlbəttə, bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülür və qarşı tərəf hər dəfə layiqli cavab alaraq yerinə oturdulur. Buna baxmayaraq, mövqelərimizin atəşə məruz qalması halları səngimək bilmir. Məsələ Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə keçirilən xidməti müşavirədə də diqqət mərkəzində olub. Nazir müavinlərinin, qoşun (qüvvə) növləri komandanlarının, baş idarə, idarə və xidmət rəislərinin, hərbi birlik və birləşmə komandirlərinin iştirak etdikləri müşavirədə şərti sərhəddə mövcud əməliyyat şəraiti, o cümlədən son günlər qarşı tərəfin bölmələrimizi mütəmadi olaraq atəşə tutması, mövqelərimiz üzərində pilotsuz uçuş aparatları və dronlarla kəşfiyyat xarakterli uçuşlar həyata keçirmə cəhdləri geniş müzakirə edilib. Nazir ordumuzun bölmələrinin hər an istənilən təxribata qarşı çevik reaksiya verməyə hazır olması barədə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub, döyüş növbətçiliyinin təşkili zamanı ayıq-sayıqlığın artırılmasının vacibliyini vurğulayıb.

Maraqlıdır ki, Ermənistan baş naziri Nikol Paşinyan aprelin 15-də parlamentdə çıxışı zamanı baş vermiş insidentlərin qarşısının alınması istiqamətində görülən tədbirlərdən bəhs etməkdənsə, bizi suçlamağa uğursuz cəhdlər edib. O, Ermənistan və Azərbaycandakı (?) bütün siyasi qüvvələri mümkün müharibə ilə bağlı bəyanatlar verməkdən çəkinməyə çağırıb. Deyib ki, həm ölkə daxilində, həm də xaricdə konkret hərəkətlərlə müşayiət olunan hərbi təbliğat aparılır. Bu proses gündəlik əsasda davam etdirilir. O, xislətinə sadiq qalaraq, Azərbaycanın ritorikasının militarist (?) xarakter daşıdığını bildirib. Atəşkəs rejiminin pozulması ilə bağlı ittihamları “yalan” adlandırıb. İddia edib ki, atəşkəs Azərbaycan tərəfdən mütəmadi olaraq pozulur. Paşinyanın sözlərinə görə, atəş açılması əksər hallarda birbaşa hansısa hədəfi vurmaq xarakteri daşımır, lakin, guya, son bir ayda Zəngəzur vilayətinə aid olan Xanazax yaşayış məntəqəsi iki dəfə atəşə tutulub: “Bu hadisələr ya Azərbaycan Silahlı Qüvvələrində nizam-intizamın olmamasından xəbər verir, ya da sərhəd kəndlərinin sakinlərinə psixoloji təzyiq göstərmək cəhdidir. Ermənistan rəsmi Bakını bu hadisələri araşdırmağa və onların qarşısını almaq üçün tədbirlər görməyə çağırır”. Əlavə edib ki, atəşkəs rejiminə ciddi riayət olunması barədə əmr verib və İrəvan müvafiq mexanizm yaratmaqla sərhədyanı insidentlərin birgə araşdırılmasına hazırdır.

Yeri gəlmişkən, Paşinyan mümkün yeni eskalasiya ilə bağlı şayiələrə də toxunmuşdu. Onun sözlərinə görə, bunun üçün heç bir əsas yoxdur – Ermənistan və Azərbaycan bir-birinin ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını tanıyıb, həmçinin güc tətbiqindən imtina ediblər. “Mən Ermənistan və Azərbaycanda bütün siyasi və ictimai qüvvələri maksimum məsuliyyət nümayiş etdirməyə və sülh gündəminə xələl gətirən bəyanatlar verməməyə çağırıram. Ölkələrimizin xalqları sülhə layiqdir. Müharibə olmayacaq - sülh olacaq” – deyə Paşinyan özündən “sülh göyərçini” düzəltməyə çalışmışdı.

Ancaq Azərbaycan Müdafiə Nazirliyi elə həmin gün açıqlama yayaraq, ordumuzun bölmələri tərəfindən, guya, Xanazax istiqamətində atəş açılması və nəticədə mədəniyyət mərkəzinə zərər yetirilməsi barədə Ermənistanın yaydığı məlumatın real əsasının olmadığını, yalan və tamamilə dezinformasiya məqsədi daşıdığını bildirmişdi: “Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə heç bir atəş açılmayıb. Bir daha bildiririk ki, Azərbaycan Ordusunun bölmələri heç vaxt mülki əhaliyə və obyektlərə atəş açmır. Ordumuz yalnız mövqelərimizi atəşə tutan Ermənistan silahlı qüvvələrinin təxribatlarına qarşı adekvat cavab tədbirləri görür. Qarşı tərəf həqiqəti əks etdirməyən bu cür dezinformasiyalar yaymaqla beynəlxalq ictimaiyyətdə yanlış rəy formalaşdırmağa, son günlər mövqelərimizi müxtəlif istiqamətlərdən mütəmadi olaraq atəşə tutmaqla törətdikləri təxribatlarını gizlətməyə cəhd edir”.

Paşinyanın Azərbaycan Silahlı Qüvvələrində, guya, nizam-intizamın olmaması barədə danışması isə nonsensdir. İkinci Qarabağ müharibəsi zamanı 10 min nəfərdən çox hərbi qulluqçusunun fərarilik etdiyi, silah-sursatını qoyub qaçmış, darmadağın olunmuş bir ordunun baş komandanının rəşadətli nizami ordumuz haqqında belə hətərən-pətərən danışmağa mənəvi haqqı yoxdur. Heç kim üçün sirr deyil ki, Ermənistan ordusu nizami birlik deyil. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi zamanı bu ordunun tərkibində xeyli sayda könüllü dəstələr adlanan terrorçu qruplar döyüşüblər. Onların sıralarına Livandan, Suriyadan, eləcə də Yaxın Şərqin digər ölkələrindən, Fransadan, ABŞ-dan gəlib qoşulan terrorçular da olub. Elə təkcə beynəlxalq miqyaslı terrorçu Monte Melkonyanın adını çəkmək kifayətdir.

Belə dəstələrdən biri də “Yerkrapa” adlanan təşkilatdır. Mənası “yurdun müdafiəçiləri” olan təşkilatın bugünlərdə Ermənistan–Azərbaycan şərti sərhədindəki döyüş mövqelərinə yeni terrorçular göndərdiyinə dair məlumat yayılıb. Bu barədə “Teleqram” kanallarında məlumat yerləşdirilib.

Bildirilib ki, silahlı qruplaşmanın sıralarında Azərbaycana qarşı hər iki müharibədə, eləcə də 2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş terrorçular var. Həmçinin, onların arasında keçmiş separatçı rejimin “bayrağı” adlanan əski parçasını şevron (fərqlənmə nişanı) kimi qoluna yapışdıranları da görmək olar. Bu addımlar regionda sülh və sabitliyə ciddi təhdid yaradır. Ermənistan rəhbərliyinin “sülh” istiqamətində açıqlamaları ilə şərti sərhədə bu ünsürlərin gəlişinə, yumşaq desək, göz yumulması birbaşa ziddiyyət təşkil edir. Onların mövqelərə yerləşdirilməsi isə açıq təxribatdır. Təxribatın və qanunsuz hərbi fəaliyyətin bütün məsuliyyəti Ermənistan hərbi-siyasi rəhbərliyinin və onu dəstəkləyən qüvvələrin üzərindədir.

Onu da bildirək ki, rəsmi adı “Yerkrapa” könüllülər və ya müharibə iştirakçıları ittifaqı olan yarımhərbi qurum Birinci Qarabağ müharibəsi iştirakçıları tərəfindən, 1993-cü ildə ölkənin ilk müdafiə naziri Vazgen Sarkisyanın təşəbbüsü ilə yaradılıb. Onun tərkibi ilk dövrlərdə 6 min döyüşçüdən ibarət idi. V.Sarkisyanın sağ olduğu dövrdə “Yerkrapa” böyük və nüfuzlu müharibə iştirakçıları qrupu kimi Azərbaycan ərazilərinin işğalında fəal iştirak etmişdi. Sarkisyanın ölümündən sonra isə təşkilatın Ermənistan cəmiyyətində nüfuzu azalmağa başlayıb. Son illərədək “Yerkrapa” 25-30 min müharibə iştirakçısını öz sıralarında birləşdirirdi. Məşhur britaniyalı tədqiqatçı Tomas de Vaal yazır ki, 1994-cü ildən sonra “Yerkrapa” ölkənin ən güclü təşkilatına çevrilib.

V.Sarkisyanın başçılıq etdiyi “Yerkrapa” parlamentdə fraksiya da yaratmağa nail olmuşdu. Hətta 1998-ci ildə 69 üzvdən ibarət olmaqla Ermənistan parlamentinin ən böyük fraksiyasına çevrilmişdi. 1998-ci ilin yayında fraksiya keçmiş prezident, Xocalı qatili Serj Sarkisyanın rəhbəri olduğu Ermənistan “Respublika” partiyası ilə birləşib. V.Sarkisyanın 1999-cu ildə parlamentdə güllələnərək qətlə yetirilməsindən sonra təşkilata azərbaycanlılara qarşı xüsusi qəddarlığı ilə seçilən “tuşonka Manvel” ləqəbli general Manvel Qriqoryan rəhbərlik edib. Qriqoryan Füzuli və Cəbrayıl rayonlarının işğalı zamanı azərbaycanlı sakinlərin mülkiyyətinin talan edilməsi, hərbi əsirlərə işgəncələrin verilməsi, kütləvi qətlə yetirilməsi, həmçinin mülki şəxslərin girov götürülməsi, işgəncələrə məruz qoyulması və öldürülməsi kimi çoxsaylı hərbi cinayətlərin törədilməsinin fəal iştirakçısıdır.

Manvel Ermənistanın İkinci Qarabağ müharibəsindəki sarsıdıcı məğlubiyyətindən sonra – 2020-ci ili noyabrında infarkt keçirərək öləndən sonra təşkilata Sasun Mikayelyan rəhbərlik edir. Mikaelyan qurumun hakim partiyanın qanadı olaraq xidmət etməyəcəyini barədə bəyanat səsləndirib. O, hazırda Ermənistan parlamentinin deputatıdır.

Həmçinin, 2024-cü il fevralın 12-də Zəngilan rayonu istiqamətindəki mövqelərimizə qarşı təxribat törədənlərin də bu terror təşkilatının üzvlərini olduqları təsdiqlənmişdi. Bundan əlavə, Ermənistan baş prokurorluğunun yaydığı məlumata görə, 2024-cü ildə silahlı qüvvələrdə 40 hərbçi həlak olub ki, onlardan da 4-ü “Yerkrapa” terror təşkilatının üzvüdür. Onlar sərhədyanı ərazidə təxribatlar törədərkən Azərbaycan Ordusu tərəfindən məhv ediliblər.

Bu baxımdan Paşinyan sərhəddə gərginlik və eskalasiya istəmirsə, ilk işi “Yerkrapa” terror təşkilatının üzvlərini sərhəddən uzaqlaşdırması və tərksilah etməsi olmalıdır. Yaxşı olardı ki, Nikol sülh istiqamətində pafoslu bəyanatlar vermək əvəzinə, ordusunun komandanlığını bir araya toplayaraq Azərbaycan ərazilərinin atəşə tutulması ilə bağlı insidentləri yaxşı-yaxşı araşdırsın. Əgər bunu edənlər onun göstərişlərini saya salmayan “Yerkrapa” döyüşçüləridirsə, onları ordudan uzaqlaşdırsın. Yox, əgər Ermənistan ordusunun hərbçilərinin “özfəaliyyəti”dirsə, onları da cəzalandırsın. Daha gözə kül üfürməsin. Onsuz da hamı hər şeyi yaxşı bilir.

*Səxavət HƏMİD*
*XQ*

# Eçmiədzin niyə narahatdır?

**Eçmiədzin kilsəsinin ali ruhani şurası Polşada “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” adlı sərginin keçirilməsindən təşvişə düşüb və bununla bağlı bəyanat yayıb. Erməni mediasında dərc olunan bəyanatda deyilir ki, Azərbaycanın Polşadakı səfirliyi tərəfindən Varşavada təşkil olunan "Mədəni yaddaşımızda Qərbi Azərbaycan" adlı sərgi Azərbaycanın Ermənistan Respublikasına qarşı ərazi ambisiyalarının, erməni xalqının çoxəsrlik mənəvi və mədəni irsini mənimsəmək istəyinin ifadəsi kimi aparılan yalan təbliğatın növbəti təzahürüdür. Belə qəbuledilməz təşəbbüslər nəinki regionda sülhün bərqərar olmasına töhfə vermir, həm də xalqlar arasında həmrəylik və dinc yanaşı yaşama mühitinin yaradılması istiqamətində atılan bütün addımları neytrallaşdırır. Azərbaycanın tarixi yenidən yazmaq hərəkətləri, Ermənistan və "Artsax" ərazisindəki erməni yaşayış məskənlərini, müqəddəs yerlərini, tarixi və mədəni dəyərlərini azərbaycanlı və ya alban kimi təqdim etmək cəhdləri qətiyyətlə pislənilir. Mədəniyyət siyasi qazanc aləti deyil, xalqlar arasında körpü olmalıdır.**

Kilsə beynəlxalq ictimaiyyəti və təşkilatları, diplomatik dairələri, mədəni strukturları tarix və mədəniyyətin bu cür saxtakarlığına aydın qiymət verməyə və Azərbaycanın erməni xalqının dəyərlərinə qəsdlərini qəti şəkildə pisləməyə çağırır.

Bəyanatda, həmçinin aprelin 10-da Romada “Azərbaycanda xristianlıq: tarix və müasirlik” mövzusunda Qafqaz Albaniyası irsinə həsr edilən XII beynəlxalq elmi konfransın keçirilməsinə də münasibət bildirilib.

Xatırladaq ki, aprelin 8-də bu ölkənin paytaxtı Varşava şəhərinin mərkəzi küçəsində yerləşən Tvardovski meydanında Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı və Qərbi Azərbaycan İcması və Azərbaycan Respublikası Beynəlxalq İnkişafa Yardım Agentliyinin dəstəyi ilə “Mədəni yaddaşımızda Qərbi Azərbaycan” adlı fotosərgi keçirilib.



Sərgidə Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova çıxış edərək, İrəvan xanlığının təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın tarixində mühüm rol oynadığını bildirib. İrəvan xanlığının tarixinin Azərbaycan xalqının zəngin maddi və qeyri-maddi mədəniyyət tarixinin tərkib hissəsi olduğunu vurğulayıb. Səfir İrəvan şəhəri və onun ətrafında hidronim və oykonimlərin mütləq əksəriyyətinin Azərbaycan dilində olmasının bu ərazinin azərbaycanlıların qədim yaşayış məskənlərindən olduğunu sübut etdiyini diqqətə çatdırıb. O, XIX əsrin sonu XX əsrin əvvəllərində İrəvanda Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan və s. kimi çoxlu sayda Azərbaycan adına küçələrin mövcud olduğunu bildirib.

Nərgiz xanım avropalı səyyah və salnaməçilərin, o cümlədən JanBatist Tavernye, Jan Şarden, Dübua de Monper, Avqust fon Haksthauzen və digərlərinin əsərlərində İrəvan şəhərinin səciyyəvi müsəlman şəhəri kimi təsvir olunduğunu qeyd edib.

Səfir XX əsrin əvvəllərinədək İrəvan qalası, onun daxilində yerləşən Xan sarayı (Sərdar sarayı) və Abbas Mirzə məscidinin şəhərin tarixi-memarlıq inciləri hesab olunduğunu diqqətə çatdırıb və Xan sarayını tikdirən İrəvan sərdarları barədə məlumat verib.

Diplomat indiki Ermənistan ərazisində mövcud olmuş 3500 tarixi və mədəni abidə, 500 qəbiristanlıq və 391 məscidin Qərbi Azərbaycanın tarixi irsinin tərkib hissəsi olduğunu vurğulayıb və 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1987-1988-ci illərdə azərbaycanlılara qarşı həyata keçirilən deportasiya və qırğınların nəinki azərbaycanlıların indiki Ermənistandan kütləvi surətdə köçürülməsi ilə nəticələndiyi, həm də minlərlə tarixi abidə, məscidin yerlə-yeksan edildiyini təəssüflə diqqətə çatdırıb.

Göründüyü kimi, bu tədbir tam reallıqların, həqiqətlərin bütün dünyaya çatdırılması məqsədini daşıyır. İstənilən bir ərazinin toponimik sistemi orada tarixən məskun olmuş tayfa birliklərinin, sonradan özündə kiçik etnik qrupları da birləşdirən xalqların dil imkanları hesabına yaranıb. Qərbi Azərbaycanın köklü sakinləri Azərbaycan türkləri olublar. XIX əsrin əvvəllərindən başlayaraq XX əsrin 90-cı illərinin sonlarınadək bu coğrafiyadakı yer adlarının 90 faizdən çoxunu təşkil edən türk mənşəli toponimlər–oykonimlər, oronimlər, hidronimlər dəyişdirilərək erməniləşdirilib. Ermənilərin bu saxtakarlığını ifşa edən arxiv materialları çoxdur.

Vatikanda keçirilən tədbir də erməni saxtakarlığının ifşa olunmasında mühüm rol oynayıb. Xatırladaq ki, Vatikan əsrlər boyu erməni kilsəsinin əsas hamisi və dəstəkçisi olub. Amma indi bəzi məsələlərdə Vatikanın mövqeyi dəyişib, gerçəkləri anlayır, Azərbaycanın ərazi bütövlüyünü və bizə aid olan xristian irsini tanıyır..

Ümumilikdə, Polşa və İtaliyada baş tutan tədbirlər hayların narazılığına səbəb olub və Avropada xristian dininə mənsub ölkələrdə keçirildiyinə görə Eçmiədzin kilsəsinin ali ruhani şurası mövqe bildirməyi qərara alıb. Din qardaşlığı mövqeyindən istifadə etməyi düşünüb. Amma həmişəki kimi niyyəti başqa olub.

Özünü sülhün təqdimatçısı, barışdırıcı mövqe aşılayan kimi təqdim etmək istəyən erməni kilsəsinin təxribatçı əməlləri barədə çox danışmaq olar. Nəzərə alaq ki, tarix boyu erməni kilsəsi erməni avantürizminin ideoloji ruporu rolunda çıxış edib. Erməni kilsəsi Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ savaşı zamanı da təxribatçı mövqe tutdu. Dini idarənin dərin əsaslı çağırışının sülhə söykənməli olduğu halda, Eçmiədzin qisas və işğal toxumları səpdi.

Tarix boyu şər yuvası olan erməni kilsəsi hər zaman qonşu xalqlara qarşı aqressiv münasibəti təlqin edib, daim savaşa səsləyən dini mərkəz funksiyasını yerinə yetirib. Yəni bu kimi məsələlərdə din xadimləri ön planda olublar.

Qeyd edək ki, ermənilər məqsədli şəkildə bu ərazilərə köçürüləndən sonra azərbaycanlılara qarşı etnik təmizləmə, soyqırımı və deportasiya həyata keçiriblər. Dayanıqlı, etibarlı sülh sazişinin imzalanması üçün Ermənistan Azərbaycana və azərbaycanlılara qarşı yeritdiyi düşmənçilik siyasətindən səmimi şəkildə əl çəkməlidir. Azərbaycana qarşı bütün ərazi iddialarından imtina etməli, bunun üçün konstitusiyasını dəyişməlidir. Qərbi Azərbaycana qayıdışla bağlı Azərbaycan dövləti tərəfindən strateji addımlar atılır, beynəlxalq ictimaiyyət məlumatlandırılır və Ermənistanın etnik təmizləmə siyasəti ifşa olunur. Qərbi Azərbaycan İcması deportasiya olunmuş soydaşlarımızın hüquqlarının müdafiəsi, tarixi və mədəni irsin qorunması, həmçinin bu irsin dünya miqyasında tanıdılması istiqamətində mühüm işlər görür.

Kilsənin heç bir tarixi əsasa söykənməyən iddiaları, "erməni yaşayış məskənləri", "müqəddəs yerləri" və digər absurd fikirləri nəyə xidmət edir? Qərbi Azərbaycan İcmasının apardığı təbliğat, azərbaycanlıların öz qədim el-obalarına qayıtmaq istəyi niyə onların narahatlığına səbəb olur?

**Bu mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən politoloq Zaur Məmmədov bildirdi ki,** erməni kilsəsi daim erməni dövlətçiliyinin işğalçılıq siyasətində başlıca rol oynayıb. Məlumdur ki, kilsə erməni dövlətindən əvvəl yaranıb və əsas məqsədi də kilsə ətrafında ərazilərin genişləndirilməsi və işğalçılıq siyasəti olub. Bu gün biz görürük ki, erməni kilsəsi və erməni diasporu Ermənistan dövlətinin başçısı Nikol Paşinyanın apardığı siyasətə qarşıdır. Erməni kilsəsi və erməni diasporunun mövcudluğu ancaq “böyük Ermənistan” xəyalları olarsa mümkündür. Erməni kilsəsinin mövcudluğu və onun varlı dövlətini genişləndirməsi yalnız Qarabağ və sair kimi mövzular olduqca var. Qarabağ məsələsi həmişəlik bağlanıbsa, işğalçılıq siyasəti ilə bağlı heç bir planlar olmayacaqsa, bu erməni kilsəsinə gələn ianələrə də olduqca ciddi təsir göstərəcəkdir. Statistikaya nəzər saldıqda, görürük ki, erməni kilsəsinə və diasporuna gələn ianələrdə ciddi şəkildə azalmalar mövcuddur.

Politoloq əlavə edib ki, indi Azərbaycan bütün bu planları darmadağın edir. Ona görə də erməni kilsəsi narahatdır. Polşadakı və eyni zamanda, dünyanın digər ölkələrindəki tədbirlər artıq Qərbi Azərbaycan İcması tərəfindən başladılan silsilə tədbirlərin əsas məqsədi dünyaya həqiqətləri çatdırmaqdır.

Qərbi Azərbaycan torpaqlarında, bugünkü Ermənistan Respublikasının ərazisində ermənilər daha qədim tarixə malikdirlərsə, o zaman buyursunlar həmin o tarixi sübut edən faktları ortaya qoysunlar, erməni abidələrini göstərsinlər. Həmin ərazilərdə heç bir erməni abidəsi yoxdur. Əfsuslar olsun ki, 70 illik SSRİ dövründə və 30 illik müstəqillik illərində bizə məxsus qədim abidələr ermənilər tərəfindən məhv edildi, çox az sayda abidələr hələ də qalmaqdadır. Ümumiyyətlə, tarixi faktlar da onu deməyə əsas verir ki, istər İrəvanla bağlı Türkmənçay müqaviləsi və ondan sonrakı hadisələr, istərsə də Qarabağla bağlı Kürəkçay müqaviləsi həmin ərazilərdə məhz Azərbaycan xanlarının, azərbaycanlıların olduğunu göstərir. Bunu həmin dövrün demoqrafik statistikası da şərtləndirir.

Zaur Məmmədov vurğulayıb ki, Qərbi Azərbaycan İcması da bu kimi tədbirlərini davam etdirəcəkdir. Bu gün əsas məqsəd dünya xalqlarının əsl həqiqəti, gerçək tarixi bilmələri ilə bağlıdır. Erməni kilsəsinin ümumiyyətlə mövcudluğu məsələsi isə bundan asılı olacaqdır.

*Azər MUSTAFAYEV*

IV MƏQALƏ

### Türk dünyası qlobal geosiyasi dinamikada

# Qlobal geosiyasətdə “türk ssenarisi”



Beləliklə, Türk dünyasında və ayrıca Türk Dövlətləri Təşkilatına (TDT) müasir tarixi dönəmdə geosiyasi dinamika fonunda xüsusi yanaşmaq bir zərurətdir. Uzun müddət türk xalqlarına (və həm də onların qurduqları dövlətlərə) müxtəlif imperialist dairələrin (etiraf edək ki, son 200 ildə bizim onlarla mübarizəyə gücümüz çatmamışdır) qərəzli və istilaçı münasibətləri xeyli problemlər əmələ gətirmişdir. Onlar geosiyasi, siyasi, mədəni, mənəvi, sosial olmaqla yanaşı, həm də psixoloji xarakterlidirlər.

Bütün bunlar türkləri bir qövm və dövlət olaraq özlərinin mövcudluq strategiyasını müəyyən etməyə məcbur buraxır. Bu tələbat prizmasında TDT-nin yaranmasının geosiyasi və strateji aspektlərinə baxmaq lazımdır. Yəni, “türk dövlətləri TDT-ni nə üçün yaratmışlar və məqsədləri nədir?” sualına ədalətli cavab axtarmaq istəyən varsa, son 300 ildə onlara olan münasibətin özəlliklərinə nəzər salsınlar.

Deməli, əslində, TDT türk qövmünün ayaqda qalması üçün hazırlamalı olduğu qlobal geosiyasətdə “türk ssenarisi”nin birbaşa rəmzidir. Onun praktiki geosiyasi anlamı və məqsədi də kifayət qədər aktual məsələdir. Doğrudan da, XXI əsrin şərtləri daxilində “türk dövləti olmaq nə deməkdir?”, “TDT bir təşkilat kimi qarşısına hansı məqsədləri qoymalıdır ki, tarixin indiki dolanbaclarında öz dövlətçiliyinin inkişafını təmin edə bilsin?” və s. kimi suallar aktualdır.

Bundan başqa, son illərin təcrübəsi bir daha göstərir ki, Türk dünyasını içindən parçalamaq üçün canfəşanlıq göstərən dairələr daha da fəallaşmışlar. Müxtəlif səviyyələrdə, yəni siyasi, diplomatik, ideoloji, geosiyasi, tarixi və s. elə “arqumentləri” ortaya atır və praktiki işlər görürlər ki, hər birinin əsas məqsədi türk xalqlarında bir-birinə şübhə oyatmaq, birliyin perspektivinin olmadığı təəssüratı yaratmaq çaları vardır. Son nümunələrdən biri Avropa İttifaqının Mərkəzi Asiya türk dövlətləri ilə sözdə iqtisadi əməkdaşlıq üçün onlara Türkiyənin əleyhinə olan BMT-nin Şimali Kiprlə bağlı iki qətnaməsini tanımağa məcbur etməsidir.

Əlbəttə, Mərkəzi Asiyadakı TDT üzvləri bunu etməyə də bilərdilər... Bu, ayrı mövzudur. Ancaq bizim demək istədiyimiz Aİ-nin hələ də türk dövlətçiliyinə ziyan vurmaq kimi işlərlə məşğul olmasından ibarətdir. Brüsselin “demokratiya”, “insan haqları”, “mehriban qonşuluq” kimi gəlişigözəl terminlərdən geninə-boluna istifadə etməsi diplomatik ibarədən, əsl niyyətini ört-basdır etməkdən başqa bir şey deyildir.

Başqa nümunələr də göstərə bilərik. Lakin vurğulanan məqamlar da göstərir ki, hazırkı mərhələdə Türk dünyasının müasir geosiyasi dinamikada yeri və rolu konkretləşməli və hər bir geosiyasi güc tərəfindən qəbul edilməlidir. Bu dinamika bizim üçün indi xeyli dərəcədə dramatik və ziddiyyətlidir. Lakin tarixin bu dönəmində onu sındırmasaq, ritmini ədalətə yönəltməsək, bütövlükdə, bəşəriyyətin gələcəyi yeni-yeni haqsızlıqlarla üzləşməkdən yayına bilməyəcəkdir. Bu kontekstdə TDT ilə əlaqələrin bir sıra mühüm məqamlarının təhlilinə keçə bilərik.

### TDT-nin geosiyasi yeri və rolu

TDT ümumi halda müasir geosiyasətdə türk ssenarisinin əsas təmsilçisidir. Onun məqsədi haqqında Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə fikir bildirmişdir. TDT-nin türk dövlətlərinin müasir dünyada layiq olduqları yeri və rolu təmin etməkdən başqa məqsədi yoxdur. Buna nail olmaq üçün yalnız sivil üsullardan istifadə edir. Sivil üsullar kimi, TDT daxilində siyasi, mədəni, iqtisadi, sosial, mənəvi, informasiya–kommunikasiya əlaqələrini konkret layihələr vasitəsilə təmin etməkdən yararlanır. Bura müxtəlif sferalara aid və faktiki olaraq Türk dünyasının sərhədindən kənarda olan regionları da əhatə edən layihələrin reallaşması daxildir.

Hazırda TDT-nin nüfuz dairəsi Çindən başlayaraq Avropa və Yaxın Şərqə qədər geniş geosiyasi məkanı əhatə edir. Onun praktiki nümunələri kimi, Orta dəhliz, enerji layihələrini, informasiya sferasında nəzərdə tutulan proqramları, gömrük sferasında həyata keçirilən tədbirləri, mədəniyyət, elm, təhsil və başqa istiqamətlərdə reallaşmaqda olan proqramları göstərmək olar. Buradan TDT-nin qlobal geosiyasətdə rolu və yeri ilə bağlı mühüm nəticələr çıxara bilərik.

Birincisi, TDT, praktiki olaraq, fayda verən və geniş bir məkanda çoxlu sayda toplumun inkişafına xidmət göstərən proqramları gerçəkdən reallaşdırır. Bunun iki aspekti indi özünü daha qabarıq göstərir – enerji və kommunikasiya. Hər iki istiqamət üzrə aparıcı rolu Azərbaycan oynayır. Belə ki, vurğulanan aspektlərdə həyata keçirilən bütün layihələrin TDT tərəfdən təşəbbüskarı Azərbaycandır!

İkincisi, TDT fəaliyyəti ilə regionlararası miqyasda enerji təhlükəsizliyi ilə dövlətlərin milli təhlükəsizliyinin təminatı arasında harmoniya yaradan ciddi qüvvədir. Bunu indi açıqca dünyanın bütün böyük geosiyasi gücləri etiraf edirlər. Nümunələrə baxaq.

TDT təklif etdiyti enerji və nəqliyyat-loqistika layihələri ilə Çindən başlayaraq marşrut yolu üzərində olan hər bir dövlətin iştirakına təkan verir. Ondan Rusiya, Pakistan, Hindistan, İran, Gürcüstan və Aİ dövlətləri də yararlanırlar. Xüsusilə, “yaşıl enerji” sahəsində TDT-nin təklifləri diqqətçəkəndir. Aİ üzvləri etiraf edirlər ki, Azərbaycan onların enerji və milli təhlükəsizliklərində mühüm rol oynayır. Azərbaycanın fəaliyyətində isə TDT-nin geosiyasi mövqeyi əsaslı rol oynayır. Dövlət başçısı İlham Əliyev layihələrdə hər bir türk dövlətinin iştirakının təmin olunmasını prioritetlərdən biri sayır.

Digər məqam TDT ərazisinin praktiki olaraq nəqliyyat-loqistika ilə bağlı yeni infrastrukturda mühüm rol oynaması ilə bağlıdır. Bunun da birbaşa təşəbbüskarı və reallaşdıranı Azərbaycandır. Bakı Orta dəhlizi həmin kontekstdə çox aktuallaşdırır və ona beynəlxalq dəstəyin daha da artması üçün ciddi töhfələr verir. Artıq bu prosesdə TDT-nin Mərkəzi Asiyada olan əraziləri ilə Cənubi Qafqaz və Türkiyə ərazisi vahid nəqliyyat-logistika sistemi halına gəlmişdir. O, elə qurulmuşdur ki, TDT üzvləri bir-birinə sıx bağlıdır. Bu mənada Qazaxıstan, Özbəkistan, Qırğızıstan və qismən Türkmənistan Azərbaycan və Türkiyəsiz enerji, nəqliyyat və milli təhlükəsizliklərini təmin edə bilməzlər.

Bu kontekstdə başqa bir sual meydana çıxa bilər: vurğulanan aspektdə, TDT üzvləri üçün TDT-dən başqa təşkilat və ya geosiyasi güc alternativ ola bilməzlərmi? Konkret olaraq, Rusiya, Çin, ABŞ və Aİ türk dövlətləri üçün TDT-ni əvəz edə bilərlərmi?

### Geosiyasi alternativsizlik situasiyası

Məsələ də ondan ibarətdir ki, nəinki türk dövlətləri rəsmiləri, hətta bütün dünya İlham Əliyevin bir müdrik kəlamına çox diqqət etməlidirlər. Prezident 2024-cü il fevralın 14-də keçirilən andiçmə mərasimində demişdir ki, “ilk növbədə Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir”. Səbəbini də aydın və dəqiq ifadə etmişdir: “Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır”.

Öz məzmunu, strateji hədəfi və reallaşma mexanizmləri baxımından bu kəlam “bir millət, iki dövlət” kəlamı ilə birlikdə XXI əsrdə Türk dünyasının mayak ideyası, siyasi-diplomatik fəaliyyət anatomiyası və Türk dünyasının iki dövlətinin münasibətlərindən bütöv türk dövlətlərinə uğurlu proyeksiyanın məhək formuludur. Bu anlam TDT-nin inkişafının “geosiyasi konstitusiyası”dır!

“Türk dünyası”nın İlham Əliyevin təbirincə, ailə elan edilməsinin siyasi hikmətini heç də hər kəs tam qavraya bilmir. Çünki Azərbaycan Prezidenti “ailə” anlayışına etnik, tarixi və mədəni ilə yanaşı, həm də dərin siyasi və geosiyasi anlam verir. O anlamı dərk etmədən “bizim Türk dünyasından başqa ailəmiz yoxdur” vurğusunun Azərbaycan Prezidentinin təqdimatı kimi təsəvvür edilməsi mümkün deyildir – çünki hikmətli kəlam təhrif oluna bilər!

Bizcə, məsələnin bu tərəfinə xüsusilə Şimali Kiprlə bağlı Mərkəzi Asiyadakı qardaş dövlətlərin atdığı addımın fonunda bir də aydınlıq gətirməliyik. Onların hansı tarixi, etnik, mədəni, siyasi-diplomatik və geosiyasi yanlışlıq etdiyini göstərməliyik. Bunun fonunda həm də Prezident İlham Əliyevin hansı səbəbdən kiprli qardaşlarımızı çox aktiv müdafiə etdiyini anlamış olarıq. Antalyada Azərbaycan Prezidentinin niyə ilk olaraq Ərsin Tatarla görüşdüyünü və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın İlham Əliyevə emosiyalar, inam, etibarlılıq və intellektual əminliklə dolu “necəsən, qardaşım?”, deyə müraciət etməsinin maraqlı anlamı olduğuna şübhə yoxdur!

### Türk dünyasının “ailə” kimi geosiyasi anlamının açılışları

Azərbaycan Prezidenti müxtəlif tədbirlərdə ifadə etdiyi tezislərlə “Türk dünyası ailədir” deyiminin faktiki olaraq başlıca siyasi və geosiyasi mənalarını açmışdır və bu proses davam edir. Bu baxımdan dövlət başçısının ADA-da 2025-ci il aprelin 9-da “Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumdakı çıxışı və verilən suallara cavabları olduqca əlamətdardır. Antalya Diplomatik Forumunda (11 aprel 2025-ci il) Azərbaycan Prezidentinin keçirdiyi görüşlərdə irəli sürdüyü fikirlər və digər məqamları ümumiləşdirərək, TDT kontekstində əhəmiyyəti böyük olan bir sıra tezisi vurgulaya bilərik.

Həmin bağlılıqda Prezidentin postmüharibə dövründə Cənubi Qafqazda sülh təşəbbüsləri haqqında fikirləri əhəmiyyətlidir. Bununla yanaşı, Zəngəzur dəhlizinin regional inteqrasiyaya təsiri ilə əlaqədar etdiyi mühüm vurğular aktualdır. Azərbaycan liderinin Türk dünyasından vahid diplomatik strategiya kontekstində ayrıca bəhs etməsi çox vacib siyasi, geosiyasi və diplomatik anlamı olan tezisdir. Nəhayət, İlham Əliyev bütövlükdə müasir politologiya və diplomatiya təlimləri üçün tədqiqat predmeti ola biləcək multikulturalizm və Bakı prosesinin regionlararası və qlobal miqyaslara proyeksiyasını məharətlə ifadə etməsi xüsusi hadisədir.

Vurğuladığımız dörd istiqamətin (tezisin) TDT-nin qlobal geosiyasətdə türk ssenarisinin başlıca təmsilçisi olması yönündə ayrıca təhlil edilməsi gərəkdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

**Qan yaddaşı**

# Güney Azərbaycan türklərinin soyqırımı

## *Erməni silahlı bandaları 159 gündə 300 minədək dinc insanı qətlə yetirmişdir*

**Ermənilər 1917-1918-ci illərdə Şimali Azərbaycanla yanaşı, Güney Azərbaycanın Urmiya, Səlmas, Xoy, Maku və s. ərazilərində də Azərbaycan türklərinə qarşı amansız soyqırımı törədiblər. 1918-ci ilin martında, Novruz bayramının ilaxır çərşənbəsində qoca, uşaq, qadın demədən 250-300 min Azərbaycan türkü qətlə yetirilib.**



Birləşmiş erməni–kürd–asuri dəstələri 159 gün ərzində Urmiya, Xoy və Səlmasda, eləcə də ayrı-ayrı yaşayış məskənlərində yerli azərbaycanlılara kütləvi şəkildə divan tutaraq, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədiblər. Onların məqsədi burada ermənilərin nəzarətində olan bir dövlət yaratmaq idi. Guya, bu dövlət Cənubi Qafqazda qurulacaq erməni hakimiyyətini Vana bağlayacaqdı. Əslində, bu, xəyali “Böyük Ermənistan” ideyasının tərkib hissəsi idi.

2020-ci ildə ordusu darmadağın edilmiş Ermənistan hələ də “Dənizdən – dənizə böyük Ermənistan” xülyasından əl çəkmir. Cəmiyyətdə həmin xəstə ideologiyadan imtina görüntüsü yaradılsa da, erməni təbliğat maşınının “Böyük Ermənistan” xəyalının davam etdirdiyini görürük. Bu xəyali “dövlət” Qara dənizdən Aralıq dənizinə və Xəzər dənizinə qədər uzanır. Bununla bağlı xəritələr tərtib olunub yayılır, kitablar buraxılır, hay mətbuatı bu məsələni daim gündəmdə saxlayır.

Bu sərsəm ideyanı yaşatmaq üçün hər cür iyrənc üsullardan istifadə edilir. Ermənilər Birinci Dünya müharibəsi zamanı və ondan sonra “Böyük Ermənistan” yaratmaq üçün fəaliyyətlərini genişləndirmiş, bölgədə yaranan siyasi və hərbi vəziyyətdən istifadə edərək bu planı gerçəkləşdirmək istəyirdilər. “Böyük Ermənistan” planına Cənubi Azərbaycanın bir çox əraziləri daxil edilmiş, XX əsrin əvvəllərində bu ərazilərdə ermənilər yerli türk-müsəlman əhaliyə divan tutmağa başlamışdılar. Məqsəd bu ərazilərdən soydaşlarımızı qovub çıxarmaq, erməni çoxluğuna nail olmaq, burada bir erməni varlığı görüntüsünü yaratmaq idi.

Birinci Dünya müharibəsi başlananda ermənilər 7 böyük hərbi birlik yaradaraq, onun müəyyən hissəsini Cənubi Azərbaycanın strateji əhəmiyyətli bölgələrində yerləşdirmişdilər. O zaman təkcə Rusiya ordusunun tərkibində 200 min erməni döyüşçü var idi. Onlar bu faktla indi də öyünürlər. Antanta ordularında da təxminən 50 min erməni könüllüsü iştirak edirdi. Döyüş meydanlarında ermənilər Osmanlı dövlətinə qarşı vuruşurdular. Bu qüvvələrin böyük bir hissəsi Cənubi Azərbaycanın Osmanlı dövləti ilə sərhədlərində yerləşdirilmişdi. Andranikin başçılığı ilə hərbi briqadalar döyüşlərdə iştirak edirdilər. Erməni tarixinə aid kitablarda bu bölgədə yaşanan faciələr qəhrəmanlıq salnaməsi kimi qeyd olunur.

Təqdim olunan xəritədə “Böyük Ermənistan” adlı xəyali dövlətin sərhədləri göstərilib. Burada Güney Azərbaycanın bir hissəsi “Böyük Ermənistan” ərazisi kimi verilir. Urmiya gölünün şimalı, bütün şərqi və cənub-şərqi əyalətlər “Ermənistan” ərazisi kimi təqdim olunur. Ermənilər yerli türk–müsəlman əhalini müəyyən ərazilərə köçməyə, öz yurdlarından didərgin düşmək kimi anti-insani üsullardan istifadə edirdilər. Bu işdə onlara Osmanlı dövlətinin Hakkari vilayətindən buraya gətirilib yerləşdirilən xristian asurilər (onlara nasturilər də deyilir) və kürdlər kömək edirdilər. Bu üç toplum bir ittifaqda birləşərək, Azərbaycan türklərini bu bölgədən çıxarmaq planları hazırlamış və koalisyon xristian dövlətinin (erməni, asuri və kürdlərdən ibarət) təməlini atmağa təşəbbüs göstərmişdilər. Təsadüfi deyil ki, erməni lider Ağa Petros 1923-cü ildə İngiltərə hökümətinə burada qurulması nəzərdə tutulan “muxtar dövlətin” 25 maddədən ibarət layihəsini təqdim etmişdi.

Əslində, ermənilər bu fəaliyyətə daha əvvəl başlamışdılar. Milliyyətçi Erməni İnqilabçı Federasiyası – “Daşnaksütyun” partiyasının 1900-cü ilin əvvəllərində İranın müxtəlif bölgələrində fəaliyyətini genişləndirməsi gələcək qanlı hadisələrdən xəbər verirdi. Ermənilər Cənubi Azərbaycanda özlərinin məkrli planlarını həyata keçirmək üçün illər boyu hazırlaşmışdılar. Buraya erməni əhalinin köçürülməsi XX əsrin əvvəllərində artmışdı. Ermənilərin İran Azərbaycanına köçü 1915-ci ildə daha da sürətlənmiş və yerli xalqa qarşı soyqırımı ilə nəticələnmişdir. 1918-ci il fevralın 21-də başlanan və 159 gün davam faciə yerli xalqın müqavimətinə dəstək verməyə gələn Osmanlı ordusunun müdaxiləsi ilə sona çatdı. Urmiya, Qəhrəmanlı, Çiçəkli, Köhnəşəhər, Əsgərabad, Nazlu və Usalu qırğınların vəhşicəsinə həyata keçirildiyi yaşayış məntəqələri olub. Həmin il Şimali Azərbaycanda – Bakıda, Şamaxıda, Qubada törədilən Mart qırğınları Cənubi Azərbaycandakı qanlı hadisələrlə eyni dövrə təsadüf etmiş, “Cilovluk faciəsi” adı ilə tarixə yazılmışdır.



Erməni dilində çap olunan bir çox nəşrlər hayların bu qətliamlara əvvəlcədən hazırlaşdığını sübut edir. 7 cildlik “Bir erməni inqilabçısının xatirələri” adlı kitabın ilk cildində Ruben Ter- Minasyan (o, 1919-20-ci illərdə Ermənistan Respublikasının müdafiə və daxili işlər naziri olub) özü də bilmədən həmin cinayətləri etiraf edir (Xatırladaq ki, 1952-ci ildə Los-Ancelesdə (ABŞ) çap olunan bu kitab nəşrindən bir müddət sonra “Daşnaksütyun” partiyası tərəfindən “zərərli nəşr” kimi yığışdırılmışdır. Kitab ermənicədən türk dilinə bu sətirlərin müəllifi tərəfindən tərcümə edilib). Ter-Minayan kitabda Səlmas, Xoy, Urmiya və digər Qərbi Azərbaycan şəhərlərində Birinci Dünya müharibəsindən əvvəl erməni millətçilərinin törətdikləri cinayətlərdən bəhs edir. Belə məlum olur ki, ermənilər 1918-ci ildə Cənubi Azərbaycanda gerçəkləşdikləri soyqırımı on il əvvəl planlaşdırıblarmış. Ruben Ter-Minasyan kitabda belə yazır: “Səlmas və Xoy mühüm mərkəzlər idi. Bu yerin bizim üçün əhəmiyyəti Vana yaxın olması idi. Əsas məqsədlərdən biri buradan gələcəkdə Vana təhlükəsiz və nəzarətimiz altında olan yol açmaq idi. Bu yol boyunca türk kəndləri yerləşirdi. Müsəlmanların hansısa vasitələrlə o kəndlərdən çıxarılması partiyamızın proqramına daxil edilmişdi. Əgər bu işi bacarmasaq, daha qısa bir yol tapmalı idik. Selmas–Derik–Van yolu 160, Derik– Van yolu 100, Xoy–Tadeos–Arakyal–Van yolu isə 200 kilometr idi. Bu ərazilər nəyin bahasına olursa-olsun bizim əlimizə keçməli, bölgəni Vanla birləşdirməliydik...”

**(ardı var)**

***Qfi a ÇAXMAQLI,***
***XQ-nin Türkiyə müxbiri***

# Qarabağın dirçəlişi uğurla davam edir



**Prezident İlham Əliyevin rəhbərliyi ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində müasir infrastrukturun qurulması, keçmiş məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıdışı və rahat məskunlaşması üçün yeni yaşayış məntəqələrinin inşası sürətlə davam etdirilir.**

2024-cü il ərzində 1400-dən artıq ailə Laçın, Cəbrayıl, Füzuli, Şuşa və Xocalı şəhərlərinə, Laçın rayonunun Zabux və Sus kəndlərinə, Xocalı rayonunun Ballıca kəndinə köçürülüb. Başqa sözlə, əhalinin dayanıqlı məskunlaşması və məşğulluğunun gerçəkləşdirilməsi üzrə zəruri işlər görülüb, ümumilikdə, 40 minə yaxın insanın Qarabağ və Şərqi Zəngəzurda yaşayışı və fəaliyyəti təmin edilib.

Sin bir ildə işğaldan azad edilən ərazilərdə 6 ümumi təhsil müəssisəsi fəaliyyətə başlayıb, 3 məktəbəqədər təhsil müəssisəsinin fəaliyyəti təmin olunub. Yaşayış məntəqələrində əlçatan və keyfiyyətli tibb xidmətləri infrastrukturunun qurulması istiqamətində də işlər davam etdirilib. Ərazilərin yüksəkgərginlikli elektrik enerjisi ilə təchizatı üçün 739 kilometr 110 kv-luq, 262 kilometr 330 kv-luq uzunluqda elektrik verilişi xətləri çəkilib, 11 ədəd 110 kv-luq, 1 ədəd 330 kv-luq yarımstansiya tikilib.

Dövlətimizin başçısının imzaladığı sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə minatəmizləmə və tikinti quruculuq işləri sürətlə davam etdirilir. Maliyyə Nazirliyinin 2025-ci ilin ilk rübü üzrə icmal və dövlət büdcələrinin icrasına (operativ) dair məlumatına görə, hesabat dövründə həmin ərazilərin tikintisi və minalardan təmizlənməsinə 830 milyon manatdan çox vəsait xərclənib.

Qeyd olunub ki, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə cari ilin yanvar-mart aylarında sifarişçi təşkilatlar tərəfindən müvafiq layihələr üzrə təqdim edilmiş kassa sifariş sənədləri əsasında illik nəzərdə tutulmuş vəsaitin 20,3 faizi həcmində və yaxud 812,3 milyon manat vəsait istifadə olunub. Həmin vəsaitin 682,6 milyon manatı infrastruktur təyinatlı layihələrin icrasına xərclənib. Belə ki, hesabat dövründə avtomobil yolları infrastrukturunun layihələndirilməsi, tikintisi, yenidən qurulması üçün 468,2 milyon manat, yeni yaşayış komplekslərinin layihələndirilməsi və tikintisi işlərinin aparılması üçün 103,2 milyon manat, mövcud radio-televiziya yayımı stansiyalarının işinin bərpası, yeni yayım stansiyalarının qurulması, poçt və rabitə xidmətlərinin (telefon, internet, multimedia) təşkili məqsədilə infrastrukturun yaradılması, şəhərlərarası (rayonlararası) və yerli magistral telekommunikasiya xətlərinin və ərazilərdə radiomonitorinq sisteminin qurulması üçün 45,1 milyon manat sərf olunub.

Cari ilin ilk rübündə Şuşa, Xankəndi və Laçın şəhərlərində kanat yolunun layihələndirilməsi və tikintisi işlərinin həyata keçirilməsinə 40 milyon manat, magistral su xətlərinin, tullantı, yağış kollektorlarının və qurğularının tikintisinin layihə-smeta sənədlərinin hazırlanması və tikintisi işlərinin həyata keçirilməsinə 19 milyon manat və sənaye parklarının fəaliyyətinin təşkili, habelə onların ərazisində infrastrukturun yaradılmasına 7,1 milyon manat xərclənib.

Nazirliyin məlumatına əsasən, bu ilin birinci rübündə Qarabağ və Şərqi Zəngəzurda səhiyyə, mədəniyyət və idman yönümlü sosial təyinatlı layihələrin maliyyələşdirilməsinə 109,7 milyon manat, ərazilərin minalardan təmizlənməsi tədbirləri üzrə xərclərə isə 20 milyon manat vəsait yönəldilib.

# I rübdə 500 milyon manat borc ödənilib

**Maliyyə Nazirliyinin məlumatına əsasən, Azərbaycanda cari ilin I rübündə dövlət büdcəsi xərclərinin 6 faizi və yaxud 486,7 milyon manatı (2024-cü ilin eyni dövrü ilə müqayisədə 55,3 faiz az) dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər olub.**

Rüb ərzində daxili dövlət borcu üzrə 110,4 milyon manat (faiz borcu üzrə), xarici dövlət borcu üzrə 376,3 milyon manat (əsas borc üzrə 235,8 milyon manat, faiz borcu üzrə 140,5 milyon manat) ödənilib. Xatırladaq ki, 2025-ci ilin dövlət büdcəsində borc və öhdəliklərə xidmət üçün 2 milyard 399,6 milyon manat vəsait nəzərdə tutulub.

Məlumatda bildirilir ki, hesabat dövründə Azərbaycanın xarici dövlət borcunun səviyyəsi 5 milyard 75 milyon ABŞ dolları (illik müqayisədə 7,8 faiz az) olub. Bu dövrdə xarici dövlət borcu cari il üzrə proqnozlaşdırılan ÜDM-in 6,6 faizini təşkil edib. Ölkənin daxili dövlət borcunun səviyyəsi 2025-ci il 1 aprel tarixinə 18 milyard 1,3 milyon manat (illik müqayisədə 9,1 faiz çox) olub. Bu da cari il üzrə proqnozlaşdırılan ÜDM-in 13,8 faizicdeməkdir. Beləliklə, bu ilin 1 aprel tarixinə Azərbaycanın ümumi dövlət borcu 26 milyard 628,8 milyon manat (illik müqayisədə 3,3 faiz çox) təşkil edib.



Ekspertlər ölkəmizin xarici borcunun dünya göstəricisindən çox aşağı olduğunu bildirir və bunu qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində önəmli layihələrin reallaşdırılmasının nəticəsi ilə əlaqələndirirlər.

Ümumiyyətlə, ölkəmizin xarici borc göstəricilərinin davamlı olaraq azalması uzun illər aparılan iqtisadi islahatların və şəffaflıq, inhisarçılığa qarşı mübarizə, investisiyaların cəlb edilməsi, sərmayə iqliminin yaxşılaşdırılması nəticəsində əldə olunub.

Bu göstəricilər, eyni zamanda, Azərbaycanın maliyyə vəziyyətinin davamlı şəkildə yaxşılaşmasından xəbər verir. Belə bir şəraitin yaranması isə həm mühüm sosial proqramların icrasını, o cümlədən Qarabağın bərpasını, həm də valyuta ehtiyatlarımızın daha da artmasını şərtləndirir. Strateji valyuta ehtiyatlarımızın hazırda 73 milyard 767 milyon dollar (ilin əvvəli ilə müqayisədə 2 milyard 775 milyon dollar və ya 4 faiz çox) olması qeyd edilən fikrin bariz ifadəsidir.

Qeyd edək ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığının gücləndirilməsi, makroiqtisadi sabitliyin daha da möhkəmləndirilməsi üçün qarşıya bir sıra mühüm vəzifələr qoyulub. Həmin məqsədlər sırasında yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmasına xüsusi yer verilib.

Bundan başqa sənəddə şaxələnmiş iqtisadiyyatın dayanıqlılığı üçün qeyri-neft sektorunun payının, eləcə də dövlətin valyuta ehtiyatlarının artırılması, intizamlı borclanmanın təşkil edilməsi kimi mühüm əhəmiyyətli istiqamətlər vurğulanıb. Milli Prioritetlərdə bütün bunların reallaşdırılması üçün xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması məqsədilə Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payının tədricən azaldılması, məcmu borcun makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinin gerçəkləşdirilməsi zəruriliyi bildirilib.

Milli Prioritetlərdə olduğu kimi, digər sənədlərdə də bildirilir ki, daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı, dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi – dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Bütün bunlar nəzərə alınaraq ölkədə son illərdə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra tədbirlər həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya arımı reallaşıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" və "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya"da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Bu sənədlərdə dövlət borcalmaları üzrə müəyyənləşdirilən strateji hədəflərə çatmaq üçün bir sıra prioritet layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulub. Prezident İlham Əliyevin 4 avqust 2023-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda bir sıra dəyişikliklər edilməsi də məhz bu məqsəddən irəli gəlib. Həmin strategiyanın "Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə" bəndi üzrə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faiz, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qərara alınıb.

Azərbaycanın xarici dövlət borcunun azalması bir sıra amillərlə bağlıdır. Bu, ilk növbədə, düşünülmüş uzunmüddətli strategiyanın uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Prezident İlham Əliyev tərəfindən imzalanan sərəncam – "Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya" da bunun bariz ifadəsidir.

Sonda qeyd edək ki, yenilənən strategiya çərçivəsində xarici dövlət borcunun ÜDM-də payının 2025-ci ilin sonuna 15 faizdən aşağı səviyyədə saxlanılması, növbəti dövrdə (2025–2030) isə 10 faizə çatdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

# Horadiz – Ağbənd dəmir yolunda Zəngəzur dəhlizinin ayaq səsləri eşidilir

**İşğaldan azad olunmuş ərazilərdə dəmiryol infrastrukturunun bərpası istiqamətində işlər davam etdirilir. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.**

Bildirilib ki, artıq Horadiz – Ağbənd dəmiryol xəttinin layihələndirmə işlərinin 83 faizi, tikinti-quraşdırma işlərinin isə 63 faizi başa çatdırılıb. Uzunluğu 110,4 kilometr olan dəmiryol xəttinin ox üzrə 75,6 kilometr hissəsi (yan yollarla birlikdə 87 kilometr) tamamlanıb, uzun ölçülü relslərin 65,6 kilometri quraşdırılıb. Layihə çərçivəsində, ümumilikdə, 534 ədəd mühəndis qurğusunun, 8 ədəd stansiyanın tikintisi və 70 ədəd yoldəyişən qurğunun quraşdırılması planlaşdırılır.

Qeyd edək ki, Horadiz – Ağbənd dəmiryol xətti Zəngəzur dəhlizinin əsas nəqliyyat arteriyalarından biri kimi Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə yanaşı, Orta Dəhlizin yeni seqmenti olaraq Şərq – Qərb – Şərq üzrə yükdaşımalar üçün imkanları genişləndirəcək.

# Neft məhsullarının ixracı 16 faiz çoxalıb

**2025-ci ilin yanvar–mart aylarında Azərbaycandan 122 min 386 ton neft məhsulları ixrac olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 17 min 144 ton və ya 16,3 faiz çoxdur.**

Dövlət Gömrük Komitəsi xəbər verir ki, hesabat dövründə ixracdan əldə edilən gəlir 9,7 faiz azalaraq 56 milyon 726 min dollar təşkil edib. Müqayisə üçün qeyd edək ki, 2024-cü ilin eyni dövründə bu rəqəm 62 milyon 829 min dollar olub. Göründüyü kimi, cari ilin birinci rübündə əvvəlki ilin müvafiq dövrünə nisbətən neft məhsullarının ixracından əldə olunan gəlir 6 milyon 103 min dollar azalıb.



Neft məhsullarının orta ixrac qiymətinə gəldikdə isə, 2024-cü ildə bir ton neft məhsulunun ixrac dəyəri 597 dollar idisə, 2025-ci ildə bu göstərici 463 dollara düşüb. Bu isə hər ton üzrə 134 dollar və ya 22,4 faizlik azalma deməkdir.

Qeyd edək ki, cari ilin birinci rübündə ölkənin emal müəssisələrində 1 milyard 257,1 milyon manat dəyərində 1 milyon 492,4 min ton neft məhsulları istehsal olunub. Bunun da 337 min tonunu avtomobil benzini, 148,8 min tonunu ağ neft, 552,9 min tonunu dizel yanacağı, 42,4 min tonunu mazut, 9,2 min tonunu sürtkü yağları, 56,9 min tonunu maye qazlar, 171,1 min tonunu isə neft bitumu və neft koksu təşkil edib.

# Qeyri-neft-qaz sektorundan daxilolmalar 6 faiz artıb

**I rübdə qeyri-neft-qaz sektorundan dövlət büdcəsinə 4 milyard 957 milyon manat vəsait daxil olub. Bu isə büdcəyə ümumi daxilolmaların 50,9 faizini təşkil edib.**



Maliyyə Nazirliyinin məlumatına görə, hesabat dövründə qeyri-neft-qaz sektoru üzrə büdcə daxilolmaları proqnozla müqayisədə 164,6 milyon manat və ya 3,4 faiz, 2024-cü ilin müvafiq dövrünə nisbətən isə 285,8 milyon manat və ya 6,1 faiz çoxdur.

Cari ilin birinci rübündə dövlət büdcəsinin gəlirlərində qeyri-neft-qaz sektoru üzrə daxilolmaların 65,1 faizi və ya 3 milyard 225 milyon manatı vergi, 28,9 faizi və ya 1 milyard 430 milyon manatı gömrük orqanlarının, 2,8 faizi və ya 136,7 milyon manatı dövlət büdcəsindən maliyyələşdirilən təşkilatlarının ödənişli xidmətlərinin, 3 faizi və ya 154,9 milyon manatı sair daxilolmaların, 0,2 faizi və ya 10,4 milyon manatı isə dövlət əmlakının icarəyə verilməsindən daxilolmaların payına düşüb.

Nazirliyin məlumatına əsasən, yanvar-mart aylarında dövlət büdcəsinin gəlirləri 9 milyard 733 milyon manat, xərcləri 8 milyard 115 milyon manat olub. Bunun da nəticəsində 1 milyard 618 milyon manat məbləğində dövlət büdcəsinin artıqlığı (profisit) yaranıb. Hesabat dövründə dövlət büdcəsinin gəlirləri 9 milyard 562 milyon manat proqnoza qarşı 9 milyard 733 milyon manat və yaxud 171,3 milyon manat (1,8 faiz) çox, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə isə 499,2 milyon manat və ya 5,4 faiz çox icra edilib. Bu da cari ilin dövlət büdcəsinin illik gəlirlərinin 25,4 faizinə bərabər olub. Birinci rübdə dövlət büdcəsinin xərcləri 8 milyard 115 milyon manat məbləğində icra edilməklə illik dövlət büdcəsi xərclərinin 19,6 faizini təşkil edib.

# Leysanın vurduğu 800 zərərə sığorta ödəniləcək

**Məlum olduğu kimi, bir neçə gün əvvəl ölkə ərazisində hava şəraitinin kəskin dəyişməsi və leysan xarakterli intensiv yağışlar nəticəsində çoxsaylı sığorta hadisələri qeydə alınıb. Təbiət hadisələri nəticəsində sığortalanmış avtonəqliyyat vasitələrinə, o cümlədən daşınar və daşınmaz əmlaklara zərər dəyib. Bu barədə Azərbaycan Sığortaçılar Assosiasiyası məlumat yayıb.**

Məlumatda bildirilir: "Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq yerli sığorta bazarı iştirakçılarından aldığımız bu günə olan son dəqiq məlumatlara görə, baş vermiş hadisələrlə bağlı 8 sığorta şirkətinə, ümumilikdə, 769 müraciət daxil olub. Həmin müraciətlərin 512-si "Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası" növü, 157-si "Daşınmaz əmlakın icbari sığortası" növü, 77-si "Kasko" sığorta növü, 21-i "Əmlakın yanğından və digər risklərdən sığortası" növü üzrə baş vermiş hadisələrlə əlaqədar olub. Bundan əlavə, "Fərdi qəza sığortası" və "Daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası" növlərinin hər biri üzrə isə 1 hadisə qeydə alınıb".



294 hadisə üzrə ehtimal olunan zərər məbləği 241 min 30 manat həcmində müəyyən olunub. Qalan 475 hadisə üzrə isə zərər qiymətləndirməsi prosesi davam edir. Hazırda daxil olmuş bütün müraciətlərə dair hadisələr tənzimləmə və zərər qiymətləndirilməsi mərhələsindədir və sığorta hadisəsi kimi tanınan hər bir hadisə üzrə sığorta ödənişlərinin həyata keçirilməsi nəzərdə tutulur. Bütün hadisələr üzrə qiymətləndirmə prosesi yekunlaşdıqdan sonra ümumi zərər məbləği həcminin 1 milyon manatı ötəcəyi ehtimal edilir.

Qurumdan bildiriblər ki, hesabat dövrü ərzində sığorta şirkətlərinə daxil olmuş müraciətlər üzrə hadisələrin 70 faizi paytaxt Bakıda, 30 faizi isə ölkənin digər bölgələrində qeydə alınıb.

# Ölkənin xarici ticarət dövriyyəsi yüksəlir

## I rübdə bu göstərici 24,3 faiz artaraq 12 milyard dollara çatıb



**Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, bu ilin yanvar – mart aylarında Azərbaycanın xarici ticarət dövriyyəsi 24,3 faiz artaraq 12 milyard ABŞ dolları təşkil edib.**

Məlumata görə, son bir ildə ölkə üzrə ixrac 6,7 faiz və ya 401,75 milyon dollar artaraq 6,4 milyard dollar, idxal isə 52,6 faiz və ya 1,9 milyard dollar artaraq 5,7 milyard dollar olub.

Hesabat dövründə xarici ticarət dövriyyəsində 722,9 milyon dollarlıq (bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,1 milyard dollar və ya 3,1 dəfə az) müsbət saldo yaranıb.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# “Erməni soyqırımı”: uydurmalar və gerçəklər

## *110 illik yalanın, böhtanın mahiyyəti və hədəfi*



***Musa QASIMLI,***
***AMEA-nın müxbir üzvü, professor***

**(əvvəli ötən sayımızda)**

**Erməni silahlı dəstələri Rusiya deyil, muxtariyyət uğrunda döyüşür, bundan ötrü kütləvi qırğınlar törədərək əraziləri yerli türk, müsəlman əhalidən təmizləyirdilər. Həmin məsələdə ermənilərə yardım edənlər də var idi. Məsələn, Alman-Erməni Cəmiyyəti Almaniyanın Türkiyənin ermənilər yaşayan vilayətlərinə muxtariyyət verilməsindən ötrü Osmanlıya təsir etməyə çalışır, təbliğat aparırdı.**

Erməni millətçilərinin iddialarına münasibət fərqli idi. Gürcülər onların istəklərindən hiddətlənirdilər. Perm quberniya jandarma idarəsinin rəisi Polis Departamentinə 1914-cü il dekabrın 4-də göndərdiyi 9313 №li tamamilə məxfi məktubunda yazırdı ki, erməni millətçilərinin irəli sürdüyü “Böyük Ermənistan” şüarı gürcülər arasında muxtariyyət hərəkatının artmasına təsir göstərir və müsəlmanları da Rusiya əleyhinə düşmənçiliyə sövq edir.

Erməni iddiaları çarizmin maraqlarına zidd olduğundan Rusiya ictimai xadimləri də ermənilərin istəklərinə qarşı çıxdılar. Rus tarixçisi, professor, sonralar Müvəqqəti hökumətin xarici işlər naziri olmuş P. N. Milyukov “Kavkazski teleqraf” qəzetinin 1914-cü il dekabrın 7-də 61-ci sayında dərc olunmuş "Türkiyə Ermənistanının taleyi" adlı məqaləsində yazırdı ki, etnoqrafik Ermənistan hüdudlarında yaşayan bütün əhali içərisində xristianlar 1 milyon 183 min nəfər və ya 45,2 faiz olub. Onlardan ermənilər 1 milyon 18 min nəfər və ya 45,1 faiz, digər dinlərin nümayəndələri 254 min nəfər və ya 0,1 faiz təşkil edib. Deməli, burada yaşayan əhalinin 54,8 faizi müsəlman olub. Cəmi 2 milyon 615 min nəfər əhali yaşayıb. P.Milyukov yazırdı ki, mən ermənilərin milli məsələlərini onlardan yaxşı başa düşməyə iddia edə bilmərəm, ancaq burada məsələnin başqa bir tərəfi vardır, məsələ dövlət və millətlərin ümumi münasibətləri baxımından qiymətləndirilməlidir. “Türkiyə Ermənistanı”nında muxtariyyətin qurulması və Qafqazda mövcud şəraitin saxlanılması ilə müxtəlif rejimlərdə yaşayan bir xalqdan ibarət olan iki vilayət yaranacaqdır. Bunun fərqliliyi bütün erməni milləti üçün Qafqazda unudulmayacaq münasibətlərin qəmli sonluğu olar, erməni xalqının birləşməməsini ermənilik üçün arzuedilməz hala gətirər. Bununla P.M.Milyukov bir tərəfdən, həmin ərazilərdə türk və müsəlmanların çoxluq təşkil etdiyini təsdiqləyir, digər tərəfdən isə Qafqazda və Şərqi Anadoluda iki erməni vilayətinin olmasının xoşagəlməz nəticələrə gətirəcəyini və bu ərazilərin çar Rusiyasının hakimiyyəti altında olmasını uyğun görürdü.



Erməni silahlı dəstəsi (1915-ci il)

“Qolos Kavkaza” qəzetinin 1914-cü il 30 dekabr tarixli 2404 №li sayında dərc edilən məqaləsində V.Arsov soyadlı müəllif sual edirdi:

“Rus Qafqazının yanında Türkiyə Ermənistanının muxtariyyəti necə ola bilər? Yazırdı ki, cavab birdir: Rusiya Ermənistanı özünə tərəf Türkiyə Ermənistanını çəkməyəcəkdir, əksinə, özü ona tərəf meyil edəcəkdir. Türkiyə Ermənistanında muxtariyyətin qurulması Rusiyanı öz ucqarlarında mərkəzdənqaçma cəhdlərini yaratmaq deməkdir. Bundan Rusiyanın çoxsaylı düşmənləri istifadə edə bilər, Rusiyaya loyal olan erməni xalqı içərisində çoxlu gözlənilməz və fəlakətli çətinliklər yarada bilərik.”

Fəlakətli çətinliklər nə ola bilərdi? Müəllif digər bir şəxsin məqaləsinə istinadən yazırdı ki, bu, orduda ermənilərin təbliğat aparmaları, fərarilik etmələri olar.

Müəllif türk hakimiyyəti altında ermənilərə muxtariyyət verilməsini düzgün hesab etmir, Qafqazdakı ermənilərin Şərqi Anadoluya meyil edəcəklərini açıq-aşkar yazır, azərbaycanlıların və gürcülərin də belə niyyətə düşə biləcəklərinə işarə edirdi. Bu isə Rusiya üçün arzuolunmaz nəticələrə gətirərdi.

Türk hökumətinin bütün dinlərə, o cümlədən xristianlığa loyal münasibətindən sui-istifadə edərək kilsəni silah-sursat anbarına çevirən erməni din adamlarının xristianlığa ləkə vurduqlarını müəllif belə izah edirdi: “Türk hökuməti ruhanilərə az şübhə ilə yanaşır və onu təqib etmirdi. Beləliklə, biz kilsənin himayəsi altında hərbi baza qurmağa qərar verdik.”

Erməni ziyalıları Şərqi Anadoluda ermənilər yaşayan əraziləri Rusiyaya birləşdirmək istəyirdilər. Rusiya Daxili İşlər Nazirliyinin sənədlərində yazılırdı ki, erməni ziyalıları Qafqazda və Rusiya daxilində özlərini rus dövlətinin himayəsi altında güclü və müstəqil hiss edirlər və “Türkiyə Ermənistanı”nın Rusiyaya tam birləşdirilməsini arzulayırlar. “Qolos Kavkaza” qəzeti isə yazırdı ki, ermənilər “Türkiyə Ermənistanı”na muxtariyyət istəyirlər. Onların fikrincə, Rusiya Ermənistanı „Türkiyə Ermənistanı”nı özünə tərəf çəkməyəcək, əksinə, özü ona tərəf meyil edəcəkdi.

Məsələ ilə bağlı olaraq “Daşnaksütyun” 1915-ci ilin yanvarında müraciət edərək bütün üzvlərini Tiflisdə qurultaya çağırdı. Qurultaya hazırlıqlara başlandı.

Rusiyadan yardımlar alan, lakin ona xəyanət edən ermənilərin bu hərəkətləri imperiya orqanlarını hiddətləndirdi. Rusiya daxili işlər nazirinin müavini Vladimir Cunkovski Ali Baş Komandanlığın Qərargah rəisi, general Nikolay Yanuşkeviçə yazırdı ki, “erməniçiliyin sol elementləri yalnız Rusiyaya münasibətdə zahiri loyallıqları ilə maskalanmışlar, ilk münasib anda bu maskanı atmağa və böyük dünya müharibəsinin başa çatmasını gözləmədən bu silahı elə özlərinin yeganə dayaqları və müdafiəşçisi olan həmin Rusiyaya yönəltməyə hazırdırlar. Yaxın zamanlardakı hadisələr bunu tamamilə təsdiq etdi.”

V.Cunkovskinin yazdığı yaxın zamanlardakı hadisələr erməni silahlı dəstələrinin silah–sursatı, təminatı Rusiyadan alıb ona qarşı çıxmaları, öz maraqları uğrunda çalışmaları və döyüş meydanlarındakı vəhşilik hərəkətləri idi.

### Türk–müsəlmanların soyqırımının etirafı

Rusiya komandanlığı işğal edilən ərazilərdə qayda-qanunun qurulmasında maraqlı olsa da, erməni silahlı dəstələri dinc əhaliyə qarşı qırğınları amansızlıqla davam etdirirdilər. 1915-ci ilin yanvarında türklərin və digər müsəlmanların kütləvi şəkildə öldürülmələrini erməni ictimai xadimləri də etiraf edirdilər. Ermənilərin nəşr etdikləri “Baku” qəzetinin 1915-ci il 30 yanvar tarixli sayında yazılırdı ki, Kars vilayətində Şildir dairəsində 24, Düz Ərdəhan dairəsində 18, Şadivanda 2, Qolda 34 müsəlman kəndi büsbütün yandırılıb.

Qafqaz Erməni Xeyriyyə Cəmiyyəti və Müharibədən zərər çəkənlərə yardım üzrə Mərkəzi Komitənin sədri S.Arutyunovun 1915-cı il yanvarın 27-də Tiflis Müsəlman Xeyriyyə Cəmiyyəti İdarə Heyətinə yazdığı məktub bunu sübut edir:

“Mən Karsı gəzərkən əmin oldum ki, müharibədən əziyyət çəkən, evlərini itirən, din qardaşlarına pənah gətirən müsəlman qaçqınları da vardir. Onlar öz kəndlərini buraxaraq hərbi əməliyyatlardan uzaq yerlərə öz din qardaşlarına pənah aparmışlar.”

S.Arutyunov müsəlman qaçqınlar üçün yardım toplamağa dair əvvəllər Bakı Şəhər Polis İdarəsi rəisinin köməkçisi işləmiş, 1908-ci ildən Kars vilayətinin hərbi qubernatoru olmuş polkovnik Aleksey Podqurskiyə müraciət etməyi məsləhət gördü.

Tiflis Müsəlman Xeyriyyə Cəmiyyəti bu məlumata görə, S.Arutyunova təşəkkür etdi. Bakıda Müsəlman Xeyriyyə Cəmiyyətinin qurulmasına icazə alındı.

A.Podqurski 1915-ci ilin yanvar ayında Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin sədrinə göndərdiyi teleqramında yazırdı: “Kars vilayətinin müsəlman əhalisi müharibədən güclü ziyan görmüşdür. Ehtiyac böyükdür və təhlükə vardır. Heç yerdən yardım yoxdur. Cəmiyyətə müraciət edərək yardım istəyirəm.”

O, yardım göstərilməsi üçün hökumətdən xahiş edəcəyini də yazırdı. Az sonra A.Podqurski Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinə müraciət edərək geyim, qida və pul vəsaiti toplamaq üçün icazə aldığını bildirdi.

Erməni silahlı dəstələrinin dinc türk və müsəlman əhalini kütləvi şəkildə öldürməsini Rusiya imperatorluğunun digər rəsmi şəxsləri də etiraf edirdilər. Məsələn, Kars vilayətinin müvəqqəti general-qubernatoru, general-leytenant Zubov vilayətin əhalisinə 1915-ci ilin yanvarında etdiyi müraciətində deyirdi ki, Türkiyə ilə müharibə başladıqdan sonra az mədəniyyətli xristian əhalinin bir hissəsinin (ermənilər nəzərdə tutulur – M.Q.) vilayətin yerli müsəlmanlarına münasibətdə müşahidə edilən düşmənçiliyi son vaxtlar açıq hücumlara çevrilib, bunun nəticəsində dinc müsəlmanlar öldürülüb. Belə xeyli qəmli olan təzahür rus təbəələrinə xas deyildir, bizim vətənimizdə belə hallara yol verilməməlidir. Rusiya türk hökuməti və orduları ilə döyüşür, yerli dinc əhali ilə döyüşmür. Hətta, türk təbəqəsi olan dinc müsəlmanlar rus qanunları ilə qorunmaq və himayə olunmaq haqlarına sahibdirlər, hələ rus təbəəsi olan müsəlmanları demirik, onlar da xristianlar kimi bərabər hüquqlara malikdirlər. Mövcud qanunlardan kənarda Rusiya hüdudlarında hətta Rusiyaya və onun hərəkətlərinə düşmən münasibətdə olan ayrı-ayrı şəxslər və qruplar üzərində hər hansı zorakılığa və özbaşına mühakiməyə yol verilmir. Bunun üçün hakimiyyət və məhkəmə vardır. Günahkarlar mövcud qanunlar əsasında cəzalandırılmaq üçün məhkəmələrə verilməlidirlər. Əhali yalnız təqsirkar şəxslərin hakimiyyətə verilməsinə yardım etməli, istədikləri kimi onların üzərində mühakimə qurmamalıdır. Belə zorakılıq və mühakimə edən şəxslər cinayətkarlardır və qanun qarşısında məsuliyyət daşıyırlar. Yaxın vaxtlarda dinc müsəlman əhalisinin öldürülməsi idarəçilik qaydalarına qarşı cinayətdir və günahkarlar müharibə dövrünün qanunlarına uyğun olaraq hərbi məhkəmələr tərəfindən mühakimə ediləcəklər.

General-qubernator sağlam düşüncəli xristian əhaliyə müraciətində hərbi əməliyyatların yaratdığı mövcud şərait üçün tamamilə təqsirkar olmayan yerli müsəlman əhaliyə münasibətdə hər hansı düşmənçilik hərəkətlərinə yol verməməyə çağırır, istər xristian, istərsə də müsəlman olsun, cinayət törədənlərin hərbi məhkəmələrə veriləcəyini elan edirdi. Belə cinayətləri törədənlər edam ediləcəkdilər.

### Ermənilər Qərbi Azərbaycana yerləşdirilir

Osmanlı dövlətini arxadan vuran erməni elementinin döyüş əməliyyatları bölgələrini tərk edərək Qafqaza gəlməsi artdı. "Reç" qəzeti 1915-ci ilin yanvarında yazırdı ki, türk hərbi əməliyyatlar meydanından erməni əhali bizə pənah gətirir. Gələnlər əsasən Naxçıvan bölgəsində, Yelizavetpol, İrəvan və Bakı quberniyalarında yerləşdirilirdi. Bütövlükdə, 1915-ci ilin yanvarınadək Qafqaza gələn qaçqınların sayı millətindən asılı olmayaraq 100 min nəfərdən çox idi. Qaçqınlar üzrə komitənin 1915-ci il 15 yanvar tarixli hesabatında deyilirdi: “İrandan və Türkiyədən 120 min nəfərədək, rus təbəəsi olan 30 min nəfər, bütövlükdə 150 min nəfər qaçqın vardır.”

Erməni silahlı dəstələrinin dinc türk və müsəlman əhaliyə tutduqları divan çar Rusiyası ordu komandanlığını hiddətləndirdi. Rus komandanlığı onların cəbhədən geriyə çəkilməsi haqqında göstəriş verdi. Belə olduqda katolikos V Gevorq 1915-ci ilin yanvarında erməni qaçqınlara kürd və türk əhalinin yaşadığı bütün kəndləri vermək təklifini irəli sürdü.

### Daşnakların Rusiyaya arxadan zərbəsi

Ermənilərin ələ keçirdikləri silahları rus ordusunun onların əllərindən alması və işğal edilmiş ərazilərə ermənilərin yerləşmələrinə icazə verməməsi daşnakları hiddətləndirdi. Çarizm sənədlərində yazılır ki, ermənilərin ümidləri özünü doğrultmadı. Daşnaklar bildirdilər ki, Rusiyadan “Türkiyə Ermənistanı” üçün muxtariyyət gözləməyə dəyməz, ona görə də silahı rus ordusuna vermək olmaz, gələcəkdə Rusiyaya qarşı yönəldilə bilər. 1915-ci il fevralın 15-19-da Tiflisdə “Daşnaksütyun”un yerli komitələrinin qurultayı keçirildi. Qurultayda 120 nəfər iştirak edirdi. Onlardan 8-i keşiş, 8-i qadın idi.



Erməni keşişləri silahlı dəstələri dinc türklər üzərinə göndərir (1915-ci il)

Qurultayın ikinci günü, fevralın 16-da yepiskop Mesrop Qafqaz canişini ilə görüşərək iki məsələ üçün icazə istədi: erməni drujinalarına kömək; erməni qaçqınlarına yardım. Canişin erməni drujinalarına kömək məsələsinin hay-küylə açıq-aşkar edilməsinin doğru olmadığını bildirdi. Qeyd etdi ki, qanun vətəndaşlara toplantı azadlığı verir və siz istədiyiniz yerdə toplaşa bilərsiniz. Hakimiyyət belə drujinaların yaradılmasına mane olmayacaqdır. Lakin, o, bu məqsədlə qəzetlərdə elan verilməsinin və hay-küylü iclasların keçirilməsinin məqsəduyğun olmadığını dedi.

Canişin bu məsələdə Rusiyanın türk, müsəlman əhalisinin hiddətlənəcəyindən çəkinirdi. O, ermənilərin bu fəaliyyətinə nəzarət etməyi Tiflis quberniya jandarma idarəsinin rəisinə tapşırdı.

Qurultay daha sonra məhdud çərçivədə yepiskop Mesropun evində davam etdirildi.

Fevralın 17-dən etibarən Rusiyanın və Qafqazın müxtəlif yerlərindən ermənilər Tiflisə axışdı. Qurultayda erməni drujinalarının ehtiyacı üçün vəsaitlər toplanmasına dair qərar qəbul edildi. Qərarda, həmçinin yazılırdı ki, ermənilərin bir qisminin silahlandırılması xüsusi rol oynamayacaqdır, hərbi xidmətləri olacaq böyük drujinalar qurmaq lazımdır. Qurultayda çıxış edən Andranik bildirdi ki, erməni drujinaların sayı az deyildir, lakin onlar daha da artırılmalıdır, əgər “erməni məsələsi” mənfi həll edilərsə, onda vahid erməni drujinası fayda verəcəkdir. O, Rusiyadan ermənilərə verdiyi vədi yerinə yetirməyi tələb etmək təklifini irəli sürdü.

Andranikdən sonra çıxış edən Rusiya Dövlət Dumasının üzvü M. Papacanov bildirdi ki, rus hökuməti erməni drujinalarının sayını artırmaq barədə razılıq verib. O, ermənilərin Türkiyədən böyük düşməninin olmadığını bildirdi. Qurultay ermənilərin bir yerə cəmlənməsi və vahid cəbhədə birləşməsi haqqında qərar qəbul etdi.

“Daşnaksütyun” bütün üzvlərinə müraciət edərək bildirdi ki, hazırda ermənilərin çar hökuməti ilə birliyi müvəqqətidir, gələcəkdə ermənilərin çıxışları rus ordusuna kömək demək deyil, siyasi çıxışlar olacaqdır. Ona görə də “Daşnaksütyun” hökumətdən silahlar almağa və döyüş bölgələrində ələ keçirilən silahları təhvil verməməyə çağırdı. Müraciətdə deyilirdi: “Hələ məlum deyildir ki, bu silahlar kimə qarşı tuşlanacaqdır.”

İmperiya hakimiyyəti erməniləri silahlandırıb məqsədləri naminə istifadə etmək istəsə də erməni dəstə başçıları, “Daşnaksütyun” və kilsəsi həmin silahları gələcəkdə öz maraqları üçün istifadə etməyi düşünürdülər.

### Erməni quldurlar silahlandırılır

Erməni dəstələri təşkil olunsa da, çox vaxt silah – sursat çatışmırdı. İ.Vorontsov-Daşkov Rusiya Xarici İşlər Nazirliyinə göndərdiyi 1915-ci il 20/7 fevral tarixli 1185 nömrəli teleqramında erməni dəstə başçılarının məlumatlarına əsaslanaraq yazırdı ki, 15 min erməni türk yollarına hücum etməyə hazırdır, lakin silahları, patronları yoxdur. O, ermənilərə silahın Aleksandretə (İsgəndərun – M.Q.) göndərilməsinin və bilavasitə Rusiya tərəfindən verilməsinin mümkün olmadığını nəzərə alaraq Fransa və İngiltərə gəmilərində fransız və ingilis silahlarını göndərməyi tövsiyə etdi. İ.Vorontsov-Daşkovun teleqramı 1915-ci il 22/9 fevral tarixində Paris və Londondakı səfirlərə 708 №li mətnlə göndərildi. Səfirlər məsələni müvafiq dövlət qurumları ilə müzakirə etsələr də, müsbət nəticəsi olmadı. Cavabında Parisdəki səfir Aleksandr İzvolski 1915-ci il 2 mart/17 fevral tarixində bildirdi ki, fransız hökumətinin Zeytun ermənilərinə silah göndərmək imkanı yoxdur, çünki Fransanın özü buna ehtiyac duyur.

### Eçmiadzində kilsə qurultayı

Erməni kilsəsi də xeyli fəallaşdı. 1915-ci il martın 2-də Eçmiadzində kilsə qurultayı keçirildi. Qurultayda 12 məruzə dinlənildi. Qurultayın sənədlərində erməni qaçqınlarının sayının 8900 ailə və ya 60 min nəfər olduğu yazılırdı. Onlara yardım haqqında qərar qəbul edildi. Katolikos qaçqınlara yardımdan ötrü imperatora müraciət etdi. Eçmiadzin qurultayı Türkiyə və İrandan gələn ermənilərin ümumi sayını belə müəyyənləşdirdi: 60 min nəfər.

Öldürülən türk və müsəlmanların sayı çox idi. 1915-ci il martın 6-da verilən məlumata görə, ermənilərin təkcə Kars və Ərdəhanda öldürdükləri müsəlmanların sayı 30 min nəfərə çatırdı. Qaçıb canını qurtarmağa çalışan minlərlə müsəlmanı dağlarda şaxta vurdu. İşğal edilən ərazilərdən bütövlükdə 850 min nəfərdən çox müsəlman qaçqına çevrildi. Rusiyanın maliyyə və təşkilati yardımları ilə qurulan erməni terrorçu siyasi təşkilatları və silahlı dəstələri türk və müsəlmanları kütləvi şəkildə qıraraq işğal edilmiş əraziləri tutmağa, Türkiyə ilə məsələni tez həll etməyə və Ermənistanı qurmağa çalışırdılar. Erməni məktəblərini də öz məqsədlərinə tabe edən erməni təşkilatları, daşnaklar və müəllimlər 1915-ci ilin martın əvvəllərində Yekaterinadorda birgə iclas keçirərək, komitələrin pulunun artırılmasının vacibliyini bildirdilər. Açıq şəkildə dedilər ki, müharibədən sonra bizim tələblərimiz olacaqdır, əgər verilməsə, zorla alacağıq.

A.Çobanyan adlı erməni ictimai xadimi 1915-ci ilin martında “Reç” qəzetində P.N.Milyukova yazdığı geniş məktubunda qeyd edirdi ki, “erməni məsələsi”ni küll halında Rusiyanın himayəsi altında altı vilayətdən və Kilikiyadan ibarət Ermənistan muxtariyyəti qurmaqla həll etməkdən ötrü ingilis-rus-fransız sazişi bağlamaq lazımdır. Onun yazdığına görə, bu, həm erməni xalqı, həm də Rusiya üçün əlverişli olardı. “Erməni məsələsi”ni təkcə siyasi, eyni zamanda, heysiyyat məsələsi hesab edən A.Çobanyan Rusiyanın bunun həllinə yardım göstərəcəyinə ümid edirdi.

**(ardı var)**

(əvvəli ötən saylarımızda)

# Elmlər Akademiyası XX əsrdə tarixi zərurətdən yarandı

28 aprel 1965-ci il tarixində akademiyanın həqiqi üzvləri – Azərbaycan yazıçısı-dramaturq, ictimai xadim, Mirzə İbrahimov və Azərbaycan sovet bəstəkarı Qara Qarayev də ədəbiyyat və incəsənətin müxtəlif sahələrində fərqlənən əsərlərinə görə Azərbaycan SSR Dövlət mükafatı ilə təltif edilmişlər.

22–25 yanvar 1965-ci il tarixlərində Azərbaycan Elmlər Akademiyasının Ümumi Yığıncağı keçirilmişdir. Bu barədə "Kommunist" qəzetinin (indiki "Xalq qəzeti"–red.) 26 yanvar 1965-ci il tarixli sayında yazılmışdır. Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Z.İ.Xəlilov müasir elmin başlıca inkişaf meyillərindən danışmış, respublikamızın elmi ictimaiyyətinin diqqət mərkəzində durmalı olan ən mühüm problemlərindən bəhs etmişdir.





Ümummilli lider Heydər Əliyevin alimlərlə görüşü

Sonra respublika Elmlər Akademiyasının akademik-katibi M.F.Nağıyev Azərbaycan SSR Elmlər Akademiyasının 1964-cü ildəki fəaliyyəti haqqında hesabat vermişdir. Fizika, texnika və riyaziyyat bölməsinin akademik-katibi akademik C.M.Cuvarlı, kimya elmləri bölməsinin akademik-katibi akademik Ə.M.Quliyev, geologiya-coğrafiya elmləri və neft bölməsinin akademik-katibi akademik Ş.Ə.Əzizbəyov, biologiya elmləri bölməsinin akademik-katibi akademik V.R.Volobuyev, ictimai elmlər bölməsinin akademik-katibi akademik İ.A.Hüseynov 1964-cü ildə elmin müxtəlif sahələrinin vəziyyəti, inkişafı və ən mühüm elmi nailiyyətlər haqqında məruzə etmişlər. Bu hesabatlar, Elmlər Akademiyasının sahələr üzrə ixtisaslaşmasının gücləndiyini və multidissiplinar elmi yanaşmanın tətbiqini nümayiş etdirir.

"Kommunist" qəzetinin 6 fevral 1965-ci il tarixli buraxılışında dərc edilmiş Azərbaycan SSR Nazirlər Soveti Dövlət Elmi-Tədqiqat İşlərini Əlaqələndirmə Komitəsinin sədri professor B.Əzimovun "Yeni institutlar, mühüm problemlər" adlı müsahibəsindən: "Xalq təsərrüfatının inkişaf etdirilməsi sahəsində qarşıya qoyulan böyük vəzifələrin yerinə yetirilməsi bir sıra elmi və nəzəri problemlərin həlli ilə əlaqədardır. Buna görə də həmin problemlər indi alimlərimizin, elmi müəssisələrimizin diqqət mərkəzində durur. Respublikamızın alimləri, elmi-tədqiqat müəssisələri xalq təsərrüfatımız üçün böyük əhəmiyyəti olan işlər görürlər. Lakin onların qarşısında daha mühüm vəzifələr durur. Bununla əlaqədar olaraq, 1965-ci ildə respublikada yeni institutlar və laboratoriyalar açmaq nəzərdə tutulmuşdur".

Professor B.Əzimov məlumat vermişdir ki,1965-ci il respublikamızda yeni elmi-tədqiqat institutlarının yaranması, mühüm elmi problemlərin işlənməsi ilə əlamətdar olacaqdır: "Belə ki, bu il Azərbaycan SSR Elmlər Akademiyası sistemində Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutu, Üzvi Kimya İnstitutu, Kibernetika İnstitutu, İnsan və Heyvan Fiziologiyası İnstitutu, Fəlsəfə və Hüquq İnstitutu, Mikrobiologiya Bölməsi kimi yeni elmi müəssisələr yaranacaqdır".

**Arif HƏŞİMOV, akademik**

Yeni elmi müəssisələrin yaradılması, elmi fəaliyyətin yalnız nəzəri deyil, həm də tətbiqi aspektlərinə önəm verildiyinin sübutudur. Bakıda aprelin 8-dən 14-dək keçirilmiş ümumittifaq elmi sessiyası haqqında "Kommunist" qəzeti, 15 aprel 1965-ci il tarixli nömrəsində yazılmışdır. Sessiya 1964-cü ildə görülmüş arxeologiya və etnoqrafiya tədqiqatlarının yekunlarına həsr olunmuşdur.

Sessiyada Moskvanın, müttəfiq və muxtar respublikaların alimləri iştirak etmişlər. Lenin mükafatı laureatı Y.İ.Krupnov demişdir: "Dünya miqyasında son dərəcə böyük əhəmiyyətə malik qiymətli, həm də çox mürəkkəb abidə olan Qobustanda qayalar üstündəki təsvirlərə dair böyük material toplanmışdır. Həmin material böyük tədqiqat əsərində ümumiləşdirilməyə layiqdir. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Azərbaycan arxeoloqlarının müvəffəqiyyətləri böyük ümumiləşdirici əsərlər yaratmağa imkan verir". Bu qiymət Azərbaycanın mədəni irsinin dünya elminə inteqrasiyasını və tarixşünaslığın yeni mərhələyə keçidini göstərirdi.

Elmlər Akademiyasının akademiki, Dövlət mükafatı laureatı, görkəmli memar M.Ə.Hüseynov haqqında "Kommunist" qəzetinin 20 aprel 1965-ci il tarixli nömrəsində dərc olunmuş "Görkəmli sovet memarı" adlı məqalədə deyilirdi: "Azərbaycan paytaxtının ictimaiyyəti görkəmli sovet memarı və alimi, respublika Elmlər Akademiyasının akademiki, Dövlət mükafatı laureatı, memarlıq doktoru, professor M.Ə.Hüseynovun yubileyini qeyd etmişdir. Aprelin 19-da Azərbaycan Elmlər Akademiyasının böyük salonunda M.Ə.Hüseynovun anadan olmasının 60 illiyinə, yaradıcılığının və elmi-pedaqoji fəaliyyətinin 35 illiyinə həsr olunan təntənəli yığıncaq keçirilmişdir. Yığıncağı giriş sözü ilə respublika Elmlər Akademiyasının prezidenti Z.İ.Xəlilov açmışdır. Azərbaycan Politexnik İnstitutunun rektoru Ə.Qasımzadə M.Ə.Hüseynovun həyat və fəaliyyəti haqqında məruzə etmişdir".



Yazıda bildirilirdi ki, yaradıcılıq, elmi layihə və tikinti təşkilatlarının, habelə digər təşkilatların, ali məktəblərin nümayəndələri, həmçinin qonaqlar – Moskvanın, Tblisinin və Yerevanın alimləri yubilyarı təbrik etmişlər. Ölkənin bir çox şəhərlərinin elmi idarələrindən, alimlərindən və memarlarından akademik M.Ə.Hüseynova təbrik teleqramları gəlmişdir.

Yığıncağın axırında M.Ə.Hüseynov çıxış edərək təbriklər və xoş arzular üçün öz təşəkkürünü bildirmişdir.Yubileylə əlaqədar olaraq M.Ə.Hüseynovun layihələri üzrə tikilmiş binaların fotolarından, alimin elmi işlərindən ibarət sərgi açılmışdır. Böyük ehtimalla akademik M.Ə.Hüseynovun 1965-ci ildə yubileyinin qeyd edilməsi keçmiş SSRİ-nin rəhbəri Nikita Sergeyeviç Xruşşovun 1964-cü ilin oktyabrında hakimiyyətdən uzaqlaşdırılaraq ittifaq əhəmiyyətli fərdi təqaüdə göndərilməsindən sonra mümkün olmuşdur.

Bu mülahizə Azərbaycan SSR Elmlər Akademiyasının 1950–1958-ci illərdə prezidenti olmuş, akademiyanın inkişafının istiqamətləndirilməsində, yeni elmi-tədqiqat institutlarının, bölmə və şöbələrin yaradılmasında, Şamaxı Astrofizika Rəsədxanasının açılması haqqında hökumət qarşısında vəsatət qaldırılmasında, Bakı şəhərində "Akademiya şəhərciyi" adlanan kompleksin yaradılmasında və s. xüsusi xidmətləri olmuş akademik Musa Əliyev haqqında Nadejda İsmayılova tərəfindən hazırlanmış və çap olunmuş "Öz xətti ilə" kitabında verilmişdir.

**Orada yazılıb:** "Uzaqgörən Musa Əliyev, elə bil, ən vacib işdən deyil – tikilməkdə olan divarların tədbirlə Xarkovdan gətirdiyi bahalı qranit ilə örtüyündən işə başlamışdır. Bina yarı tikilmişdi ki, Xruşşov tikintidəki memarlıq artıqlığı (tikintidə artıq əlavələr) haqqında məşhur məruzəsi ilə çıxış etdi. Hətta partiyanın əsas təbliğat ruporu olan "Pravda" qəzetində bu mövzuda məqalə də dərc edilmişdi. Xruşşov şəxsən Mikayıl Hüseynov haqqında demişdir: "Ölkənin belə memarlara ehtiyacı yoxdur". Nəticədə, hələ tikilməmiş 4 milli üslublu günbəz kompozisiyadan çıxarılmışdır. Ancaq Musa Əliyevin intuisiyası və uzaqgörənliyi sayəsində binaya əzəmət və gözəllik verən qranit üzlük bu günümüzə qədər gəlib çatıb.

Prezident İlham Əliyevin tapşırığı əsasında Azərbaycan Milli Elmlər Akademiyasının "Akademiya şəhərciyi" adlanan kompleksdəki əsas binasında, eyni zamanda, onun ətrafında aparılan və 2011-ci ildə tamamlanan yenidənqurma və abadlıq işləri nəticəsində binalar M.Ə. Hüseynovun hazırladığı layihənin ilkin variantına uyğunlaşdırılmışdır. Dövlətimizin başçısının qayğısı sayəsində paytaxtın gözəl memarlıq nümunəsi olan Azərbaycan Milli Elmlər Akademiyasının əsas binası yenidən möhtəşəm görkəmi ilə Bakıya yaraşıq verməkdədir.

Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti Zahid Xəlilov "Kommunist" qəzetinin 23 aprel 1965-ci il tarixli nömrəsində çap edilmiş "Alimlər xalqa xidmət edirlər" adlı məqaləsində qeyd edir: "Akademiyanın yaradılması və sürətli inkişafı Azərbaycan xalqının qısa tarixi dövrdə – Sovet hakimiyyətinin 25 ili ərzində qazandığı heyranedici iqtisadi, mədəni və elmi tərəqqisinin parlaq nümunəsidir".

Azərbaycan SSR Elmlər Akademiyasının 20 illik fəaliyyətinə 1965-ci ilin aprel ayında keçirilmiş Ümumi Yığıncağında yekun vurmuşdur. Azərbaycan SSR Elmlər Akademiyasının 20 illik fəaliyyəti ilə bağlı hesabat" "Azərbaycan SSR Elmlər Akademiyası 20 il" kitabında öz əksini tapmışdır. Bu yekun, elmi fəaliyyətin ictimai rəy və dövlət səviyyəsində necə qiymətləndirildiyini əyani şəkildə göstərir.

## Üçüncü dövrün təhlili

1965–1985-ci illəri əhatə edən üçüncü mərhələ Azərbaycan elminin həm böyük uğurlar, həm də müəyyən çətinliklərlə üzləşdiyi dövrdür. Bir tərəfdən, kosmik tədqiqatlar, neft sənayesində elmi yeniliklər, kimya və fizika sahələrində mühüm kəşflər əldə edildi; Azərbaycan alimləri SSRİ miqyasında tanınaraq sosialist elminin avanqardında yer aldılar. Digər tərəfdən, 1970-ci illərin sonu–1980-ci illərin əvvəllərində cəmiyyətdə baş qaldıran ümumi durğunluq elmi mühitə də təsirsiz ötüşmədi–bürokratik manelələr və ideoloji basqılar elmi yaradıcılığın tempini bir qədər azaltdı.

Bununla belə, ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə elm və təhsilə xüsusi qayğı göstərilməsi sayəsində durğunluğun mənfi təsiri xeyli azaldı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə yüzlərlə azərbaycanlı gəncin keçmiş ittifaqın aparıcı ali məktəblərində təhsil alması təmin edildi, elmi kadrların hazırlığı gücləndirildi.

**Sosial müstəvidə:** Bu addımın təsiri ilə yeni intellektual nəsil formalaşdı və sonrakı dövrdə (müstəqillik ərəfəsində) həmin gənc alimlər milli elitanın aparıcı simalarına çevrildilər.

**İdeoloji müstəvidə:** Azərbaycan elmi yenə də rəsmi ideoloji çərçivədə fəaliyyət göstərsə də, tarixçilər və ədəbiyyatşünaslar xalqımızın gerçək tarixi və zəngin ədəbi irsi barədə dəyərli əsərlər yazaraq milli kimliyi sətiraltı da olsa möhkəmləndirirdilər.

**Mədəni planda:** Bu illərdə Azərbaycan incəsənəti və mədəniyyəti (məsələn, muğam sənəti, klassik ədəbiyyat) mövzuları elmi konfransların gündəmində idi ki, bu da mədəni irsimizin elmi cəhətdən dəyərləndirilməsini təmin edirdi.

**Elmi-strateji baxımdan:** Gələcək müstəqilliyin intellektual bünövrəsini hazırlayan bir mərhələ oldu; elm sahəsində qorunub saxlanılan potensial 1990-cı illərdə ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynadı.

## Dördüncü dövrün təhlili

1985–1990-cı illəri əhatə edən dördüncü mərhələ Azərbaycan elmi üçün əsl dönüş nöqtəsi sayılır. Sovet İttifaqının son illərində başlanan yenidənqurma prosesləri elmi mühitdə müəyyən canlanma yaratdısa da, ittifaqın dağılması ilə 1990-cı illərin əvvəllərində elmimiz ciddi sınaqlarla üzləşdi. Müstəqilliyin ilk illərində ölkədəki siyasi və iqtisadi böhran elmin inkişafını ləngitdi, elmi müəssisələrin maliyyələşməsi kəskin azaldı.

Lakin 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışı ölkədə sabitliyi bərpa etməklə yanaşı, elmin dirçəlişi üçün də şərait yaratdı. Məhz Ümummilli liderin xüsusi diqqət və qayğısı sayəsində AMEA-nın dağılmasının qarşısı alındı, elmi strukturlar qorunub saxlandı. 1990-cı illərin sonu–2000-ci illərin əvvəllərində aparılan islahatlar (akademiyada vəzifələrə seçkilərin şəffaflaşdırılması, alimlərin sosial müdafiəsinin gücləndirilməsi və s.) elmə yeni nəfəs verdi.

**Sosial aspektdə:** Alim nüfuzu yenidən yüksəldi, gənclər arasında elmə maraq canlandı.

**İdeoloji aspektdə:** Azərbaycan elmi ilk dəfə sovet ideoloji buxovlarından tam çıxaraq tədqiqat gündəmini müstəqil milli maraqlara uyğunlaşdırdı: tarix elmində uzun illər tabu sayılan mövzular – Azərbaycan Xalq Cümhuriyyəti dövrü, repressiyalar və s. – araşdırılmağa başlandı, ədəbiyyat və fəlsəfədə milli fikrin inkişaf xətti obyektiv qiymətləndirildi.

**Mədəni aspektdə:** Qarabağ həqiqətlərinin dünyaya çatdırılması, Qərbi Azərbaycandakı tarixi irsimizin tədqiqi kimi mövzular ön plana keçdi; diaspora dair ilk elmi monoqrafiyalar, xaricdə yaşayan azərbaycanlıların irsinə dair araşdırmalar məhz bu dövrdə ortaya çıxdı.

Elmi-strateji baxımdan dördüncü dövr elmimizin ölkənin müstəqilliyinə xidmət etmək üçün səfərbər olduğu bir mərhələ idi – neft strategiyasının elmi əsaslarının işlənməsi, ordu quruculuğunda müasir texnologiyaların tətbiqi, iqtisadiyyatın yeni modelinin hazırlanması kimi istiqamətlərdə azərbaycanlı alimlərin töhfələri bu illərdə özünü göstərməyə başladı. Bu dövrün təcrübəsi göstərdi ki, elmin inkişafı dövlətin inkişafı ilə vəhdət təşkil etdikdə cəmiyyət üçün ən səmərəli nəticələr əldə olunur.

Akademik Telman Əliyevin 19 dekabr 2003-cü il tarixində AZƏRTAC-ın müxbirinə ümummilli lider Heydər Əliyevin vəfatı ilə əlaqədar verdiyi "Prezident Heydər Əliyev ölməz şəxsiyyətdir" müsahibəsində göstərilmişdir: "Ümummilli liderimiz, Prezident Heydər Əliyevlə bağlı mənim çoxlu xatirələrim var. Həmin xatirələrdən danışmaq istəyirəm: 1972-ci ildə möhtərəm Heydər Əliyevin (o vaxt Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi idi) dəvəti ilə SSRİ Elmlər Akademiyasının prezidenti Mstislav Keldış Bakıya gəlmişdi. O zaman respublikamızın elm və iqtisadiyyatı ilə bağlı bir sıra məsələlər var idi ki, onları operativ həll etmək üçün bizə "BESM-6" markalı hesablayıcı maşın lazım idi. Yenicə buraxılan həmin hesablayıcı maşına çox böyük ehtiyacımız olduğunu Mstislav Keldışa bildirəndə, o dedi ki, doğrudan da, bu maşın sizə lazımdır, ancaq həmin məsələni həll etmək çox çətindir. Çünki onu ancaq hərbi hissələrə verirlər.



AMEA-nın binası



Azərbaycan SSR EA-nın prezidenti Musa Əliyev Akademiya şəhərciyinin maketi ilə tanış olarkən

(ardı var)

**Azərbaycan milli mətbuatı – 150**

**Ötən əsrin 70-ci illərində Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində sevimli müəllimimiz Cahangir Məmmədli mühazirələrindən birində demişdi: “Qələminə etibar edib həyat həqiqətlərini oxucuya çatdıranlar xalq tərəfindən sevilir, hörmət sahibi olurlar. Odur ki, gərək elə yaşayasan, elə fəaliyyət göstərəsən ki, özündən sonra yaxşı izlər qoyasan. Tarixi isə saxtalaşdırmaq olmaz!” Milli mətbuatımızın 150 illiyi ərəfəsində bu sətirləri yazarkən demək istəyirəm ki, həqiqətən də, haqqı, ədaləti müdafiə edən jurnalistlərimiz, söz ustadlarımız, fəxr ediləsi qələm sahiblərimiz var! Başqa cür də ola bilməzdi. Axı biz Şirməmməd Hüseynov, Nurəddin Babayev, Tofiq Rüstəmov, Famil Mehdi, Nəriman Zeynalov, Əliş Nəbili, Ceyran Əbdürrəhmanova, Qulu Xəlilov kimi ustad sənətkarlardan dərs almışıq. “Əkinçi” ənənələrinə sadiq qalan milli mətbuatımız bütün dövrlərdə həqiqət carçısı olub, xalqın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində, həmrəyliyin və tolerantlığın, mədəni sahələrinin inkişafında mühüm rol oynayıb.**




# Milli mətbuatın Lənkəran nəşrləri

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilən siyasət nəticəsində ölkə mətbuatı bu gün özünün yeni inkişaf mərhələsinə daxil olub, mətbuat azadlığını məhdudlaşdıran maneələr aradan qaldırılıb. Bu da bir faktdır ki, milli medianın vacib qolu olan yerli mətbuatın tarixi və fəaliyyəti hələ lazımınca öyrənilməyib, ya da mətbuat tariximizdə öz geniş əksini tapmayıb. Yubiley ərəfəsində diqqəti bu məsələyə yönəltməklə Lənkəranın mətbuat tarixinə, yenidən nəzər salmaq istəyirik.

Sovet hakimiyyətinədək ana dilində xüsusi mətbuat orqanının yaradılması Lənkəranın maarifpərvər ziyalılarının da diqqət mərkəzində olub. Araşdırmalar göstərir ki, lənkəranlı ziyalılar hələ bolşevik inqilabınadək Azərbaycanda, Yaxın Şərqdə və digər yerlərdə çap olunan qəzet və jurnallarla əlaqə yaradıb, ictimai həyatın müxtəlif sahələrini əks etdirən yazıları oxuculara çatdırıblar. Maraqlıdır ki, maarifpərvər ziyalı Mirzə Ağəli Əliyev Hindistanın Kəlküttə şəhərində çıxan “Həblül-mətin” (Qırılmaz kəndir), Misirdə nəşr olunan “Cehrənüma”, İranda buraxılan “Nasiri”, Tiflisdə çap edilən “Şərqi-rus”, Bağçasarayda çıxan “Tərcüman” qəzetləri, eləcə də “Molla Nəsrəddin” jurnalı ilə müntəzəm əlaqə saxlayıb.

Azərbaycan nəsrinin istedadlı nümayəndələrindən və rus mətbuatının ilk azərbaycanlı müxbirlərindən olan Məmmədəli Səfiyev Lənkəranın mədəni, sosial həyatı ilə bağlı çoxlu məqalələrin, publisistik yazıların müəllifidir. Xüsusilə, onun “Zaqafqazski vestnik” və “Kafkaz” qəzetlərində Lənkərandan bəhs edən müxtəlif janrda yazıları dərc olunub. Qori Müəllimlər Seminariyasının məzunu Teymurbəy Bayraməlibəyovun etnoqrafik, tarixi və iqtisadi mövzularda 50-dən çox məqaləsi, topladığı əfsanə, nağıl və lətifələri “Kaspi” qəzetində, “Qafqaz tədris dairəsi” məcmuəsində çap edilib.

Nazim Axundovun məlumatına görə, Lənkəranın ilk mətbu orqanı A.Talalayev və İ.Yampolskinin redaktorluğu ilə 1912-ci ildə rus dilində çıxan həftəlik “Rıbnoye delo” qəzetidir. Kiçik formatda olan 4 səhifəli qəzet 1 ildən sonra fəaliyyətini dayandırıb. Neçə nömrəsi çıxması haqqında məlumat yoxdur.

Tədqiqatçı-alim Hacı Mirhaşım Talışlı ilə birgə yazdığımız “Lənkəran. Ensiklopedik məlumat” kitabında qeyd etdiyimiz kimi, Lənkəranda inqilaba qədər “Rəhbər”, “Rıbnoye delo”, “İzvestiya Muqanskoqo İspolnitelnoqo Komiteta”, “Hürriyyət” qəzetləri çap olunub və bunlar Lənkəran qəzasında ictimai-siyasi şüurun inkişafında əhəmiyyətli rol oynayıblar. Hamısının da ömrü az olub, 1 və ya 2 il fəaliyyət göstəribdir.

Lənkəranda Azərbaycan dilində ilk çap edilən qəzet “Lətaif” olub. 1917-ci ildə nəşrə başlayan bu qəzet həftəlik vərəqə idi, “Məharət” qiraətxanasında buraxılırdı. Naşiri Mirzeynalabdin Təbrizi, redaktoru Mirmurtuza Talışinski olub. “Lətaif” 200 tirajla nəşr olunub, cəmi 6 nömrəsi çıxıb.

İnqilabi yüksəliş zamanı – 1919-cu ilin iyun–iyul aylarında Lənkəranda “İzvestiya Muqanskoqo İspolnitelnoqo Komiteta” həftəlik qəzet fəaliyyət göstərib. Neçə nömrəsinin çıxdığı bəlli deyil. Təkcə 3-cü sayı Lənkəran tarix-diyarşünaslıq muzeyində saxlanır.

Ötən əsrin 20-ci illərində mətbuatımız kommunist ideologiyasının təsiri altında fəaliyyət göstərib, beləliklə, Azərbaycan jurnalistikasının yeni dövrü başlanıb. 30-cu illərdə rayonlarda yerli qəzetlərin fəaliyyətə başlaması haqqında qərar qəbul edilib. “Lənkəran” qəzeti 1931-ci il yanvarın 21-də “Qızıl Talış” adı ilə nəşrə başlayıb. 5 dekabr 1931-ci ildən – 64-cü nömrədən “Sıə Toloş” adı ilə Azərbaycan və talış dillərində çap olunub. İqbal Əbilovun məlumatına görə, “Sıə Toloş” qəzeti ilə yanaşı, Lənkəranda “Şura Ozorboyconi” (Sovet Azərbaycanı) və Lənkəran Maşın-Traktor Stansiyası siyasi şöbəsinin orqanı kimi “Tolışi kolxozçi” qəzetləri də buraxılıb və bu qəzetlər sonra “Sıə Toloş”ə birləşdirilib. 22 sentyabr 1938-ci ildən Azərbaycan dilində nəşr edilb. Sonralar “Sosialist subtropikası” (1939–1957), “Leninçi” (1957–1990), “Lənkəran” (1990-cı ildən) adı ilə buraxılıb.

Lənkəran Rayon XDS İcraiyyə Komitəsinin sədri Böyükağa Mirsalayev 1931-ci ildə 4 ay qəzetin ilk redaktoru olub. Çox keçməmiş repressiyaya uğrayıb, onu Əli Razi Şəmsizadə qısa müddətə əvəz edib. Sonrakı illərdə Rəzzaq Kazımov, Əmrəli Mirzəyev, Əbil Fərəcov, Rəcəbəli İsmayılov, Qulam Məmmədov, İman Əliyev, Şükufə Qasımova, Kərim Rzayev, Əliş Nəbili, Əyyub Rzayev, Tofiq Həsənov, Nəcəf Şıxəliyev, Şəkər Aslan, Etibar Əhədov, Həzi Əliyev, İltifat Əhmədov və Əlimərdan Əliyev qəzetin redaktoru işləyiblər.

İndiki “Lənkəran” qəzeti 1962-ci ildə rayonlararası mətbuat orqanına çevrilib, 1965-ci ildə yenidən Lənkəran Rayon Partiya Komitəsi və rayon XDS İcraiyyə Komitəsinin orqanı kimi fəaliyyət göstərib. Azərbaycan KP MK-nın 6 aprel 1965-ci il tarixli büro qərarına əsasən rayonlarda yerli qəzetlərin yenidən nəşrə başlaması haqqında qərar qəbul edilib.

İnqilabdan əvvəl Lənkəranda çapxanalar yaradılmışdı. Belə çapxanalar məhdud imkana malik olsa da, hər halda təməl qoyulmuşdu. 1918-ci ildə rayonun Veravul kəndində qvardiya polkovniki Miri bəy Talışxanovun çapxanasını Şıvkunovun ermənipərəst quldur dəstəsi dağıdıb, şəxsi kitabları yandırılıb, onun özü isə vəhşicəsinə qətlə yetirilib. 1931-ci ildə rayon qəzetinin fəaliyyətə başlaması ilə əlaqədar Lənkəranda mətbəə açılıb və 1995-ci ilədək fəaliyyət göstərib.

“Lənkəran” qəzeti çapının ilk illərində yerli mətbəədə həftədə 1 dəfə iki, 40-cı illərdən sonra həftədə 3 dəfə dörd səhifəlik buraxılıb. Məsul katib işlədiyim 1978–1990-cı illərdə qəzetin tirajı 22 mindən çox olub. 1995-ci ildən isə Bakı mətbəələrində ayda 2 dəfə səkkiz səhifə həcmində nəşr olunur, tirajı 1000 nüsxəyə yaxındır və 2010-cu ildən rəngli buraxılıb.

...1932-ci ildə qonşu Masallı rayonunda baş vermiş bir hadisə bütün respublikaya səs saldı. Həmin il rayonda “Yeni həyat” qəzeti fəaliyyətə başlayanda “Lənkəran”ın əməkdaşı Bəşir Hüseynovu oraya məsul katib vəzifəsinə göndərmişdilər. Oğlu, vaxtilə “Lənkəran” qəzetində redaktor müavini işləmiş Ramiz Hüseynovun məlumatına görə, qəzetin növbəti nömrəsi çıxanda məsul katibi qəflətən DTK rayon şöbəsinə çağırırlar. Sən demə, qəzetin rubrikasını kimsə dəyişdirib, şüar “Yaşasın sosializm!” əvəzinə “Yaşamasın sosializm!” kimi gedibmiş. Yaxşı ki, məsul katib əvvəlcədən ehtiyatlı tərpənərək qəzetin redaktoru və məsul növbətçi ilə birgə imzalamış olduğu nüsxəni saxlayıbmış. Həmin nüsxə DTK-ya təqdim edildikdən sonra Bəşir Hüseynov bəraət alır. Amma sonra onu və qəzetin redaktoru Məmmədağa Sultanovu işdən kənarlaşdırırlar.

Yadımdadır, Lənkəran Xalq cəbhəsinin fəalları Qarabağ hadisələrinə etiraz əlaməti olaraq, 1990-cı il yanvarın 11-də yerli hakimiyyət orqanlarının, bir gün sonra isə Lənkəranda çıxan “Leninçi” qəzetinin fəaliyyətini dayandırdılar. Əvəzində cəbhəçilər Xalq Cəbhəsi Milli Müdafiə Komitəsinin orqanı kimi “Elin səsi” bülletenini buraxdılar. “Elin səsi”nin ilk sayı 12 yanvar 1990-cı ildə Lənkəran mətbəəsində, 99 nüsxə ilə bir səhifəlik həcmdə buraxıldı. Bülletenin ilk sayında DQMV-də baş verən hadisələrlə əlaqədar respublika əhalisinə və Lənkəran kommunistlərinə müraciətlər, həmçinin Lənkəran olayları əksini tapmışdı. Bundan sonra qəzetin 4 səhifəlik daha 4 nömrəsi buraxıldı, burada baş verən 26 yanvar hadisələrindən sonra isə nəşri bir müddət dayandı. 1994-cü ildən sonra qəzetin daha bir neçə nömrəsi çıxdı.

Müstəqillik illərinin ilk dövründən yadigar qalmış və müxtəlif adlarla çap olunmuş qəzetlər, jurnallar, bülletenlər bu gün Lənkəran mətbuat tarixində yer tutur. “Şəm” bülleteni 1990–1991-ci illərdə çap olunub. Bülletendə yerli şairlərin yaradıcılığı öz əksini tapıb. “Çeşmə” satirik qəzeti 1990-cı il aprelin 1-dən, 4 səhifə həcmində Bakıda çıxırdı. Dövrün ictimai-siyasi hadisələrini əks etdirən qəzet oxucuların diqqətini çəkirdi.

“Lənkəranın səsi” qəzeti bu sətirlərin müəllifliyinin təsisçiliyi və redaktorluğu ilə çap olunurdu. Qəzet demokratik xarakter daşıyır, səhifələrində sosial-iqtisadi, mədəni-quruculuq, əhalinin həyat tərzi haqqında materiallar verilirdi. Cəmi 7 sayı çıxıb.

O dövrün yerli qəzetlərindən “Ailə”, “Prizma”, “Veteran yolu”, “Bizim təbib” “İstisu” nun adlarını çəkmək olar. Lənkəran Dövlət Universitetinin (LDU) qəzeti də əvvəl “Tələbə”, sonra “LDU-press” adı ilə fəaliyyət göstərib. Qəzet 2007-ci il sentyabrın 15-də “Lənkəran Dövlət Universiteti” adı ilə orada mətbuat xidmətinin rəhbəri olduğum dövrdə mənim redaktorluğumla yeni formatda nəşr edilib. 2008-ci ildə fəaliyyəti dayandırılıb. 2000-ci ildən “Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri” jurnalı humanitar, riyaziyyat və təbiyyat elmləri üzrə seriyalarla nəşr olunur.

Lənkəranda qəzetlərlə yanaşı, ədəbi-bədii jurnallar da fəaliyyət göstərib.

“Şəfəq” Yazıçılar Birliyi Lənkəran bölməsinin təşəbbüsü ilə çıxıb. İlk redaktoru yazıçı, Əməkdar mədəniyyət işçisi Məmmədhüseyn Əliyev, sonra redaktoru İltifat Saleh və Qafar Cəfərli olub. 1993-cü ildən “Söz”, 1998-ci ildən “Məşəl”, 2012-ci ildən “Yaşıl çay” jurnalları da nəşr olunub.

Baş redaktoru olduğum “Aşkarlıq” qəzetinin ilk sayının işıq üzü görməsindən 30 il keçir. “Aşkarlıq” respublikamızın cənub bölgəsində ilk müstəqil qəzetlərdən biri olmaqla, 1995-ci il avqustun 23-dən fəaliyyət göstərir. Dövlətçilik, milli ideologiya zəminində buraxılır. Fəaliyyəti bu gün də davam edir.

Qəzetimizin ictimai-siyasi mövqeyi aydındır: oxucuya düzgün yol göstərmək, baş verənləri, ölkəmizdə qazanılan uğurları olduğu kimi, heç bir təhrifə yol vermədən ictimaiyyətə çatdırmaq. Deyə bilərəm ki, banisi görkəmli maarifçi və publisist Həsən bəy Zərdabi olan “Əkinçi”nin, naşiri dahi söz ustası Cəlil Məmmədquluzadə olan “Molla Nəsrəddin”in ənənələrinə sadiq qalan “Aşkarlıq” 30 illik fəaliyyəti dövründə Lənkəranın yazılı salnaməsini yaradıb.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadə deyirdi: “Dünyada hər bir kəs üçün sözdən böyük yadigar yoxdur. Zira ki, mal-mülk tələf olur-gedir, amma söz qalır”. Lənkəranda fəaliyyət göstərən və haqqında söhbət açdığımız mətbu orqanlar da millətin görən gözü, döyünən qəlbidir – yaddaşlarda, xatirələrdə dərin izlər buraxıb.

***Hacı Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan***
***“Aşkarlıq” qəzetinin baş redaktoru***

**Azad Nəbiyev – 80**

# Bayatı, nağıl, dastan karvanının sarvanı

**Milli folklorşünaslığımızın tanınmış nümayəndəsi, Bakı Dövlət Universiteti Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, AMEA-nın müxbir üzvü olmuş professor Azad Nəbiyev ehtiramla xatırlanan böyük alim və ziyalılardandır.**



...Universitetin jurnalistika fakültəsinin 1-ci kursunda oxuyurduq. Qrupumuza “Xalq yaradıcılığı”nı tədris edən Azad müəllim bir-iki dərsdən sonra hamımızın sevimlisi olmuşdu. Onun tapşırığı ilə bölgələrimizin ağız ədəbiyyatı nümunələrini həvəslə toplayıb gətirirdik. Hər birimiz Azad müəllimin təqdirini qazanmağa çalışırdıq. Çünki o vaxtadək rastına çıxmayan bir atalar sözü, məsəl və ya bayatı eşidəndə qəlbən sevinir, kurs işimizə “əla” yazır, tapıntılarımızı Azərbaycan radiosunun “Bulaq” verilişində səsləndirəcəyini deyirdi. Mənim topladığım bayatıların da arasından “mirvari”lər çıxmışdı. Birini indi də xatırlayıram:

*Bu ki pi –u lu ki pi ,*
*Hq q rulu ki pi .*
*Qədəm basım köksünə,*
*Yu uq t yb u, ki pi .*

Onun doğulub boya-başa çatdığı Quba tarixən bölgənin təfəkkür mərkəzi kimi tanınıb, özünün görkəmli şəxsiyyətləri, elm xadimləri ilə fəxr edib. Azad Nəbiyev də filoloq həmkarları – Elmlər Akademiyasının müxbir üzvü, SSRİ dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Əliheydər Orucov, professorlar Vaqif Arzumanlı, Nizaməddin Şəmsizadə, Şahin Fazil, Maqsud Hacıyev kimi bu gözəl diyarın tanınmış ziyalılarından idi.

Azad Mövlud oğlu lap kiçik yaşlarından bayatı, nağıl və dastanlara maraq göstərib. Özündən 80 il əvvəl doğma yurdu Qubada dünyaya göz açmış, Azərbaycanın ilk dramaturq qadını, dərslərində adını çəkdiyi Səkinəxanım Axundzadənin milli folklorumuz əsasında yazdığı “Əbülfəz və Rəna” hekayəsi də, güman ki, onun həyatını bu sahəyə həsr etməsinə vəsilə olub. Ciddi-cəhdlə kəndləri, obaları gəzərək xalq yaradıcılığı örnəklərini toplayıb, dərc etdirib. Şeir, hekayə, oçerk və məqalələr yazdıqca püxtələşib. Bakı Dövlət Universitetinin filologiya fakültəsini jurnalist ixtisası üzrə fərqlənmə ilə bitirib (Hələ tələbə ikən “Koroğlu” dastanının yeni bir qolunu universitetin “Elmi əsərləri”ndə dərc etdirmişdi). Sonra müəllimlik, redaktorluq edib, folklor axtarışlarından bir gün də qalmayıb. “Koroğlu” dastanı mövzusunda namizədlik dissertasiyası müdafiə edəndə onun 27, “Azərbaycan–özbək folklorunun tipologiyası və qarşılıqlı əlaqəsi” mövzusunda doktorluq dissertasiyası müdafiə edəndə isə 36 yaşı vardı. Azad Nəbiyev “Kitabi Dədə Qorqud”un Drezden nüsxəsinin mətnini sadələşdirərək nəşr etdirib. “Azərbaycan dastanları”, “Nəğmələr, inanclar, alqışlar, adətlər”, “Koroğlu” dastanının versiyaları”, “İlaxır çərşənbələr”, “El nəğmələri, xalq oyunları”, “Azərbaycan uşaq folkloru” kimi kitabları yazıb. İrihəcmli “Azərbaycan xalq ədəbiyyatı (iki kitab) dərslikləri, İtalyan (“Bertoltonun sərgüzəştləri”) və özbək (“Tülkü və qurd”) xalq nağıllarının tərcüməsi də ona aiddir. Ümumiyyətlə, Azad Nəbiyevin elmi bioqrafiyasında qeyd olunmalı mühüm faktlar yetərli qədərdir.

Azad Nəbiyev məzunu olduğu filologiya fakültəsində müəllim, baş müəllim, professor vəzifələrində çalışıb. Şifahi xalq ədəbiyyatı kafedrasına uzun müddət rəhbərlik edib. BDU-nun nəşr etdiyi “Folklorşünaslıq məsələləri” jurnalının baş redaktoru olub. Sayı 200-ü ötən elmi əsərin, o cümlədən folklorumuzun ayrı-ayrı sahələrinə aid 40-dan artıq monoqrafiyanın müəllifidir. Onun 15-dən artıq toplama və tərtib kitabı folklorşünaslar üçün mühüm qaynaqlardan sayılır. Uzun müddət AMEA Humanitar və İctimai Elmlər Bölməsi Bürosunun və Folklor İnstitutu Elmi Şurasının üzvü, “Folklorşünaslıq” ixtisası üzrə Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasına sədrlik edib. O həm də son nəfəsinə qədər Beynəlxalq Əlillər Federasiyası idarə heyətinin üzvü olub. Görkəmli alim 2000-ci ildə Əməkdar müəllim fəxri adını alıb.

...Həmkarı Etibar Talıblının dediyinə görə, 2012-ci il fevralın 13-də öz rəhbərliyi ilə yenicə çapdan çıxmış sonuncu kitabın – “Azərbaycanda Novruz”un sevincini isti-isti kafedranın müəllimləri ilə bölüşmüşdü. Qarşıdakı planlarından, layihələrindən söz açmışdı. Amma cəmi bir neçə saat sonra 67 yaşlı folklor fədaisi fani dünyaya əlvida deyib getdi.

Qeyd edək ki, Azad müəllimin ömürgün dostu Narıngül xanım və qızı Ülkər Nəbiyeva da filoloqdurlar. Görkəmli alimin ömrü boyu məhsuldar çalışmasının bir səbəbi də elə bu amil olub. Bu gün yubiley mövludu – 80 yaşı ailəsi və dostları çərçivəsində qeyd edilən Azad Mövlud oğlu cismən bizdən ayrı olsa da, ruhən yanımızdadır, həzin xatirələrimizdə yaşayır. Xatirələr isə daha uzunömürlüdür.

***Əli NƏCƏFXANLI***
***XQ***

**Təqdimat**

# “Doğma torpaq” ekranda

## *Azad Qarabağda çəkilən ilk film*

**Nizami Kino Mərkəzində 44 günlük Vətən müharibəsindən sonra azad olunmuş ərazilərdə çəkilmiş ilk tammetrajlı bədii film olan “Doğma torpaq”ın premyerası olub.**



Filmin istehsalı Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kino Agentliyi və “Narimanfilm” kinostudiyasına aiddir. Ekran əsərinin ərsəyə gəlməsində “PASHA Holding”, “United Alliance group”, “Gazelli Group”, “AzMade Group”, CMS, “Azersun Holding” şirkətləri, “Caspian Energy Club” və İTV iştirak edib.

Nümayişdən əvvəl məlumat verilib ki, quruluşçu rejissoru və ssenari müəllifi İlqar Safat, prodüseri isə Nəriman Məmmədov olan “Doğma torpaq”da Azərbaycanın yaxın tarixinin üç önəmli mərhələsi işıqlandırılır. Bunlar soydaşlarımızın dədə-baba yurdları olan Qərbi Azərbaycandan qovulması, I Qarabağ müharibəsi, xüsusən Xocalı soyqırımı və 44 günlük Vətən müharibəsində Ordumuzun şanlı Qələbəsidir.

Ekran əsərinin süjet xəttinə görə hadisələr 1992-ci ildə cərəyan edir. Müstəqil Azərbaycan Qarabağda erməni separatçılarına qarşı mübarizə aparır. Jurnalist Miranda Qafqaz bəbiri haqqında sənədli film çəkmək üçün Londondan Azərbaycana gəlir. Tale onu kəşfiyyatçı Emillə bir araya gətirir. Onlar birlikdə çətin sınaqlardan keçirlər, bu zaman Miranda Qafqaz bəbiri və Azərbaycanın müasir tarixinin faciəli səhifələri haqqında çox şey öyrənir.

“Doğma torpaq” bədii filminin quruluşçu operatoru Konstantin Esadze, bəstəkarı Araz Hümbətli, səs rejissoru İvan Qusakovdur. Əsas rolları Rüstəm Cəbrayılov və Alina Vorontsova (Rusiya) canlandırırlar. Xalq artistləri Hacı İsmayılov və Məbud Məhərrəmov, aktyorlar Azər Aydəmir, Qorqud Cəfərli, Rəşad Səfərov, Eldar Bağırbəyov, Əjdər Zeynalov, Yaroslav Trifonov, Əminə Abbasova və başqaları da filmdə çəkiliblər.

***XQ***

Yeni dünyanın kodları

**Dünyanın dörd bir tərəfində elmi mərkəzlər, texnoloji nəhənglər və etik komitələr eyni sualın ətrafında fırlanır: Süni intellekt (Sİ) nədir və onun inkişafı bizi hara aparır? Artıq bu texnologiya yalnız informasiya emal edən bir alət deyil. O, qərar verir, öyrənir, məsləhət verir, hətta bəzən bizə oxşar şəkildə düşünür. Amma bir sual açıq qalır: Süni intellekt zəkadırmı? Bunun üçün əvvəlcə zəkaya baxmalıyıq. Zəka nədir? Yalnız verilənləri emal etmək bacarığı? Yoxsa qavrama, empatiya, estetik duyum, intuitiv düşüncə ilə həyatın içində "yaradıcı varlığa" çevrilmək?**

# ZƏKA NƏDİR?

## *İnsan beyni və süni intellektin yaradıcı fərqi*




İnsan beyni bioloji bir fenomen olduğu qədər də mədəni bir məkandır. İnsan yalnız öyrənmir, eyni zamanda, duyur, hiss edir, xatırlayır, təsəvvür edir. Onun zəka anlayışı nəinki analitik, riyazi və verbal bacarıqlarla, həm də metaforik düşüncə, yaradıcılıq, musiqi duyumu və emosional reaksiyalarla formalaşır.

Süni intellekt isə, hər şeydən əvvəl, riyazi kodlar üzərində işləyən modeldir. Onun hafizəsi "xatırlamaq" deyil, "saxlamaq"dır. Onun danışığı "anlamaq" deyil, "nümunədən təqlid"dir. O, bir cümləni tamamladıqda bizə bənzədiyi üçün ağıllı görünür, amma arxasında şüur yoxdur.

Burada böyük filosofların və neyrobioloqların müzakirəsinə qayıdırıq: Şüurla zəka eyni qavrayışlardımı? Əgər şüur yoxdursa, zəkanın dəyəri varmı? Süni intellekt hansısa prosesin içində yaradıcı ola bilərmi, ya sadəcə, yaradıcı davranışı təqlid edirmi?

Məsələn, Sİ bir musiqi bəstələyə bilər. Onun yaratdığı kompozisiya texniki baxımdan mükəmməl ola bilər. Amma bu kompozisiyanın içindəki kədər, bir insanın yaşadığı ayrılıqdan doğan melodik sarsıntı yoxdur. Çünki o, heç vaxt sevməyib. Əgər musiqi bir həyat təcrübəsinin melodiyasıdırsa, Sİ-nin yaratdığı, sadəcə, səsin düzümüdür.

Həmçinin, Sİ bir poema yaza bilər. İntonasiyaları yerində, bənzətmələri parlaq, metaforaları zəngin. Amma bu şeirdə "vicdan" yoxdur. "Bağışlama" yoxdur. Çünki onu yazan varlıq heç vaxt xəta etməyib, üzr istəməyib, günahın ağırlığını hiss etməyib.

Bu fərq haradadır? Empatiya və təcrübə dediyimiz sahədə.

İnsan beyni uşaqlıqdan qocalığa qədər sonsuz sayda hiss, hadisə, sosial qarşılıqlı münasibətlə formalaşır. İnsan yaddaşı yalnız informasiya yığımı deyil, həm də duyğuların qat-qat yığıldığı yaddaşdır. Və insanın zəka fəaliyyəti bu zəngin təcrübə fonunda baş verir.

Süni intellektin isə təcrübəsi yoxdur. Onun yaddaşı kontekstdir, amma təfsir deyil. Onun reaksiyası sürətlidir, amma niyyət yoxdur. O, nəticə çıxarır, amma peşman olmur. O, məsuliyyət daşımır.

Bu fərq etik dilemmalara da təsir edir. Əgər qərar qəbul edən texnologiya insan kimi düşünmürsə, onun verdiyi qərarın məsuliyyəti kimə məxsusdur? Süni intellektlə idarə olunan avtomobil qəza törədərsə, günahkardırmı? Əgər onun yaratdığı səhv bir diaqnozla insan həyatını təhlükəyə atarsa, məsuliyyət kimindir – proqramçınınmı, istifadəçininmi, yoxsa sistemin özünün?

Sual artır: Süni intellekt yaradıcılıq sərgiləyəndə – məsələn, rəsmlər, musiqilər, romanlar yazanda – bu yaradıcılıq kimə aiddir? Mülkiyyət kimindir? Mənbə haradır? Bizim dünyamızda müəlliflik ideyası insan təcrübəsinə əsaslanır – yaşananın ifadəsinə. Bəs yaşanmayan bir hissin ifadəsi müəlliflik sayıla bilərmi?

Texnoloji tərəqqi, əlbəttə, dayanmamalıdır. Süni intellektin səhiyyədə, təhsildə, elmdə verdiyi töhfələr danılmazdır. Amma biz bu inkişafın içində insanı unutmamalıyıq. Daha doğrusu – insanlığın özünü, öz ölçülərini.

Unutmayaq ki, Sİ insan beyninin yaratdığı ən mürəkkəb texnologiyadır. Amma onu yaradan beynin özündə hələ açılmamış qapılar, dərk olunmamış sirlər qalır. Sİ bu sirri təqlid edə bilər, amma yaşaya bilməz.

Ona görə də biz bu yeni dünyanın kodlarını anlamağa çalışarkən, bir şeyi unutmamalıyıq: Texnologiyanın zirvəsi bizə bənzəyəndə deyil, bizə xidmət edəndə dəyərlidir. Və süni intellektin sınağı ondadır ki, o, bizi əvəz etməyə yox, bizi tamamlamaya gəlsin.

İnsan beyni hələ ki, təkrarolunmaz bir möcüzədir. Onun hissləri, instinktləri, qorxuları və arzuları ilə birlikdə. Süni intellekt isə bu möcüzənin aynadakı əksi kimidir – tanış, amma ruhsuz.

Əgər insanlıq bu aynaya aludə olub öz surətini itirərsə, o zaman süni intellektin gələcəyi təhlükə deyil, boşluq olar. Və bu boşluğu heç bir kod doldura bilməz.

***Oğuz ARİF***

Əbədiyyət yolçuları



# Samux: 33 il gecikmiş şəhidin dəfn mərasimi

**Birinci Qarabağ müharibəsində şəhidlik zirvəsinə ucalan Mehdiyev Münasib Namaz oğlu Samuxda dəfn edilib.**

33 il əvvəl Ağdərə uğrunda gedən döyüşlərdə itkin düşən şəhid Mehdiyev Münasib Namaz oğlunun nəşinin qalıqları doğulduğu Qovlarsarı kəndinə gətirilib. Şəhidlə vida mərasimi keçirilib. Daha sonra şəhidin nəşi kənd qəbristanlığında torpağa tapşırılıb.

Dəfn mərasimində Samux Rayon İcra Hakimiyyətinin başçısı Firdovsi Əliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Firdovsi Əliyev şəhidimizin ailə üzvlərinə bir daha başsağlığı verib. Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin göstərdiyi rəşadətdən danışıb. Qazanılan tarixi qələbə ilə şəhidlərimizin qanının yerdə qalmadığını vurğulayıb.

Mərasimdə şəhidimizin tabutu üzərindəki Azərbaycan Respublikasının üçrəngli bayrağı onun ailəsinə təqdim edilib.

Qeyd edək ki, şəhid Mehdiyev Münasib Namaz oğlu 1973-cü il avqustun 23-də Samux rayonunun Qovlarsarı kəndində anadan olub. 1982-ci ildə Samux rayon Qovlarsarı kənd tam orta məktəbinin 1-ci sinifinə gedib. 1988-ci ildə Gəncədəki peşə məktəbində təhsil alıb. 1992-ci ildə "N" saylı hərbi hissədə həqiqi hərbi xidmət göstərib.

Münasib Mehdiyev 1992-ci il iyulun 19-da Ağdərə rayonunun Aterk kəndində gedən döyüşlərdə həlak olmuş və itkin düşmüşdü. 2025-ci ilin aprel ayında şəhidin meyiti DNT analizi edilərək aşkar edilib. Subay olub. Allah rəhmət eləsin.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Samux rayonu**

BİZİM ŞƏRH

# Dünya yeni hüquqi nizama məhkumdur

**Planetimiz bu gün ağır siyasi, hüquqi və hərbi böhran yaşayır. Avropanın şərqində 3 il əvvəl Rusiyanın Ukraynaya hərbi müdaxiləsi ilə başlayan və hələ də davam edən, hətta günbəgün şiddətlənən müharibəni heç cür dayandırmaq olmur. Ağ evin yeni sahibinin bu istiqamətdə gərgin səyləri də real nəticələrə gətirib çıxarmır. Dünyanın gözü önündə hər gün bu mənasız savaşda yüzlərlə, bəzən minlərlə insan həlak olur, böyük-kiçik şəhərlər, kəndlər dağıdılır, ailələr yurd-yuvalarını tərk etməyə vadar olur.**



Rusiya-Ukrayna savaşı miqyasına görə, İkinci Dünya müharibəsindən sonra planetimizdə ən ağır silahlı münaqişədir. Bundan başqa, dünyanın bir çox regionlarında vəkalət müharibələrinin alovunu heç cür söndürmək olmur. Üstəlik, yeni münaqişə ocaqları körüklənir. Bir çox analitiklər hətta nüvə silahının lokal istifadəsindən söz açırlar. Bu fikri bəzən elə soyuqqanlı şəkildə dilə gətirirlər ki, insanın damarlarında qanı donur.

Görünən budur ki, dünya ağır xaosa sürüklənib. Müharibə və münaqişələrin yeni nizamlama mexanizmini aramaq cəhdləri hələlik uğursuzluğa düçar olur. Bununla belə, ara-sıra Ukraynada mümkün atəşkəslə bağlı ümid işartıları da görünür. Ekspertlər hesab edirlər ki, Ukrayna böhranını hansısa yolla çözmək mümkün olarsa, bu, digər anoloji münaqişələrin həll edilməsi üçün presedent ola bilər.

Amma, bu presedentin dünya üçün ədalətli örnək ola biləcəyi şübhə altındadır. Beynəlxalq hüququn gözardı edilməsi ağır təhlükələr yaradır. Amma, bu, acı reallıqdır. Bu il yaranmasının 80 ili tamam olacaq BMT öz funksionallığını itirib. Onun müvafiq icra və nəzarət strukturları işləmir. İşləsəydi, Ukraynada və Yaxın Şərqdə bu qədər ağır böhran və zorakılıqlar baş verməzdi. Təhlükəsizlik Şurasının 5 daimi üzvü son illər ərzində nəinki ədalətli qərarlar qəbul edə bilmir, hətta bir-biri ilə yola getmirlər. Böyük güclərin təzyiq və təhdidlərinə məruz qalan nisbətən kiçik dövlətlərin və xalqların hüquqları pozulmaqda davam edir, amma haqları əllərindən alınanların üz tutmağa bir yerləri qalmayıb.

Dünyanın ən güclü dövləti, şübhəsiz, hələ də ABŞ olaraq alır. Bu ölkənin müdafiə xərcləri indi 1 trillyon dollara çatır. Təsəvvür edin ki, siyahıda sonrakı 10 ölkənin ümumi hərbi xərcləri Pentaqonun hazırkı büdcəsi qədərdir. Lakin bu ölkələr sürətlə silahlanırlar və yaxın gələcəkdə Vaşinqtona asi olacaqları istisna olunmur. "Qlobal Cənub"a daxil olan bir çox dövlətlər Vaşinqtonun diqtəsini artıq qəbul etmək istəmirlər.

Dünyada şıdırğı silah alveri gedir. Məlumdur ki, silah satışı ən böyük gəlir mənbələrindən biri olaraq qalmaqdadır. Əslində, ən böyük super güc olaraq ABŞ-ın qüdrəti, ilk növbədə hərbi gücündədir. Bu gün Birləşmiş Ştatların mükəmməl silahları olmasaydı, dollar dərhal dəyərdən düşərdi. Para dünyanı idarə etmək üçün sınanmış vasitədir. Lakin arxasında hərbi qüdrəti olmayan milli valyuta adi kağız parçasıdır. Bu, bir danılmaz həqiqətdir ki, ABŞ dolları öz mövqeyini, ilk növbədə Pentaqonun möhtəşəm gücü sayəsində qoruyub saxlaya bilir.

Zaman öyrədir ki, dünyada əbədi heç nə yoxdur. Tarixdə bu vaxtadək çox sayda imperiyalar yaranıb, güclənibləр, bir müddət sonra tarix səhnəsindən qeyb olublar. Dünyada siyasi və hərbi rəqabət müstəvisində yeni aktorların üzə çıxması normal haldır. Artıq neçə illərdir ki, Çin Xalq Respublikası Birləşmiş Ştatları ötüb keçməyə çalışır. Hesablanıb ki, 2035-ci ilədək Vaşinqton Pekinin sürətli yüksəlişini dayandıra, ən azı yavaşıda bilməzsə, o halda şəriksiz lider kimi mövqeyini itirəcək.

Bəli, dünya yeni siyasi, hüquqi nizam axtarışındadır və artıq geriyə yol yoxdur. Son illər dünyanın perspektivli supergüclərindən biri Avropa İttifaqı (Aİ) sayılırdı. İndi onun təhlükəsizlik problemi üzə çıxıb. Belə ki, Aİ-ABŞ tandemi özünü doğrultmadı. Bir çox Avropa dövlətlərinin öz aralarında da ziddiyyətlər güclənir. Onların bir hissəsi ABŞ-a, digər qismi isə Avrasiya məkanına doğru boylanır. Bu yandan da "Köhnə qitə"də qatı millətçilik meyilləri sürətlənir. Qloballaşmaçıların təşviq etdikləri azad insan, demokratiya, liberalizm dəyərləri hazırda Qərbin özündə köhnə dəbli komediya kimi gülünc səslənir.

ABŞ Prezidenti Donald Trampın liderliyi ilə qlobalçı siyasətdən proteksiaonist siyasətə qayıdır. Əslində, Vaşinqtonun başqa çıxış yolu da yoxdur. Ağ evin yeni rəhbərinin məqsədi Amerikanın yenidən nəhəng sənaye istehsalı dövlətinə çevirməkdir. İqtisadçılar bunu min dəfə sınaqdan keçiriblər. Arxasında real əmtəə dayanmayan milli valyutalar gec-tez dəyərdən düşməyə məhkumdur. Birləşmiş Ştatlar belə bir təhlükə ilə üzləşə bilər. Ağ ev administrasiyası belə bir arzuolunmaz ssenarini önləmək istəyir. Axı, bazar iqtisadiyyatının qanunları ilə hesablaşmaq lazımdır.

Çağdaş ABŞ iri biznes üçün cəlbedici olmazsa, Çinlə, eləcə də digər rəqiblərlə iqtisadi yarışda uduza bilər. Prezident Trampın gömrük rüsumlarını yüksəltməkdə niyyəti məhz daxili bazarı qorumaq, ölkədən sərmayə axınının qarşısını almaqdır. Amerika hazırda ən zəngin və cəlbedici istehlak bazarlarına malikdir. Ola bilər ki, ölkə yaxın gələcəkdə bahalaşma və digər problemlərə üzləşə bilər, amma strateji planda, böyük sərmayələri daxili bazara cəlb etmək inkişafın ən doğru yoludur.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Avropanın Ukrayna canfəşanlığı

**"The New York Times" (NYT) qəzeti ABŞ Konqresindəki Kiyev tərəfdarlarına istinadən yazır ki, Ağ evdə Ukraynaya növbəti hərbi yardım paketi ilə bağlı ciddi müzakirələr "faktiki olaraq aparılmır". Qəzetin yazdığına görə, avropalı rəsmilər də ABŞ-dan Ukraynaya kəşfiyyat məlumatlarını ötürməyə davam edəcəklərinə dair zəmanət almayıblar. Bütün bunların da fonunda Ukrayna və onun müttəfiqləri ABŞ-ın yardımının mümkün kəsilməsinə hazırlaşmağa başlayıblar.**





Bu günlərdə ABŞ prezidenti Donald Tramp bildirib ki, münaqişənin həlli üzrə danışıqlar nəticə verməsə, Kiyevə hərbi tədarükləri dayandıra bilər. Dövlət Departamenti də təsdiqləyib ki, tərəflərdən biri və ya hər ikisi əməkdaşlıqdan imtina edərsə, Vaşinqton münaqişənin həlli istiqamətində səylərə rəhbərlik etmək niyyətində deyil. "The Economist" qəzeti də yazıb ki, prezident Trampın köməkçiləri Avropanın Ukraynanı gücləndirmək cəhdlərindən "boğaza yığılıblar". Ancaq "Qoca qitə"də tam fərqli mövqe sərgiləyirlər. Məsələn, Avropa diplomatiyasının rəhbəri Kaja Kallas 2025-ci ildə Avropa İttifaqının Ukraynaya daha çox hərbi yardım göstərəcəyini bildirib.

Ümumiyyətlə, ABŞ-ın dəstəyinin azalması ilə bağlı narahatlıqlar fonunda, Ukrayna Rusiya ilə qarşıdurmasında əsas silahın - artilleriyanın istehsalını artırır. "The Washington Post" (WP) yazır ki, müharibənin gələcəyi getdikcə qeyri-müəyyənləşdikcə, avropalı müttəfiqlər Ukrayna istehsalı olan artilleriyaya, xüsusən Rusiya ilə müharibə zamanı istehsalı kəskin şəkildə artmış "Boqdana" özüyeriyən haubitsalarına daha çox sərmayə yatırırlar. Avropalı məmurlardan biri qəzetə deyib ki, daha çox ölkə Ukraynanın müdafiə sənayesinə silah tədarük etmək əvəzinə pul verməyi düşünür, çünki Avropanın öz ehtiyatları Kiyevə silah tədarükündən sonra sürətlə tükənir.

Məmurun sözlərinə görə, bu strategiya həm də NATO ölkələrinə Ukraynadan silahların istehsalı üçün sınaq meydançası kimi istifadə etməyə də imkan verir. Avropa rəsmisi əlavə edib ki, "Bu, uduşsuz vəziyyətdir, Avropaya daha ucuz başa gəlir. Kiyevə istehsal lazımdır. Ukraynalılar da bizimlə təcrübələrini bölüşürlər".

WP qeyd edir ki, cəbhə xəttində pilotsuz təyyarələrin sayının artmasına baxmayaraq, artilleriya münaqişənin əsas hissəsi olaraq qalır. Pilotsuz təyyarələrlə müqayisədə artilleriya səngər əməliyyatlarını daha effektiv şəkildə yatıra, hücumları dayandıra və rəqibləri məhv edə bilər.

Ukrayna Müdafiə Nazirliyinin Müdafiə təchizatları agentliyinin direktoru Arsen Jumadilov qeyd edib ki, Ukrayna Rusiyanın 2022-ci ildə hücumundan sonra NATO sdandartlarına uyğun silahların istehsalı sahəsində "böyük irəliləyiş" əldə edib. Onun sözlərinə görə, "Boqdana" üçün lazım olan hissələrin 85 faizindən çoxu Ukraynada istehsal olunur və ilin sonuna qədər bu rəqəm 95 faizə yüksəlməlidir: "Hazırda Ukraynada özüyeriyən silahlar Avropada analoqu olmayan həcmdə istehsal olunur".

Mütəxəssislər bildirirlər ki, Ukrayna silah istehsalında irəliləyiş əldə etməklə yanaşı, əsgər çatışmazlığı problemini də həll etməyə çalışır. "Forbes" yazır ki, Ukrayna daimi piyada çatışmazlığını kompensasiya etmək üçün yerüstü robot sistemlərinin istifadəsini artırır. Mart ayında Ukrayna rəsmiləri bildirmişdilər ki, 2025-ci ildə cəbhə xəttində 15 min yerüstü robot yerləşdirmək planlaşdırılır. Vaşinqtondakı Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin əməkdaşı Yekaterina Bondarın sözlərinə görə, heç kimə sirr deyil ki, Ukrayna kəskin hərbi qulluqçu çatışmazlığı ilə üzləşir. Buna görə də, robotların tətbiqi bu problemin həllinə az da olsa, təsir göstərir.

Bundan başqa, Ukrayna dron istehsalını sürətlə artırmaqda əla nəticələr göstərib. Amma yerüstü dronlarla bağlı vəziyyət bir qədər mürəkkəbdir. Belə ki, Ukrayna Müdafiə Nazirliyi 50-yə yaxın yerüstü robotun istifadəsinə icazə verib, lakin reallıqda onlardan yalnız 10-15 ədədi sistemli şəkildə cəbhədə istifadə olunur. Bu, praktiklik problemləri ilə bağlıdır, çünki robotların tətbiqi ilə bağlı yaranmış vəziyyət kiçik FPV dronları ilə müqayisədə daha mürəkkəbdir. Bondarın sözlərinə görə, əgər robot yanacaqla işləyirsə, onu da daşımaq lazımdır, əgər batareyalarla işləyirsə, onlar böyük və ağır olacaq və generatorların doldurulmasını tələb edəcək".

Döyüş meydanının mürəkkəb relyefi də problem olaraq qalır. Robotlar qar və palçıqda ilişib qalırlar. Bununla yanaşı, sadə avtomatlaşdırılmış sistemlər artıq müdafiədə yaxşı nəticələr göstərir. Bütün bu addımlar onu göstərir ki, Ukrayna və Avropa ABŞ-ın mümkün geri çəkilməsini nəzərdən qaçırmırlar və cəbhədə vəziyyətin kritik həddə çatmasına imkan verməmək üçün hərbi sahəyə sərmayələr yatırırlar.

***S.ELAY***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 78 (30772) 20 aprel 2025-ci il, bazar

## İdman

### Xankəndidə "Ədalətli idman həftəsi"



**Gənclər və İdman Nazirliyi, Azərbaycan Atletika Federasiyası və "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin birgə təşkil etdiyi Qəbələ–Xankəndi ultramarafonunun sonuncu mərhələsi olan Ağdam–Xankəndi hissəsinin finiş xəttində yerləşən əyləncə zonasında Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) tərəfindən antidopinq maarifləndirmə proqramı həyata keçirilib.**

AMADA-nın elan etdiyi "Ədalətli idman həftəsi" çərçivəsində keçirilən proqramda Agentliyin əməkdaşları marafon iştirakçılarına və Xankəndi sakinlərinə dopinqin zərərləri və antidopinq qaydaları barədə ətraflı məlumat veriblər.

Antidopinq maarifləndirmə proqramının əsas məqsədi idmançılar, azarkeşlər və idman ictimaiyyətinin nümayəndələri arasında dopinqə qarşı mübarizəni gücləndirmək, onların dopinqin zərərləri və idmanda ədalət prinsipləri haqqında biliklərini artırmaq olub. Həmçinin onlar antidopinq qayda pozuntuları, qadağan edilmiş maddələr, dopinqdən istifadənin idmançının sağlamlığına mənfi təsirləri və narkomaniyanın fəsadları barədə geniş məlumatlandırılıblar. Bununla yanaşı, antidopinq siyasətinin əhəmiyyəti vurğulanıb, idmanda dürüstlük və etik dəyərlərin qorunmasının vacibliyi bir daha iştirakçıların diqqətinə çatdırılıb.

Maarifləndirmə proqramı çərçivəsində idmançılar və azarkeşlər üçün sorğular da təşkil olunub. Sorğular vasitəsilə iştirakçılar antidopinq qaydaları ilə bağlı biliklərini sınayıb və düzgün cavab verənlərə xatirə hədiyyələri təqdim edilib. Sorğuların nəticələri göstərib ki, antidopinq sahəsində məlumatlılıq səviyyəsi artmaqdadır və idman ictimaiyyəti təmiz idman prinsiplərinə daha çox əhəmiyyət verir.

Maarifləndirmə proqramı zamanı Ümumdünya Antidopinq Agentliyinin (WADA) bu il Ədalətli İdman Günü üçün elan etdiyi "Ədalətli yarış səndən başlayır" şüarı yazılmış plakat da açılıb.

### Bakıda Dünya minifutbolu

**May ayında Bakıda keçiriləcək minifutbol üzrə Dünya çempionatında hakimlər yeni qulaqlıqlardan istifadə edəcəklər.**




Dünya Minifutbol Federasiyası bununla bağlı "BluCom Communications" şirkəti ilə uzunmüddətli tərəfdaşlıq müqaviləsi imzalayıb.

Ən müasir qulaqlıqlar oyunlar zamanı hakimlər üçün ünsiyyətin və matçların idarə edilməsinin təkmilləşdirilməsində əsas rol oynayacaq.

Qeyd edək ki, Dünya çempionatı mayın 21-dən iyunun 1-dək Milli Gimnastika Arenasında reallaşacaq.

*LQ URBANOVA*
*XQ*

## Yaz çiçəkləri

# Gətirdin ömrümün yazını, nərgiz!



**Hər gələn yazda güllərin, çiçəklərin qoxusu var. Hər yaz mehində bu qoxunu könlümüzdən ruhumuzun dərinliklərinəcən hiss etdirən nərgizlərin də insan kimi yuxusu var. Bəlkə, yaz çiçəklərinin sehri də, mehri də elə bundadır. Məni də beləcə ovsunlayır yaz çiçəkləri. Yazda ana torpaq mənimlə gül-çiçək dilində danışır. Yazın dili nərgiz, bənövşə dilidir.**

Hələ bir şairin hissin, duyğunun zirvəsindən boylanan zərif misra düzümünə fikir verin: "Çiçəklər şairə deyər dərdini..."

Gül-çiçəklə öz dilində danışmasan, ətrini itirər, rəngini dəyişər. Torpağın köksünü yaralamasan, hər qarışında gül bitirər. Bunu bir ovuc torpağın həsrəti ilə yaşayanlar gözəl bilər, hamıdan əzəl bilər.

Torpağın köksündəki çəmənin gül-çiçək xalısını görmüsünüzmü? Zər çiçəklər, xalı çəmənini bəzər çiçəklər. O xalının bircə gülünü üzmüsünüzmü, çiçəyini dərib yaxanıza düzmüsünüzmü? Baxanda gözlər gözəllikdən qamaşar.

Könlüm yazda çöllərə, güllərə uçar, bənövşə-bənövşə, nərgiz-nərgiz qönçələr açar. Doğrudan da, "Bənövşənin xatirinə kol dibinə iz düşər".

Həzin-həzin meh əsdikcə qönçələr baş-başa verib bir-birini qoxlayar. İnsan təbiətin tablosuna biganə qala bilmir, dönüb ayaq saxlayır. Görür ki, "bənövşə qız iylər, qız bənövşəni"...

Nərgiz insan ürəyini ehtizaza gətirən güldür. Yaz günəşi öz zərrin şəfəqlərini yaydıqca arzular çiçəyi – nərgiz gülü açılar. Nərgizin rəngi təzəcə doğmuş günəşin sarımtıl rəngini xatırladır. Nigaran nərgizlər ləçəklərindən gözlərimdə çıraq yandırır. Baxıram, rəngini gözlərimə, ətrini ciyərlərimə köçürürəm.

Nərgizlər yuxulu gözlərini günəşə tərəf əyər. Yaz yağışı yağmağa başlayanda isə su sonası kimi yuyunar nərgizlər. Bu da əzbərimdə yaşayan şeirlər içindən bir seçmədir. Şairin duyğu mənzərəsinə biganə qalmamaq olmur:

**"Üfüqdən baharın ilk günü çıxar,**
**Çıxar, qar deyilən kürkünü çıxar.**
**Qarşına nərgizlər mürgülü çıxar,**
**Sovuşar qışları bizim yerlərin.**
**Yağar yağışları bizim yerlərin,**
**Bahar yağışları bizim yerlərin..."**

Nigaran nərgizləri görəndə duyğular qalereyasından yaranmış bir mənzərə aləminə düşürəm. Nərgizin sarımtıl yuxulu gözlərinə baxanda "yolunu gözləməkdən gözümün kökü saraldı" deyimi yada düşür. Sarı bülbüllərin köksü də, kəhraba kimi bal da nərgiz rəngindədir. Nərgizi görəndə qəlbimi beləcə nurlu duyğular isindirir və beynimi misra-misra düşündürür:



**Anadilin səsinəmi oyandın?**
**Gətirdin ömrümün yazını, nərgiz.**
**Gözlərimdə nazlı-nazlı boylandın,**
**Gözlərim çəkəcək nazını, nərgiz...**

Nigaran nərgizim, sənin baxışında günəş rəngi var. Mənim ömrümün də öz ahəngi var. Təbiətin yazı gələndə çıraq kimi, şam kimi yana- yana məni də yandırırsan:

**Güllərin şahanə sarısı nərgiz,**
**Ürəyimin sancan arısı nərgiz!**

Ana torpağın qoynunda gül kimi bəslənən, köksü sarı bülbül kimi süslənən sarı nərgizim. Şahanə sarılardan danışdıqca özüm də Sarı Aşığa döndüm. Gülüm, mənim könlümü al, könlümü...

*Həzi HƏSƏNLİ,*
*şair – publisist*

# Borçalı idmançılarının uğuru

*Soydaşlarımız Gürcüstan çempionatında 29 medal qazanıblar*



**Tbilisi Gimnastika Arenasında keçirilən çempionat Gürcüstanda yaşayan azərbaycanlılar üçün xüsusilə yaddaqalan olub. Soydaşlarımız bu çempionatda 29 medal qazanıblar.**

Gürcüstanın İdman və Gənclər Nazirliyi, Uşu-sanda Federasiyası və Çinin bu ölkədəki səfirliyinin birgə təşkil etdiyi çempionatda ölkənin bütün bölgələrindən, o cümlədən Borçalı bölgəsinin Uşu-sanda Federasiyasının tərkibindəki "Marneuli" və "Qaraçöp" klublarının yetirmələri iştirak ediblər.

Borçalı Uşu-sanda Federasiyasının prezidenti, dəfələrlə SSRİ, Avropa və ikiqat dünya çempionu, Azərbaycanın Əməkdar idman ustası, Əməkdar məşqçi Canpolat Budaqov bildirib ki, çempionata 8 yaşdan yuxarı, 4 yaş kateqoriyasında və müxtəlif çəki dərəcələrində 32 soydaşımız mübarizə aparıb.

Uşu-sanda üzrə idman ustası Faiq Məmmədovun rəhbərlik etdiyi "Marneuli" klubunun 3 üzvü qızıl medal qazanıb. Bir idmançı ikinci, 8 idmançı isə üçüncü yerə sahib olublar.

Kikboksinq üzrə idman ustası İbrahim Məmmədovun rəhbərlik etdiyi "Qaraçöp" klubunun yetirmələri isə 5 qızıl medal qazanıblar. Klubun 8 yetirməsi çempionatı ikinci, 4-ü isə üçüncü pillədə başa vurublar.

C.Budaqovun sözlərinə görə, soydaşlarımız ilk dəfədir ki, uşu-sanda üzrə Gürcüstan çempionatında belə geniş tərkibdə iştirak edirlər. Bu qələbə soydaşlarımıza beynəlxalq idman yarışlarında iştirak etmək imkanı yaradır.

*Paşa ƏMİRCANOV*
*XQ*

## Sağlamlıq

### Yazda allergiya – qoyma qalsın yaya

**Yaz ayları təbiətin canlandığı, rəngarəng çiçəklərin açdığı bir fəsil olsa da, bəzi insanlar üçün çətin dövr sayılır. Havada tozcuqların bol olması allergiya şikayətlərini artırır.**



Burun tutulması, asqırma, göz qaşınması kimi əlamətlər də tez-tez qarşılaşılan problemlərdəndir. Allergiya, əslində, orqanizmin çiçək tozcuqlarına reaksiyasıdır və təəssüf ki, bu vəziyyət yaz boyu, xüsusilə aprel və may aylarında davam edir.

Fitoterapevtlərin fikrincə, bəzi bitki çayları və yağlar allergiya ilə bağlı simptomları azaldır.

Qaynar suya 1–2 damcı nanə yağı əlavə edib buxarı ilə nəfəs almağın xeyri var.

Zəncəfil allergiya nəticəsində yaranan iltihabı azaltmağa kömək edir və tənəffüs yollarını açır. Təzə zəncəfil nazik dilimlərə kəsilib qaynar suya əlavə edilir. 10–15 dəqiqə dəmlənir. Bu çaydan gündə 1–2 stəkan içmək faydalıdır.

Lavanda sakitləşdirici təsiri ilə həyəcanı azaltmaqla yanaşı, allergiyanın yaratdığı narahatlığı da aradan qaldıra bilər. Lavanda çayı hazırlamaq üçün qaynar suya bitkinin bir neçə çiçəyi əlavə edilib 10 dəqiqə dəmlənir. Bu çay gündə 1–2 stəkan içilir.

Sarımsaq immun sistemini gücləndirən və allergik simptomları aradan qaldıran güclü antibiotikdir. Təzə sarımsaqdan gündə 1–2 diş yemək faydalıdır.

*Z.HÜSEYNLİ*
*XQ*

### Azərbaycan kitabı Rabat sərgisində



**Mərakeşin Rabat şəhərində XXX Rabat Beynəlxalq Kitab Sərgisi öz işinə başlayıb, Azərbaycan builki sərgidə milli stendlə təmsil olunur.**

Mədəniyyət Nazirliyinin bu barədə məlumatında bildirilib ki, ölkəmizlə bağlı yeni çıxan qiymətli kitabların nümayiş olunduğu milli stenddə Azərbaycanın tarixi, mədəniyyəti və kitab sənəti barədə ziyarətçilərə geniş məlumat verilir.

Sərginin açılış mərasimində Mərakeş Krallığının dövlət rəsmiləri, tanınmış ədəbiyyat adamları və yerli media nümayəndələri iştirak ediblər.

*XQ*

## HAVA

# Buludlu və yağışlı bazar günü



**Bakıda və Abşeron yarımadasında bu gün havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 9-11° isti, gündüz 15-20° isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək.

Nisbi rütubət gecə 70-75 faiz, gündüz 55-60 faiz olacaq.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şimal və qərb rayonlarında qısamüddətli yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq.

Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 6-10° isti, gündüz 16-21° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 8-13° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3433
SİFARİŞ 748
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00